RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 232 (9687) 22 oktyabr 2024-cü il ÇƏRŞƏNBƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



## Azərbaycanın ədalətli və parlaq qələbəsinə kimlər sevinmir

**Otuzillik işğala 44 gündə son qoyan, Ermənistan ordusunu darmadağın edərək qarşısında diz çökdürən, məğlub ölkəyə kapitulyasiya aktını imzalatdıran Azərbaycanın möhtəşəm qələbəsi təkcə bununla bitmədi!**

*Torpaqlarımızı işğaldan azad edən müzəffər ordumuz 2023-cü il martın 23-də ölkənin ərazi bütövlüyünə də nail oldu!*

19-20 sentyabrda isə dövlət suverenliyini və konstitusiya əsaslarını təmin etdi!

Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək "dəmir yumruğ"a çevrilən Azərbaycan xalqı bütövlükdə ikiəsrlik Qarabağ münaqişəsinə birdəfəlik son qoydu!

Bununla da Azərbaycanda separatizmin kökü əbədilik kəsildi!

* Bu qələbə ədalətin qələbəsi idi!

* Bu qələbə güclünün və haqlının qələbəsi idi!

* Bu qələbə beynəlxalq hüququn qələbəsi idi!

* Bu qələbə tarixi həqiqəti bərpa edən güclü xalqın işğalçı dövlət üzərində hərbi, siyasi, hüquqi və mənəvi qələbəsi idi!

Azərbaycan bu qələbəyə iqtisadi qüdrəti sayəsində nail oldu!

Azərbaycan bu qələbəyə müdrik və uzaqgörən siyasəti sayəsində nail oldu!

Azərbaycan bu qələbəyə ən müasir silahlarla silahlanmış, ən yeni strategiya və taktika tətbiq edən güclü ordusu sayəsində nail oldu!

Azərbaycan bu qələbəyə xalqla iqtidarın yekdilliyi, ölkədə yaranan milli birlik sayəsində nail oldu!

Azərbaycan bu qələbəyə qorxmaz, qətiyyətli və möhkəm iradəli, xalqın və dövlətin maraqlarını daim uca tutan qəhrəman rəhbəri və sərkərdəsinin atdığı hesablanmış addımlar, nəyi, necə və nə vaxt edəcəyini dəqiq bilməsi sayəsində nail oldu!

Azərbaycan xalqı və ordusu təkbaşına döyüşdü, öz gücünə və imkanlarına güvənərək çarpışdı, şücaət, cəsarət və qəhrəmanlıqla vuruşdu!

**Halal və şəriksiz qələbə qazandı!**
**Minnətsiz qələbə qazandı!**

Bunu bütün dünya gördü, bildi və şahidlik etdi!

*Ancaq Azərbaycanın bu ədalətli və parlaq qələbəsinə hamı sevindimi?*

*Təbii, dostlarımız sevindi...*

Düşmənimizin dostları, ermənilərin müdafiəçiləri və dəstəkçiləri isə əvvəlcə Azərbaycanın qısa müddətdə qazandığı möhtəşəm qələbəsindən şoka düşdülər...

Sonra biabırçı məğlubiyyətə uğrayan dostlarını xilas etmək üçün əl-ayağımıza düşdülər...

Daha sonra isə "ölünü diriltmək", ona süni nəfəs vermək üçün "xilasedici" tədbirlərə və addımlara əl atdılar.

**Lap axırda isə bizə qarşı açıq-aşkar, heç bir əsası olmadan və utanıb-qızarmadan düşmənçilik hərəkətlərinə rəvac verməyə başladılar.**

Bu gün də mənfur və riyakar niyyətlərini davam etdirir, üzümüzə gülərək ayağımızdan çəkir, kölgəmizi qılınclayırlar.

→ 4

## Baydenin xahiş məktubu...

### Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Hörmətli cənab Prezident!

İki ölkə arasında münasibətlərin normallaşdırılmasına xidmət edəcək sülh sazişinin yekunlaşdırılması istiqamətində ölkənizin və Ermənistanın əldə etdiyi davamlı tərəqqidən məmnunam. Sizi əmin etmək istəyirəm ki, ABŞ, əsrlər boyu davam edən münaqişəyə nəhayət son qoyacaq Azərbaycan ilə Ermənistan arasında dayanıqlı və ləyaqətli sülhün əldə edilməsinə dəstək verməyə hazırdır.

Sülh sazişi Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün təmin edilməsi ilə yanaşı, bütün regionu transformasiya edəcək, Avropa və Mərkəzi Asiya arasında daha çox ticarətə, sərmayə qoyuluşuna və bağlılığa xidmət göstərəcək. Dünyanın diqqəti COP29 ilə bağlı Bakıya yönəldiyi bir vaxtda qlobal ictimaiyyətə sülhə sadiqliyinizi nümayiş etdirmək üçün misilsiz imkana maliksiniz. Bildiyiniz kimi, sülh sazişinin razılaşdırılmamış bəndlərinə dair işin yekunlaşdırılması hər iki tərəfdən kreativlik və güzəşt tələb edəcək. Lakin əminəm ki, bu imkandan yararlanmağa davam edəcəksiniz. Mən Sizi cari ildə sazişi yekunlaşdırmağa dəvət edirəm.

Bu məsələyə dəstək verməyə sadiq olduğumu bildirmək istəyirəm. Mənim administrasiyam sülhə yol açacaq cəsarətli təşəbbüslərin irəli sürülməsinə hazırdır. Xahişimlə xüsusi köməkçim, Avropa üzrə baş direktor Maykl Karpenter atmağa hazır olduğumuz müəyyən addımlarla bağlı Sizi məlumatlandıracaq və Ermənistanla müzakirələrə dair Sizin mövqeyinizi öyrənəcək.

Ümid edirəm ki, birgə firavanlıq və ümumi xeyir naminə regiona dair yeni kursun seçilməsi üçün bu fürsətdən yararlanacaqsınız.

*Hörmətlə,*

***Cozef BAYDEN,***
***Amerika Birləşmiş Ştatlarının Prezidenti***

## Azərbaycan regional sülh gündəliyini dəstəkləyir

### Prezident İlham Əliyev ABŞ Prezidentinin xüsusi köməkçisini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 21-də ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Maykl Karpenteri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Maykl Karpenter qəbula görə təşəkkürünü bildirdi və ABŞ Prezidenti Cozef Baydenin məktubunu dövlətimizin başçısına təqdim etdi. O, ABŞ-nin Ermənistanla Azərbaycan arasında sülh müqaviləsinin tezliklə imzalanmasını dəstəklədiyini vurğulayaraq, sülh müqaviləsinin imzalanması üçün hazırkı şəraitdə tarixi imkanların olduğunu dedi.

Sülh müqaviləsinin imzalanması ilə regional əməkdaşlıq üçün geniş imkanların yaranacağını vurğulayan qonaq bildirdi ki, ABŞ-nin bu prosesin irəli aparılmasında qəti dəstəyi var.

Sülh müqaviləsinin və onun əsasını təşkil edən beş prinsipin təşəbbüskarının məhz Azərbaycan olduğunu deyən dövlətimizin başçısı vurğuladı ki, ölkəmiz regional sülh gündəliyini dəstəkləyir.

Prezident İlham Əliyev qeyd etdi ki, Ermənistanın sülh müqaviləsinin mətni üzrə son təkliflərini 70 gündən sonra göndərməsi bu ölkənin prosesin irəli aparılması niyyəti ilə bağlı müəyyən suallar doğurur. Ermənistanın konstitusional əsasda Azərbaycana qarşı ərazi iddialarının sülh müqaviləsinin imzalanması yolunda başlıca maneə olduğunu bildirən Prezident İlham Əliyev ölkəmizin prosesin irəli aparılması üçün bundan sonra da qəti addımlarını davam etdirəcəyini vurğuladı.

Görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli gündəliyə aid olan məsələlər barədə də fikir mübadiləsi aparıldı.

## Prezident İlham Əliyev Zəngilanın azad olunmasının növbəti ildönümü ilə bağlı paylaşım edib


İlham Əliyev
@azpresident

Xocavənd rayonunun Ağcakənd, Mülküdərə, Daşbaşı, Günəşli, Çinarlı, Zəngilan rayonunun Havalı, Zərnəli, Məmmədbəyli, Həkəri, Şərifan, Muğanlı kəndləri və Zəngilan şəhəri işğaldan azad edilib. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!

4:01 PM · Oct 20, 2020

Prezident İlham Əliyev Zəngilanın işğaldan azad edilməsinin növbəti ildönümü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb.

AZƏRTAC paylaşımı təqdim edir: "Zəfər tariximiz - Zəngilanın Ermənistan işğalından azad edilməsindən dörd il ötür".

## Azərbaycanı daha da gücləndirəcək qlobal tədbir

COP ona evsahibliyi edən ölkələrə çəkilən zəhmət qarşılığında böyük üstünlüklər qazandırır. Bu baxımdan belə bir qlobalmiqyaslı tədbirə evsahibliyi etmək iqlim dəyişiklikləri ilə mübarizədə Azərbaycanın mövqeyinin güclənməsinə xidmət edəcək. COP29-un ən mühüm faydalarından biri də Azərbaycanın beynəlxalq səviyyədə daha yaxşı tanınaraq mövqeyinin güclənməsi olacaq. COP dünya ölkələrinin, beynəlxalq təşkilatların, eləcə də qeyri-hökumət təşkilatlarının geniş iştirakı ilə keçirilir. Azərbaycan bu tədbirə evsahibliyi etməklə qlobal iqlim müzakirələrində önəmli bir oyunçu kimi özünü uğurla təqdim edərək mövqeyini beynəlxalq səviyyədə daha da gücləndirəcək. Bunlardan savayı, məlumdur ki, belə bir böyük tədbir zamanı çox sayda dövlət və hökumət başçıları, eləcə də beynəlxalq təşkilatların nümayəndələri Azərbaycana səfər edəcəklər. Bu da ölkənin diplomatik əlaqələrinin möhkəmləndirilməsi və iqtisadi əməkdaşlıq sahələrinin genişləndirilməsi üçün yeni fürsətlər yaradacaq.

→ 8

## Azərbaycanın BRICS-ə qoşulması...

### Bu, təşkilatın beynəlxalq mövqeyini möhkəmləndirə bilər

Azərbaycan BRICS-ə üzvlük üçün avqust ayında rəsmi müraciət ünvanlayıb. Sözügedən təşkilata qoşulmaq arzusu Azərbaycan tərəfindən ilk dəfə olaraq iyulun 3-də Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı zamanı qəbul olunan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"də ifadə edilib. Həmin bəyannamədə Çin tərəfinin bu məsələyə dəstək verdiyi də bildirilib. 11 iyul tarixdə Sankt-Peterburq şəhərində BRICS ölkələrinin X Parlament Forumunun plenar iclası zamanı Milli Məclisin Sədri Sahibə Qafarova Bakının birliyə qoşulmaqda maraqlı olduğunu bildirərək, təşkilat ilə əməkdaşlığın genişlənməsinin ümumi məqsədlərə nail olmağa kömək edəcəyini bildirib.

→ 5

## Dövlət Komissiyası qeydiyyatdan kənarda qalmış itkinlərin ailələrinə müraciət edib

Vətən müharibəsində əldə edilmiş tarixi Zəfərdən sonra Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasına və müvafiq dövlət qurumlarına daxil olan çoxsaylı müraciətlərin təhlili göstərir ki, Ermənistanın Azərbaycan Respublikasına qarşı hərbi təcavüzü nəticəsində Birinci Qarabağ müharibəsində itkin düşmüş bir sıra şəxs aidiyyəti qeydiyyatlardan kənarda qalıb. Buna səbəb kimi, Birinci Qarabağ müharibəsindən sonrakı dövrdə bəzi itkin ailələrinin yaxınlarının rəsmi qeydiyyata alınması üçün Dövlət Komissiyasına müraciət etməməsi göstərilə bilər.

AZƏRTAC-ın xəbərinə görə, qeyd olunanları nəzərə alaraq, Dövlət Komissiyası qeydiyyatdan kənarda qalmış və yaxınları ilə bağlı DNT nümunələri verməmiş itkin ailələrindən, o cümlədən itkin düşmüş şəxslərə dair məlumatı olan vətəndaşlardan qısa müddət ərzində işçi qrupu ilə əlaqə saxlayaraq itkin yaxınları barədə məlumatları və DNT nümunələrini verməyi xahiş edir.

**Ünvan: Bakı şəhəri, Parlament prospekti, 14.**
**Qaynar xətt: 81-61**
**Tel: (012) 405-99-79**
**Mobil: (010) 232-33-77**
**E-poçt: info@human.gov.az**

# "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş"in təsdiq edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 95-ci maddəsinin I hissəsinin 4-cü bəndini rəhbər tutaraq **qərara alır:**

2024-cü il mayın 24-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Moldova Respublikası Hökuməti arasında readmissiya haqqında Saziş" təsdiq edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 8 oktyabr 2024-cü il*

# S.M.Qasımovun Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Sultan Məhəmməd oğlu Qasımov Rusiya Federasiyasının Sankt-Peterburq şəhərində Azərbaycan Respublikasının baş konsulu vəzifəsindən geri çağırılsın.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 21 oktyabr 2024-cü il*

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 459 **QƏRAR** Bakı şəhəri, 21 oktyabr 2024-cü il

## "Şuşa şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı"nın təsdiq edilməsi haqqında

"Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikasının 2012-ci il 29 iyun tarixli 392-IVQ nömrəli Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 4 sentyabr tarixli 695 nömrəli Fərmanının 4.2-ci bəndinə əsasən, Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin təklifini nəzərə alaraq Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Şuşa şəhərinin 2040-cı ilədək inkişafına dair Baş planı" təsdiq edilsin *(əlavə olunur)*.



***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycanın xarici işlər naziri ABŞ Prezidentinin xüsusi köməkçisi ilə görüşüb

**Oktyabrın 21-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ABŞ Prezidentinin xüsusi köməkçisi və Milli Təhlükəsizlik Şurasının Avropa üzrə baş direktoru Maykl Karpenterin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan ilə ABŞ arasında ikitərəfli və regional məsələlər, habelə Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin cari vəziyyəti və perspektivləri müzakirə olunub.

Azərbaycanla ABŞ arasında ikitərəfli münasibətlərdə müsbət dinamikanın yaradılması, gələcək əməkdaşlıq perspektivlərinin müəyyənləşdirilməsi istiqamətində səylərin artırılmasının əhəmiyyəti qeyd edilib.

Görüş zamanı Ceyhun Bayramov Azərbaycanla Ermənistan arasında normallaşma və sülh sazişi üzrə aparılan proses, eləcə də sonuncu İstanbul görüşü barədə qarşı tərəfə məlumat verib. Sülh sazişi üzrə danışıqlarda əhəmiyyətli irəliləyişə baxmayaraq, yekun sülh sazişinin imzalanmasına ən ciddi maneənin başda Ermənistan konstitusiyası olmaqla, bu ölkənin bir sıra hüquqi və siyasi sənədlərində Azərbaycana qarşı ərazi iddialarının davam etməsi olduğu vurğulanıb.

Görüşdə, habelə qarşılıqlı maraq doğuran regional məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Azərbaycan və Belçika Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələr aparılıb

Oktyabrın 21-də Bakı şəhərində Azərbaycan Respublikası və Belçika Krallığının Xarici İşlər nazirlikləri arasında siyasi məsləhətləşmələrin növbəti iclası keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, Azərbaycanın nümayəndə heyətinə xarici işlər nazirinin müavini Fariz Rzayev, Belçikanın nümayəndə heyətinə isə Xarici İşlər Nazirliyinin ikitərəfli məsələlər üzrə baş direktoru Jeroen Kooreman rəhbərlik edib.

Məsləhətləşmələr zamanı Azərbaycan və Belçika arasında siyasi sahədə əlaqələr müzakirə olunub, davamlı siyasi dialoqun saxlanılması üçün qarşılıqlı səfərlərin və beynəlxalq tədbirlər çərçivəsində görüşlərin əhəmiyyəti qeyd olunub.

İqtisadi sahədə əlaqələrin inkişafı üçün ticarət dövriyyəsinin artırılması, enerji, nəqliyyat, yüksək texnologiyalar sahələrində əməkdaşlıq imkanlarından faydalanmağın əhəmiyyəti vurğulanıb, habelə ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən strateji enerji və nəqliyyat layihələri ilə bağlı müzakirələr aparılıb.

Xalqlararası təmasların inkişafında mədəniyyət və təhsil kimi sahələrdə mübadilələrin artırılmasının səmərəli olacağı bildirilib.

Görüşdə beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq, cari ilin noyabr ayında Azərbaycanın evsahibliyi edəcəyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq və görülmüş işlərlə bağlı fikir mübadiləsi aparılıb.

Məsləhətləşmələrdə regional məsələlər də diqqət mərkəzində olub. Qarşı tərəfə postmünaqişə dövründə bölgədəki vəziyyət, Azərbaycan-Ermənistan münasibətlərinin normallaşdırılması, Azərbaycan tərəfindən bölgədə davamlı sülhün bərqərar olunması istiqamətində atılan addımlar, işğaldan azad edilmiş ərazilərimizdə mina problemi, orada həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri barədə məlumat verilib.

Tərəflər beynəlxalq gündəlikdə dayanan məsələlər, eləcə də birgə maraq kəsb edən digər mövzular ətrafında fikir mübadiləsi aparıblar.

# *Hakan FİDAN:* "Türkiyə ilə Azərbaycanın ortaq fəaliyyəti qlobal siyasətə qarşı rasional perspektiv yaradır"

**Azərbaycanla bir çox sahələrdə tək dövlət kimi fəaliyyət göstəririk. Həssas qurumlarımız çox yaxın əməkdaşlıq edirlər. İqtisadiyyatlarımız da bir-birinə çox yaxın formada inkişaf edir. Maraqlarımızın müəyyənləşdirilməsi, strateji yanaşmalarımız və dost-düşmən anlayışlarımız bir-biri ilə üst-üstə düşür.**



AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin xarici işlər naziri Hakan Fidan yerli televiziya kanallarından birinin suallarını cavablandırarkən ifadə edib.

Nazirin bu ifadələri Türkiyə mətbuatının diqqət mərkəzində yer alıb.

Müsahibəsində Azərbaycan-Türkiyə münasibətləri haqqında danışan nazir ölkələrimizin "Bir millət, iki dövlət" prinsipi ilə hərəkət etdiyini vurğulayıb.

"İki dövlətin, xüsusilə onların strateji qurumlarının ortaq fəaliyyət göstərməsi, başda Cənubi Qafqaz olmaqla, regional və geosiyasi fırtınalarla mübarizə aparan qlobal siyasətə qarşı rasional bir perspektiv yaradır və inteqrasiyanı daha da dərinləşdirir", - deyən Hakan Fidanın bu fikirlərini şərh edən Türkiyə mətbuatı iki ölkə arasındakı münasibətlərin bu qədər dərinləşməsini ortaq fəaliyyətin, uzun və məşəqqətli yolun nəticəsi olaraq qiymətləndirib.

Belə ki, ötən əsrdə formalaşan geosiyasi sistem bunun üçün olduqca böyük çətinliklər yaradırdı. Lakin hazırda bölgədə, xüsusilə İkinci Qarabağ müharibəsindən sonra yaranan siyasi vəziyyət regionun "sahiblənməyə" ehtiyac duyulduğu həqiqətlərini də ortaya qoydu. Bunu da Türkiyənin XİN rəhbəri demək olar ki, hər açıqlamasında vurğulayır.

Qardaş ölkə mətbuatı bu baxımdan Türkiyə, Azərbaycan, İran, Ermənistan və Rusiya xarici işlər nazirlərinin iştirakı ilə İstanbulda baş tutan Cənubi Qafqaz Regional Əməkdaşlıq Platformasının üçüncü toplantısının çox əhəmiyyətli olduğunu qeyd edir. Görüşün sonunda iştirakçı ölkələr tərəfindən yayımlanan ortaq bəyanatda regional sabitlik və iqtisadi əməkdaşlığın vurğulanması da diqqətçəkən məqamdır.

Türkiyə mediası həmçinin bu kimi toplantıların ən böyük xüsusiyyətinin sabitlik üçün dialoqun dərinləşdirilməsinə töhfə vermək olduğunu vurğulayır.

# Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 458 **QƏRAR** Bakı şəhəri, 21 oktyabr 2024-cü il

## "Mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi Qaydası"nın və "Xüsusi status almış mədəniyyət təsisatlarının işçilərinin aylıq vəzifə maaşlarına müəyyən edilmiş əlavələr"in təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 382 nömrəli Qərarında dəyişiklik edilməsi barədə

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi Qaydası"nın və "Xüsusi status almış mədəniyyət təsisatlarının işçilərinin aylıq vəzifə maaşlarına müəyyən edilmiş əlavələr"in təsdiq edilməsi haqqında"Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2016-cı il 5 oktyabr tarixli 382 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 10, maddə 1700 (Cild I) aşağıdakı dəyişikliklər edilsin:

1. Həmin Qərarla təsdiq edilmiş "Mədəniyyət təsisatlarına xüsusi statusların verilməsi Qaydası" üzrə:

1.1. 1.2-ci bəndə və 3-cü hissənin adına "akademik" sözündən sonra ", beynəlxalq" sözü əlavə edilsin;

1.2. 2.1.2.8-ci yarımbənddə "Yunesko" sözü "UNESCO" abreviaturası ilə əvəz edilsin;

1.3. aşağıdakı məzmunda 2.2-1-ci bənd əlavə edilsin:

"2.2-1. "Beynəlxalq" status aşağıdakı meyarlar nəzərə alınmaqla verilir:

2.2-1.1. konsert müəssisələri üzrə:

2.2-1.1.1. tərkibində ən azı 2 kollektivi olan;

2.2-1.1.2. beynəlxalq səviyyədə böyük nüfuz qazanan, milli mədəniyyətin təbliğatı və təşviqatı istiqamətində, o cümlədən beynəlxalq miqyasda təbliğində xüsusi rolu olan;

2.2-1.1.3. əhalinin müxtəlif təbəqələrinin estetik zövqünü, bədii anlamını formalaşdıran və onlarda bədii yaradıcılığa meyil oyadan;

2.2-1.1.4. vətənpərvərlik, humanizm, vətəndaşlıq, habelə milli, mənəvi, multikultural dəyərlərə hörmət və rəğbət hissləri aşılayan;

2.2-1.1.5. dünyanın aparıcı konsert və ya mədəniyyət sahəsi üzrə ixtisaslaşmış tədris və digər mədəniyyət müəssisələri, folklor-araşdırma, ekspedisiya mərkəzləri, müvafiq beynəlxalq təşkilatlar, eləcə də xarici ölkələrin aidiyyəti qurumları, diplomatik nümayəndəlikləri və konsulluqları ilə birgə əməkdaşlıq edən;

2.2-1.1.6. muğam, aşıq sənəti və xalq musiqisi ilə bağlı müxtəlif səpkili beynəlxalq və yerli səviyyəli tədbirlər (festival, müsabiqə, konsert, ustad dərsləri, elmi konfranslar, seminarlar, mühazirələr, simpoziumlar, dəyirmi masa və s.) təşkil edən və bu cür tədbirlərdə iştirak edən;

2.2-1.1.7. Azərbaycanın bölgələrinə və ölkə xaricinə mütəmadi qastrol səfərləri təşkil edən;

2.2-1.1.8. UNESCO çərçivəsində milli-mənəvi dəyərlərin qorunmasında və Azərbaycan mədəniyyətinin təbliğində fəal iştirak edən;

2.2-1.1.9. müxtəlif layihələr çərçivəsində Azərbaycan mədəniyyətinin təbliğinə yönəlmiş kitablar nəşr edən, həmin kitabların xarici dillərə tərcüməsini həyata keçirərək təqdimatını reallaşdıran;

2.2-1.1.10. tərkibində səsyazma və ya video studiyaları yaradan;

2.2-1.1.11. asudə vaxtın səmərəli təşkilində və insanların ictimai mövqeyinin formalaşmasında yaxından iştirak edən.";

1.4. 4-cü hissənin adına "akademik" sözündən sonra ", "beynəlxalq" sözü əlavə edilsin;

1.5. 4.1-ci bəndə "Akademik" sözündən sonra ", "Beynəlxalq" sözü əlavə edilsin.

2. Həmin Qərarla təsdiq edilmiş "Xüsusi status almış mədəniyyət təsisatlarının işçilərinin aylıq vəzifə maaşlarına müəyyən edilmiş əlavələr" üzrə:

2.1. aşağıdakı məzmunda 2-1-ci hissə əlavə edilsin:

**2-1. "Beynəlxalq" status almış müəssisələr üzrə:**

| | | |
|---|---|---|
| 2-1.1. | 1-4-cü dərəcələr | - 55 manat |
| 2-1.2. | 5-7-ci dərəcələr | - 90 manat |
| 2-1.3. | 8-11-ci dərəcələr | - 120 manat |
| 2-1.4. | 12-15-ci dərəcələr | - 160 manat |
| 2-1.5. | 16-17-ci dərəcələr | - 200 manat |
| 2-1.6. | 18-19-cu dərəcələr | - 280 manat |

2.2. "Qeyd"inə "Akademik" sözündən sonra ", "Beynəlxalq" sözü əlavə edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Media nümayəndələri üçün "ESG Hesabatlarının Tərifi və Təhlili" mövzusunda seminar keçirilib

**Oktyabrın 21-də Heydər Əliyev Mərkəzində media nümayəndələri üçün "ESG Hesabatlarının Tərifi və Təhlili" mövzusunda seminar təşkil olunub.**






AZƏRTAC xəbər verir ki, seminar COP29 Azərbaycan Əməliyyat Şirkətinin, Azərbaycanda Amerika Ticarət Palatasının (AmCham), "Coca-Cola Azərbaycan" və "PwC Azərbaycan" şirkətlərinin birgə təşkilatçılığı ilə keçirilib.

Bildirilib ki, seminarın məqsədi son illərdə Ətraf mühit, Sosial və İdarəetmə (ESG) hesabatlarının əhəmiyyətinə artan qlobal diqqət fonunda media nümayəndələrinin mövzu ilə yaxından tanış olmaları, jurnalistlərin ESG hesabatlarına dair dərin biliklərlə təmin edilməsidir.

Seminarda çıxış edən COP29 Əməliyyat Şirkətinin Koordinasiya Şurasının üzvü Ayan Nəcəf yaşıl dünya naminə həmrəylik, davamlılıq fəaliyyəti, iqlim fəaliyyəti, eləcə də COP29 konfransının ölkəmiz üçün bir tədbir xarakteri daşımadığını, bunun bir proses olduğunu diqqətə çatdırıb. Qeyd olunub ki, ölkəmiz "yaşıl transformasiya" üçün kifayət qədər uzunmüddətli və iddialı hədəflər təyin edib. İqlim konfransına evsahibliyi də həmin hədəflər sırasındadır. "Əsas hədəfimiz ondan ibarətdir ki, iqlim konfransı tərəflər üçün hərtərəfli effektiv təşkil olunsun. Buna görə də COP29 Sədrliyi olaraq üzərimizə böyük məsuliyyət düşür", - deyə Ayan Nəcəf bildirib.

Onun sözlərinə görə, istər danışıqlar gündəliyinin bütün tərəflərə çatdırılması, istər təşkilatçılıq məsələləri üzrə məlumat mübadiləsinin düzgün təşviqində media nümayəndələrinin ixtisaslaşması və səriştələrinin artırılması əsas prioritetlərdəndir: "COP29 danışıqlarının mövzularının sadələşdirilməsi, şəffaf şəkildə geniş kütləyə çatdırılması medianın rolunu daha önəmli edir. Bu sahədə media nümayəndələri ilə təlim proqramlarına kifayət qədər geniş yer ayrılıb. Sevindiricidir ki, bu məsələdə özəl sektor da bizi tək qoymur".

A.Nəcəf bildirib ki, iqlim fəaliyyəti kifayət qədər mürəkkəb proses olduğundan, bu sahədə dövlət və özəl sektorlarının, vətəndaş cəmiyyətinin, təşkilatların hesabatlılığı vacib məsələdir: "Bu xüsusda Ətraf mühit, Sosial və İdarəetmə (ESG) hesabatlarının geniş ictimaiyyətə çatdırılmasının təmin olunması mühüm əhəmiyyət kəsb edir".

"Coca-Cola" şirkətinin Avrasiya və Yaxın Şərq üzrə ictimai əlaqələr kommunikasiya və davamlılıq üzrə baş direktoru Elşad Fərzəliyev isə çıxışında COP29 tədbiri zamanı dünyanın diqqətinin iqlim mövzusu ilə bağlı Azərbaycanda cəmləşəcəyini vurğulayaraq fikirlərinə belə davam edib: "Ölkəmizdə keçiriləcək beynəlxalq tədbirdə müzakirələrdə iştirakdan tutmuş, onun işıqlandırılmasına qədər media vacib rol oynayır. Bu səbəbdən də COP ərəfəsində belə bir seminar keçirmək qərarına gəldik".

"Coca-Cola"nın dünyanın aparıcı şirkəti olaraq iqlim və dayanıqlı inkişaf mövzularına böyük önəm verdiyini deyən E.Fərzəliyev şirkətin biznes fəlsəfəsinin heç bir biznes qurumunun cəmiyyət, ətraf mühit inkişaf etmədən irəli gedə bilməyəcəyinə əsaslandığını diqqətə çatdırıb: "Biz də həmin inkişafın bir hissəsi olaraq daim qlobal, regional və yerli miqyasda dayanıqlı inkişaf sahəsinə həm investisiya qoyuruq, həm də biznes əməliyyatlarımızın dayanıqlılığını təmin etməyə çalışırıq. Həmin istiqamətdə nailiyyətlərimiz də var", - deyə E.Fərzəliyev qeyd edib.

Daha sonra "Biznes mühitində paradiqm dəyişikliyini anlamaq", "Daha yaxşı birgə gələcək üçün birlikdə: "Coca-Cola"nın davamlılıq strategiyası", "Xəbər yazmaq sənəti və elmi", "Azərbaycan ESG-nin hüquqi çərçivəsi bu gün", ESG hesabatlarını necə oxumaq, anlamaq və təhlil etmək" mövzularında çıxışlar dinlənilib, media nümayəndələrinin sualları cavablandırılıb.

Həmçinin COP29 Əməliyyat Şirkəti nümayəndələri tərəfindən media nümayəndələri üçün COP29 tədbiri barədə təşkilati hazırlıq və media xidmətləri barədə təqdimatlar edilib.

Seminar zamanı COP29-un gündəlik tematik proqramı da açıqlanıb. Bildirilib ki, noyabrın 11-i COP29-un açılış günü, noyabrın 12-13-də isə İqlim Fəaliyyəti üzrə Dünya Liderlərinin Sammiti keçiriləcək.

Noyabrın 14-də Maliyyə, İnvestisiya və Ticarət Günü, noyabrın 15-də Enerji/Sülh, Yardım və Bərpa Günü, noyabrın 16-da Elm, Texnologiya və İnnovasiya/Rəqəmsallaşma Günü reallaşacaq. Noyabrın 17-də COP29-da heç bir tematik proqram nəzərdə tutulmayıb və istirahət günü olacaq.

Noyabrın 18-də İnsan kapitalı/Uşaqlar və Gənclər/ Sağlamlıq/Təhsil Günü, 19-da Qida, Kənd təsərrüfatı və Su Günü, 20-də Urbanizasiya/Nəqliyyat/Turizm Günü, 21-də Təbiət və Biomüxtəliflik/Yerli xalqlar/Gender Bərabərliyi/Okeanlar və Sahil Zonaları Günü keçiriləcək. Noyabrın 22-də isə yekun müzakirələr aparılacaq.

Noyabrın 4-dən 10-dək konfransa hazırlıq mərhələsində COP29 Sədrliyinin təşəbbüsü ilə müxtəlif mövzularda danışıqlar aparılacaq, kiçikhəcmli konfranslar, sessiyalar təşkil ediləcək.

# Milli Məclisin Sədri Sahibə Qafarova Türkiyənin Azərbaycandakı səfirini qəbul edib

**Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, parlamentin sədri Sahibə Qafarovanı bu vəzifəyə yenidən seçilməsi münasibətilə təbrik edən səfir, ötən dövrdə Milli Məclisin ölkələrimiz arasında münasibətlərin daha da dərinləşməsinə mühüm töhfələr verdiyini söyləyib.**



Azərbaycan və Türkiyə arasında dostluq və qardaşlıq münasibətlərinin "Bir millət, iki dövlət" şüarına əsaslanaraq uğurla inkişaf etdiyini deyən Milli Məclisin Sədri Sahibə Qafarova, ölkələrimizin və xalqlarımızın həm şad, həm də çətin günlərdə hər zaman birlikdə olduğunu vurğulayıb. Spiker qeyd edib ki, dövlət başçılarımızın dostluq və qardaşlıq münasibətləri bizim hər birimiz üçün örnək təşkil edir.

O qeyd edib ki, bu gün Azərbaycan və Türkiyə arasında mövcud olan qardaşlıq münasibətlərinə qısqanclıqla yanaşanlar var. Həmçinin bəzi dairələr Azərbaycan və Türkiyəyə qarşı təzyiqlər göstərməyə, onların müstəqil, milli maraqlara söykənən siyasətlərinə təsir göstərməyə cəhd edirlər. Sahibə Qafarova bu cür cəhdlərin heç bir nəticə verməyəcəyini, dövlətlərimizin inkişaf yolunda inamla addımlamağa davam edəcəyini vurğulayıb.

Milli Məclisin Sədri bu vəzifəyə yenidən seçilməsindən sonra onu ilk olaraq Numan Kurtulmuşun təbrik etdiyini, həmçinin parlament seçkilərində TBMM-in müşahidə missiyasının ən böyük heyətlə təmsil olunduğunu xatırladaraq, bunları digər sahələrdə olduğu kimi, parlamentlərimiz arasında da əlaqələrin ən yüksək səviyyədə olmasının göstəricisi kimi qiymətləndirib.

Spiker TBMM Sədri ilə bir neçə gün öncə keçirdiyi görüşü məmnunluqla xatırlayaraq, görüşdə gündəlikdə duran məsələlər haqqında səmərəli müzakirələrin aparıldığını bildirib. O, Azərbaycan-Türkiyə parlamentlərarası əlaqələr üzrə işçi qrupunun tam tərkibdə yenidən formalaşdığını bildirərək, qarşıdakı dövrdə də münasibətlərin daha da inkişafı üçün müvafiq səylərin davam etdiriləcəyini vurğulayıb.

Görüşdə Azərbaycan və Türkiyənin bir çox beynəlxalq təşkilatlarda olduğu kimi, Türk Dövlətləri Təşkilatında uğurla əməkdaşlıq etdiyi qeyd olunaraq, parlamentlərimizin də TürkPA çərçivəsində bu istiqamətdə fəaliyyətini davam etdirdiyi bildirilib.

Spiker Sahibə Qafarova Cahit Bağçının Türkiyə Respublikasının Azərbaycandakı səfiri kimi fəaliyyətini təqdir edərək, onun qanunverici orqanla da sıx təmaslar qurduğunu söyləyib.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər haqqında da fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Bələdiyyələrin büdcəsinin icrasında səmərəlilik artırılır



**Oktyabrın 21-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, iclasın gündəliyinə daxil olan hər iki məsələ barədə komitənin sədri Azər Əmiraslanov məlumat verib.**

Birinci məsələ olan "Bələdiyyələrin maliyyəsinin əsasları haqqında", "Büdcə sistemi haqqında" və "Nağdsız hesablaşmalar haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) ilə bağlı Azər Əmiraslanov diqqətə çatdırıb ki, sənəd bələdiyyə büdcəsinin gəlir və xərclərinin bələdiyyələrin fəaliyyətinə inzibati nəzarəti həyata keçirən orqanın informasiya sistemində əks olunmasını təsbit edir. Həmçinin layihədə "Nağdsız hesablaşmalar haqqında" Qanuna bələdiyyə yığımları üzrə hesablaşmaların da nağdsız qaydada həyata keçirilməsi təklif olunub. Komitə sədri vurğulayıb ki, dəyişikliklər bələdiyyə büdcəsinin formalaşmasında və icrasında şəffaflığın təmin olunmasına, yerli büdcənin icrasının və vəsaitlərdən istifadənin səmərəliliyinin artırılmasına xidmət edəcək.

İkinci məsələ olan "İstehlakçıların hüquqlarının müdafiəsi haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı komitə sədri bildirib ki, dəyişikliklər alkoqollu içkilərin pərakəndə satışına dair minimum qiymət tələbinin müəyyən edilməsi məqsədilə hazırlanıb. Layihəyə əsasən, alkoqollu içkilərin pərakəndə satışının minimum qiyməti müəyyən ediləcək, bununla bağlı müvafiq qaydalar təsdiqlənəcək və pərakəndə satışının minimum qiyməti müəyyən edilmiş alkoqollu içkilərin həmin qiymətdən aşağı qiymətə satılması qadağan olunacaq.

Vurğulanıb ki, dəyişikliklər istehlakçıların sağlamlığının və hüquqlarının müdafiəsinin gücləndirilməsinə, alkoqollu içkilərin satışı bazarında minimum keyfiyyət və təhlükəsizlik göstəricilərinə cavab verməyən məhsulların qarşısının alınmasına, habelə yerli istehsalçıların iqtisadi maraqlarının qorunmasına xidmət edir.

Qanun layihələrinin müzakirəsində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Azər Badamov, komitə üzvləri Vüqar Bayramov, Aydın Hüseynov, Rövşən Muradov, Əlibala Məhərrəmzadə, Ziyad Səmədzadə, Əli Məsimli, Heydər Əsədov, Müşfiq Cəfərov və Məşhur Məmmədov çıxış ediblər. Deputatlar layihələrin əhəmiyyəti, zəruriliyi ilə bağlı fikirlərini bildiriblər, onların icra mexanizmləri və tətbiqi ilə bağlı bəzi qeydlərini, suallarını və təkliflərini səsləndiriblər.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, İqtisadiyyat Nazirliyinin Tarif-qiymət siyasəti şöbəsinin müdiri Ceyhun Nəcəfov və Dövlət Vergi Xidmətinin Aksizli və Markalanmalı Malların Dövriyyəsinə Nəzarət Baş İdarəsinin rəisi Azər Süleymanov deputatların qaldırdıqları məsələlərə aydınlıq gətiriblər, sualları cavablandırıblar.

İclasda müzakirə edilən qanun layihələri birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Milli Məclisdə "COP29-a qarşı hibrid təhdidlər" mövzusunda ictimai müzakirə keçirilib

**Oktyabrın 21-də Milli Məclisin Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyasının "COP29-a qarşı hibrid təhdidlər" mövzusunda ictimai müzakirəsi keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, müvəqqəti komissiyanın sədri Ramid Namazov iclası açaraq bildirib ki, tədbir Milli Məclisin Sədri Sahibə Qafarovanın tapşırığına əsasən təşkil edilib. O, qeyd edib ki, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında 44 günlük Vətən müharibəsində qazanılan tarixi zəfərimizdən və ötən il suverenliyimizin tam bərpasından sonra bunu həzm edə bilməyən bəzi xarici dairələr dövlətimizə qarşı məkrli planları nəzərdən keçirməyə başlayıblar. Komissiya sədri vurğulayıb ki, Milli Məclis ölkəmizin inkişafı və təhlükəsizliyi naminə Prezident İlham Əliyevin həyata keçirdiyi siyasətə daim dəstək verib və bundan sonra da verəcəkdir. Eyni zamanda Milli Məclis öz səlahiyyətləri çərçivəsində Azərbaycan xalqına qarşı, dövlətimizin bütövlüyünə və qanunlarına, milli-mənəvi dəyərlərinə, beynəlxalq nüfuzuna və digər vacib sahələrə təhdid yaradan hallarla mübarizədə qətiyyət nümayiş etdirir.

Diqqətə çatdırılıb ki, cari ilin noyabr ayında ölkəmiz BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına - COP29-a, habelə Kioto Protokolunun Tərəflər Görüşünün 19-cu sessiyasına və Paris Sazişinin Tərəflər Görüşünün 6-cı sessiyasına evsahibliyi edəcək. Dünyada keçirilən ən böyük beynəlxalq və mötəbər konfranslardan biri hesab olunan bu tədbir yaxınlaşdıqca Azərbaycana qarşı qarayaxma və media kampaniyalarının da sürətlə artdığı müşahidə edilir.

Qeyd olunub ki, bugünkü ictimai müzakirənin əsas məqsədi ölkə ictimaiyyətinin baş verən proseslər barədə məlumatlandırılması, o cümlədən dövlətimizə qarşı aparılan çirkin kampaniyaların haradan, hansı formada və kimlər vasitəsilə təşkil olunduğunu göstərmək, bununla bağlı deputatlar, vətəndaş cəmiyyəti nümayəndələri, ekspertlərlə fikir mübadiləsi aparmaqdır.

Ramid Namazov COP29-la bağlı Azərbaycana qarşı hibrid təhdidin əsasən iki növündən aktiv istifadə olunduğunu söyləyib. Birincisi, dezinformasiyalar, o cümlədən media və qarayaxma kampaniyaları, fake/saxta xəbərlər, ikincisi isə "Lawfare" adlı hibrid təhdid növüdür ki, bu da özündə hüquqi vasitələrdən "silah" kimi istifadəni ehtiva edir. Bura müxtəlif parlamentlərdə qəbul olunan anti-Azərbaycan qətnamələri, əsassız beynəlxalq məhkəmə iddialarını və sanksiyaları aid etmək olar.

Bildirilib ki, COP29-a evsahibliyi hüququ 200-ə yaxın ölkə tərəfindən yekdilliklə Azərbaycana veriləndən dərhal sonra əldə etdiyimiz uğurları qəbul etməyən bəzi qüvvələr müxtəlif bəhanələr gətirərək, beynəlxalq mediada bizə qarşı kampaniyaya başladılar. "Neft ölkəsi nəyə görə BMT-nin iqlim konfransına evsahibliyi etməlidir", "COP29-la bağlı yaradılan təşkilat komitəsində qadınların olmaması", "İnsan hüquqları", "Ermənistanla sülh sazişi" kimi məsələlərlə bağlı əsassız ittihamlar irəli sürülüb.

Komissiya sədri BMT Nizamnaməsinə əsasən, qurum üzvlərinin beynəlxalq münasibətlərdə istənilən dövlətin ərazi bütövlüyünə (toxunulmazlığı) və ya siyasi müstəqilliyinə qarşı təhdiddən və ya gücdən istifadədən, habelə BMT-nin məqsədləri ilə uzlaşmayan istənilən hərəkətlərdən çəkinməli olduğunu söyləyib. O, Ermənistanın və ona havadarlıq edən bəzi ölkələrin bizə qarşı apardıqları çirkin kampaniyaların beynəlxalq hüquqa zidd olduğunu deyib. Qeyd edib ki, həmin dövlətlər müxtəlif beynəlxalq qeyri-hökumət təşkilatları yaradır, bu təşkilatlara maliyyə və siyasi dəstək verir, sonra isə başqa bir dövlətə bu cür təşkilatlar vasitəsilə müxtəlif mövzularda hücumlar edir, bəyanatlar verdirir, beynəlxalq nüfuzunu zədələmək, sanksiya və başqa vasitələrlə təhdid etməyə başlayırlar.

Ramid Namazov bu günlərdə ABŞ Konqresinin 60 üzvünün öz dövlət katiblərinə müraciət edərək Azərbaycana təzyiq göstərməyi tələb etdiyini deyərək, Azərbaycan Prezidenti tərəfindən onların cavablarının tutarlı arqumentlərlə verildiyini, eyni zamanda ölkə ictimaiyyəti və Milli Məclisin də bu təxribata öz münasibətini bildirdiyini nəzərə çatdırıb. O, Niderland parlamentinin Nümayəndələr Palatasının bu yaxınlarda qəbul etdiyi anti-Azərbaycan qətnamələrini isə ABŞ Konqresinin çağırışına dəstək kimi qiymətləndirib. Habelə AŞPA-da Azərbaycanda insan hüquqları, qanunun aliliyi, demokratiya ilə bağlı vəziyyətə dair keçirilən müzakirələrin, qəbul edilən qətnamələrin heç bir əsasının olmadığını qeyd edib. Komissiya sədri ölkəmizə qarşı çirkin kampaniya çərçivəsində müxtəlif koalisiyaların yaradıldığını, geniş ictimaiyyətin fikrini çaşdırmaq məqsədilə sosial media platformalarının gücündən də istifadə edərək həqiqətə uyğun olmayan, qərəzli məlumatların yayıldığını, lüzumsuz tələblərin qoyulduğunu söyləyib.

O deyib ki, ABŞ Konqresi tərəfindən tam maliyyələşən Milli Demokratiya Fondu, habelə "Freedom House", "Human Rights Watch", İşgəncələrə qarşı Ümumdünya Təşkilatı, Amnesty International, İnsan hüquqları üzrə Beynəlxalq Əməkdaşlıq Təşkilatı kimi qurumlar Azərbaycanla bağlı qərəzli və həqiqətə uyğun olmayan məlumatlar yayaraq, ölkəmizə qarşı təşkil etdikləri hibrid təhdidlərlə gizli formada sadə insanların beyinlərinə təsir etməklə öz strateji məqsədlərinə çatmağı hədəfləyirlər. Qeyd edilib ki, göstərilən bütün bu çirkin əməllərin məqsədi COP29-a sayılı günlər qaldığı bir vaxtda anti-Azərbaycan əhvali-ruhiyyəni qızışdırmaq, ölkənin adını mənfi formada hallandırmaq yolu ilə bizə təzyiq göstərərək öz maraqlarını təmin etməkdir.

Bildirilib ki, Azərbaycana qarşı kampaniyanın ayrıca bir istiqaməti isə Ermənistan dövləti, erməni lobbi təşkilatları və erməniəsilli zəngin iş adamları tərəfindən aparılır. Bu ölkə COP29 tədbirinin Azərbaycanda keçirilməsinə formal olaraq razılıq versə də, arxa planda həmişə dövlətimizə qarşı bütün platformalarda əks-təbliğat aparır, iqlim konfransına aidiyyəti olmayan məsələləri qabardaraq süni gərginlik yaratmağa, Azərbaycanın beynəlxalq nüfuzunu zədələməyə cəhdlər edir. Hazırda ortaya yeni bir tezis atıblar ki, guya Azərbaycan Ermənistana qarşı gələcək eskalasiyanı qanunilәşdirmək üçün COP29-dan istifadə edəcəkdir.

Vurğulanıb ki, irimiqyaslı beynəlxalq tədbirlərin keçirilməsi ölkəmizin üzərinə böyük məsuliyyət qoyur. Qeyd olunan bütün məkrli niyyətlərə baxmayaraq, bu günə qədər bir çox beynəlxalq tədbirlərə müvəffəqiyyətlə evsahibliyi etmiş Azərbaycan COP29 beynəlxalq konfransının da yüksək səviyyədə keçirilməsinə nail olacaq və bu, xalqımızın növbəti böyük uğuru olacaq.

Sonra tədbirdə çıxış edən deputatlar Gülşən Paşayeva, Sevil Mikayılova, Pərvanə Vəliyeva, Mübariz Qurbanlı, Elman Nəsirov, Nurlan Həsənov, Kamran Bayramov, habelə Medianın İnkişafı Agentliyinin İcraçı direktorunun müavini Natiq Məmmədli, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin şöbə müdiri Cavid Vəliyev, Sosial Tədqiqatlar Mərkəzinin sektor müdiri İlyas Hüseynov müzakirəyə çıxarılan mövzunun aktuallığını qeyd ediblər. Bəzi xarici dövlətlərin ölkəmizə qarşı qərəzli mövqeyi, xarici müdaxilələrin qarşısının alınması ilə bağlı mübarizə sahəsində ciddi addımların atılmasının əhəmiyyətindən danışıblar.

Bildirilib ki, ölkəmizə qarşı hibrid təhdidlər, o cümlədən düşmənçilik xarakteri daşıyan məlumatların yayılması, kiberhücumlar, sosial şəbəkələrdə qarayaxma kampaniyalarının qarşısının alınması təhlükəsizlik baxımından böyük önəm daşıyır. Bütün bu mənfi təsirlərin, xüsusilə ölkəmizdə keçiriləcək COP29-la bağlı artan təhdidlərin qarşısının alınması istiqamətində əməli addımların atılmasının vacibliyi vurğulanıb. Bu istiqamətdə qanunvericiliyin təkmilləşdirilməsi, COP-29-un təşkili sahəsində görülən işlər barədə geniş ictimaiyyətin məlumatlandırılması, sosial media iştirakçılarının bu məsələdə fəallığının artırılması, məkrli niyyətlərə qarşı vətəndaşlarımızın ayıq-sayıq olması, əhali arasında maarifləndirmə və təbliğatın aparılması kimi addımların əhəmiyyətindən söhbət açılıb.

İctimai müzakirələrdə iştirak edənlər ideoloji təhlükəsizlik məsələlərinin həmişə aktual olduğunu, bu sahədə həmrəyliyin nümayiş etdirilməsinin vacibliyini söyləyiblər. Çıxış edənlər ölkəmizə yönəlmiş yersiz təhdidlərin, əsassız dezinformasiyaların qarşısının alınması, bu sahədə kompleks tədbirlərin həyata keçirilməsi ilə bağlı fikirlərini bölüşüblər, təkliflərini səsləndiriblər.

Tədbirin sonunda Xarici müdaxilələrə və hibrid təhdidlərə qarşı müvəqqəti komissiyanın sədri Ramid Namazov mövzu ətrafında konstruktiv müzakirələrin aparıldığını və bunun öz səmərəsini verəcəyinə inamını bildirib. O, ölkəmizin evsahibliyi ilə keçiriləcək COP29-un Azərbaycanın növbəti uğuru olacağına əminliyini ifadə edib.

*"Azərbaycan"*

# Milli Məclisdə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılıb

**Qərbi Azərbaycan İcması Milli Məclisin Sədri Sahibə Qafarovaya müraciət ünvanlayıb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə müraciətdə deyilir ki, Qərbi Azərbaycan İcması fəal beynəlxalq fəaliyyət həyata keçirərək beynəlxalq təşkilatlar çərçivəsindəki tədbirlərdə tərəf kimi iştirak edir və Qərbi Azərbaycandakı doğma yurd-yuvalarından didərgin düşmüş azərbaycanlıların Qərbi Azərbaycana qayıdış məsələsini davamlı olaraq qaldırır. Ölkəmizə qarşı qərəzli mövqedə olan dövlətlər və beynəlxalq təşkilatlar belə, bu məsələni insan hüquqları müstəvisində tutarlı arqument kimi qəbul etməli olurlar.

Məktubda Azərbaycan Respublikasının Milli Məclisində Qərbi Azərbaycana qayıdış məsələləri üzrə qurumun yaradılması təklifi irəli sürülür. Bildirilir ki, parlamentdə belə bir qurumun yaradılması, ilk növbədə sözügedən məsələ ilə bağlı ölkədəki konsensusu nümayiş etdirəcək, həmçinin Qərbi Azərbaycan məsələsinin qanunvericilik aspektləri ilə yanaşı, parlament diplomatiyası xətti ilə də effektiv şəkildə davam etdirilməsinə imkan verəcək.

Bütün bunları nəzərə alaraq, Azərbaycan Respublikası Milli Məclisinin Sədri Sahibə Qafarovanın sərəncamına əsasən, Qərbi Azərbaycandan qovulmuş azərbaycanlıların doğma torpaqlarına qayıtmaq hüququnun gerçəkləşməsinə dəstək vermək məqsədilə parlamentdə deputat Əziz Ələkbərovun rəhbərliyi ilə Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupu yaradılıb.

Sərəncamda Qərbi Azərbaycana Qayıdış üzrə Təşəbbüs Qrupunun vəzifə və səlahiyyətləri öz əksini tapıb.

*"Azərbaycan"*

# İƏT-in Əmək Mərkəzi ilə Beynəlxalq Əmək Təşkilatının Təlim Mərkəzi arasında əməkdaşlıq sənədi imzalanıb

**İslam Əməkdaşlıq Təşkilatının (İƏT) Bakıda yerləşən beynəlxalq statuslu Əmək Mərkəzi ilə Beynəlxalq Əmək Təşkilatının (BƏT) İtaliyanın Turin şəhərindəki Beynəlxalq Təlim Mərkəzi arasında Anlaşma Memorandumu imzalanıb.**

İslam Əməkdaşlıq Təşkilatının Əmək Mərkəzindən AZƏRTAC-a verilən məlumata görə, sənədi BƏT Təlim Mərkəzinin direktoru Kristof Perrin və İƏT Əmək Mərkəzinin direktoru Azər Bayramov imzalayıblar. İƏT Əmək Mərkəzinin nümayəndə heyətinin BƏT-in dəvəti ilə oktyabrın 15-17-də İtaliyanın Turin şəhərinə səfəri çərçivəsində imzalanan memorandumda gələcək əməkdaşlıq istiqamətləri əks olunub.

Sənədə əsasən tərəflər İƏT Əmək Mərkəzinin üzv ölkələrinin müvafiq dövlət qurumları, həmkarlar və sahibkarlar təşkilatları üçün layiqli əmək, sosial müdafiə, sosial dialoq, beynəlxalq əmək standartları, insan kapitalının inkişafı, ədalətli keçid və digər istiqamətlər üzrə birgə layihələr və təlim proqramları həyata keçirəcəklər.

Xatırladaq ki, ötən ay Cenevrə şəhərində BƏT-lə İƏT Əmək Mərkəzi arasında da əməkdaşlıq müqaviləsi imzalanıb və müqaviləyə əsasən bir neçə layihənin icrasına başlanılıb.

Mərkəzi qərargahı Bakıda yerləşən və fəaliyyəti İƏT-in 56 üzv dövlətini əhatə edən İƏT Əmək Mərkəzi Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təşəbbüsü ilə yaradılıb. 2023-cü ilin noyabr ayında İƏT üzv dövlətlərin əmək nazirlərinin Bakıda keçirilən 5-ci konfransı çərçivəsində isə İƏT-in Baş katibinin iştirakı ilə Əmək Mərkəzinin fəaliyyətə başlaması ilə bağlı qərar qəbul edilib.

Mərkəzin əsas fəaliyyət istiqamətlərinə üzv dövlətlərdə əmək, məşğulluq, sosial müdafiə və insan kapitalının inkişafı sahəsində əməkdaşlığının genişləndirilməsi, əmək sahəsində fəaliyyətin əlaqələndirilməsi, əmək şəraitinin yaxşılaşdırılması, sosial tərəfdaşlığın gücləndirilməsi, layiqli əməyin tətbiqi, məşğulluq imkanlarının genişləndirilməsi və dayanıqlı sosial müdafiə sisteminin formalaşdırılmasının təşviq edilməsi daxildir.




# Azərbaycanın ədalətli və parlaq qələbəsinə kimlər sevinmir

**44 günlük Zəfər müharibəmizin dördüncü ildönümünə sayılı günlər qalıb.**

**Otuzillik işğala 44 gündə son qoyan, Ermənistan ordusunu darmadağın edərək qarşısında diz çökdürən, məğlub ölkəyə kapitulyasiya aktını imzalatdıran Azərbaycanın möhtəşəm qələbəsi təkcə bununla bitmədi.**

*Torpaqlarımızı işğaldan azad edən müzəffər ordumuz 2023-cü il martın 23-də ölkənin ərazi bütövlüyünə də nail oldu!*

*19-20 sentyabrda isə dövlət suverenliyini və konstitusiya əsaslarını təmin etdi!*

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşərək "dəmir yumruğ"a çevrilən Azərbaycan xalqı bütövlükdə ikiəsrlik Qarabağ münaqişəsinə birdəfəlik son qoydu!**

Bununla da Azərbaycanda separatizmin kökü əbədilik kəsildi!

* Bu qələbə ədalətin qələbəsi idi!

* Bu qələbə güclünün və haqlının qələbəsi idi!

* Bu qələbə beynəlxalq hüququn qələbəsi idi!

* Bu qələbə tarixi həqiqəti bərpa edən güclü xalqın işğalçı dövlət üzərində hərbi, siyasi, hüquqi və mənəvi qələbəsi idi!

Azərbaycan bu qələbəyə iqtisadi qüdrəti sayəsində nail oldu!

Azərbaycan bu qələbəyə müdrik və uzaqgörən siyasəti sayəsində nail oldu!

Azərbaycan bu qələbəyə ən müasir silahlarla silahlanmış, ən yeni strategiya və taktika tətbiq edən güclü ordusu sayəsində nail oldu!

Azərbaycan bu qələbəyə xalqla iqtidarın yekdilliyi, ölkədə yaranan milli birlik sayəsində nail oldu!

*Azərbaycan bu qələbəyə qorxmaz, qətiyyətli və möhkəm iradəli, xalqın və dövlətin maraqlarını daim uca tutan qəhrəman rəhbəri və sərkərdəsinin atdığı hesablanmış addımlar, nəyi necə və nə vaxt edəcəyini dəqiq bilməsi sayəsində nail oldu!*

Azərbaycan xalqı və ordusu təkbaşına döyüşdü, öz gücünə və imkanlarına güvənərək çarpışdı, şücaət, cəsarət və qəhrəmanlıqla vuruşdu!

**Halal və şəriksiz qələbə qazandı!**

**Minnətsiz qələbə qazandı!**

Bunu bütün dünya gördü, bildi və şahidlik etdi!

*Ancaq Azərbaycanın bu ədalətli və parlaq qələbəsinə hamı sevindimi?*

*Təbii, dostlarımız sevindi...*

Düşmənimizin dostları, ermənilərin müdafiəçiləri və dəstəkçiləri isə əvvəlcə Azərbaycanın qısa müddətdə qazandığı möhtəşəm qələbəsindən şoka düşdülər...

Sonra biabırçı məğlubiyyətə uğrayan dostlarını xilas etmək üçün əl-ayağımıza düşdülər...

Daha sonra isə "ölünü diriltmək", ona süni nəfəs vermək üçün "xilasedici" tədbirlərə və addımlara əl atdılar.

**Lap axırda isə bizə qarşı açıq-aşkar, heç bir əsası olmadan və utanıb-qızarmadan düşmənçilik hərəkətlərinə rəvac verməyə başladılar.**

Bu gün də mənfur və riyakar niyyətlərini davam etdirir, üzümüzə gülərək ayağımızdan çəkir, kölgəmizi qılınclayırlar.

❖ ❖ ❖

Dünya erməniliyinin və onların əl tulasına çevrilənlərin ölkəmizə qarşı riyakar və məkrli addımları işğaldan əvvəl başlayaraq işğal dövründə davam etdi, Vətən müharibəsi başlayanda isə daha da şiddətləndi.

*Bunadək isə torpaqlarımızın sülh yolu ilə azad edilməsi yönündə heç bir real addım atılmadı:*

* BMT-nin qəbul etdiyi 4 qətnamə yerinə yetirilmədi!

* Həmin qətnamələrdə işğalçı dövlət sayılan Ermənistana qarşı heç bir təsir və təzyiq olmadı, hətta buna cəhd belə göstərilmədi!

* İşğalçıya qarşı sanksiya tətbiq olunmadı, bu barədə söhbət də getmədi!

* Bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkünün hüquqları qorunmadı, onların insan haqları müdafiə edilmədi!

* ATƏT-in Minsk qrupu hansı məqsədlə yaradıldığını "unudaraq" ermənilərin müdafiəçisinə, sülh yaratmaq əvəzinə erməni maraqlarının icraçısına çevrildi!

* "Ədalət və demokratıya carçısı" sayılan ABŞ isə işğalçını yox, işğala məruz qalanı cəzalandıraraq, "Azadlığı Müdafiə Aktı"na 907-ci düzəlişi qəbul edərək ədalətsizliyin və simasızlığın ən aşağı pilləsinə yuvarlandı!

Hələ bu harasıdır?!

**Azərbaycan öz gücü ilə torpaqlarını işğaldan azad etmək üçün hərbi əməliyyatlara başlayanda ona qarşı diplomatiya müharibəsinə başladılar.**

**İnformasiya savaşı açıldı.**

Muzdlu KİV-i - telekanalları, informasiya agentliklərini üstümüzə göndərərək bizi şər-böhtan atəşinə tutdular:

* Guya Azərbaycan Ordusunda muzdlular döyüşür...

* Guya Türkiyə Azərbaycan tərəfindən müharibədə iştirak edir...

* Guya Azərbaycan Qarabağda etnik təmizləmə aparmaq istəyir...

* Guya Azərbaycan mülki əhalini və yaşayış məntəqələrini atəşə tutur və s.

*Əslində isə, bu şər-böhtanı dövriyyəyə buraxmaqla özləri Ermənistan ordusunun:*

* Cəbhə xəttindən kilometrlərlə uzaqda yerləşən Gəncə, Tərtər, Bərdə şəhərlərini top və raket atəşinə tutmasına göz yumdular.

* Dinc şəhərlərə ballistik raketlər atıldığını, qadağan edilmiş fosforlu və kasetli bombalardan istifadə olunduğunu "görmədilər".

* Bu hücumlar zamanı körpə uşaqların, qoca və qadınların, mülki vətəndaşların soyqırımına uğradıldıgına əhəmiyyət vermədilər.

**Özlərini karlığa, korluğa və lallığa qoyurdular!**

Gücümüzü, qüdrətimizi, qələbəmizi görəndə isə, necə deyərlər, valı dəyişərək xahiş və minnətə başladılar.

Atəşkəsdən, sülhdən danışdılar...

**Ən nəhayət, Azərbaycan öz istəklərinə çatandan, Müzəffər Ali Baş Komandan İlham Əliyevin bütün tələbləri yerinə yetirildikdən, kapitulyasiya aktı imzalandıqdan sonra ermənilər yenidən öz murdarlıqlarını, onların havadarları isə mənfur və riyakar simalarını göstərməyə başladılar.**

❖ ❖ ❖

Azərbaycan bu gün də sülh danışıqlarına sadiqdir!

Üçtərəfli Bəyanatın bəndlərinə, Ermənistana təqdim etdiyi, beynəlxalq hüquqa əsaslanan 5 bənddən ibarət şərtlər əsasında sülh müqaviləsinin imzalanmasına hazır və razıdır!

*Azərbaycan daim açıq şəkildə bəyan etdiyi kimi, Cənubi Qafqazın sülh və əməkdaşlıq bölgəsinə çevrilməsini istəyir və bunun üçün əlindən gələni əsirgəmir.*

Həm də təkcə Cənubi Qafqazda deyil, bütün dünyada sülh və əməkdaşlıq tərəfdarı olduğunu daim əməli işi ilə göstərir.

**Bu gün Azərbaycan COP29-a hazırlaşır, dünyanın ekoloji fəlakətlərdən qurtulması üçün var qüvvəsi ilə çalışır.**

*Qələbəmizi həzm edə bilməyənlər, ermənipərəstlər və erməni diasporunun pul kisəsindən asılı olanlar isə ölkəmizə qarşı açıq düşmənçiliyə keçir, Azərbaycanı gözdən salmaq üçün bütün vasitələrə əl atırlar.*

❖ ❖ ❖

**Qarayaxma və düşmənçilik kampaniyasının önündə Fransa gedir.**

O Fransa ki, Makronun prezidentliyi dövründə nə vaxtlarsa qazandığı "demokratiyanın beşiyi" imicini itirərək "neokolonializm siyasətinin daşıyıcısı"na çevrilmişdir.

Makron Fransasının itirdikləri təkcə bu deyildir.

Fransa Avropanın birinci dövləti statusundan da məhrum olub.

Dinc sakinlərinin nümayişi zamanı onlara qarşı qəddar və zorakı münasibət bəsləyərək dəfələrlə öz vətəndaşlarının ölümünə, ciddi xəsarətlər almasına səbəb olub, bütövlükdə insan hüquqlarını müdafiə etmək əvəzinə qəddarcasına tapdalayıb.

Növbədənkənar parlament seçkiləri keçirəndə isə hakim partiya mövqeyini gücləndirmək əvəzinə daha da zəiflətmiş, Milli Assambleyada və Avropa Parlamentində xeyli deputat yeri itirmişdir.

*Özünə hələ də "layiqli baş nazir" tapa bilməyən bu dövlət getdikcə siyasi və iqtisadi cəhətdən zəifləyərək iflasa uğrayır, xalqın güzəranı ilbəil pisləşir.*

**Özündənrazı, erməni diasporunun əlində oyuncağa çevrilən səriştəsiz Makrona inamsızlıq pik həddə çatmışdır.**

Özünə umac ova bilməyən Makron isə ölkə daxilində vəziyyəti düzəltmək əvəzinə Ermənistana "əriştə kəsmək"lə məşğuldur.

Hərbi əməliyyatların davam etdiyi və sonrakı dövrlərdə dəfələrlə Azərbaycanın əleyhinə olan məsələni BMT-nin Təhlükəsizlik Şurasına çıxararaq ədalətsiz qərarlar qəbul etdirməyə cəhdlər göstərsə də, əli boşa çıxdı.

*İlham Əliyevin rəhbərliyi dövründə nüfuzunu qat-qat yüksəldərək real gücə çevrilən Qoşulmama Hərəkatına üzv olan dost dövlətlər onun istəyini gözündə qoydular.*

**Makron Ermənistanı silahlandırmaq yolunu tutub!**

**Mütəmadi şəkildə özü və Hindistan vasitəsilə məğlub dövlətə öldürücü silahlar göndərir, onu revanşa hazırlayır.**

❖ ❖ ❖

*Ermənilərdən betər erməni olmaq yarışında ABŞ də fəal iştirak edir:*

* Mütəmadi şəkildə müxtəlif mənbələrdən Ermənistana böyük məbləğdə maliyyə vəsaitləri ayırır;

* Gizli şəkildə silahlandırır;

* Birgə hərbi təlimlər keçərək məğlub ordunu dirçəltməyə çalışır;

* Hərbi müşavirlərini Ermənistanın müdafiə nazirliyində yerləşdirərək onlara "ağıllı məsləhətlər" verir;

* Ermənistanı yeni müharibəyə hazırlayır.

Hələ bu harasıdır...

**Növbəti prezident seçkilərinə hazırlaşan, "erməni səsi"nə əşhədü-ehtiyac duyan ABŞ erməni dostlarının və "pul kisələri"nin rəğbətini qazanmaqdan ötrü Azərbaycana qarşı informasiya müharibəsinə start vermişdir.**

Bu müharibədə işlədilən "sursatlar" isə yalan, şər-böhtan, mövcud həqiqətlərin qəsdən təhrif edilməsindən tutmuş uydurulan saxta "fakt"laradək uzanır...

*Uydurma yalanları gündəmə gətirmək, dövriyyəyə buraxmaq üçün hətta primitiv üslublara belə əl atırlar.*

Yaxınlarda ABŞ Dövlət Departamenti özünün hazırladığı "məktubu" 60 nəfər konqresmenin adından özünə göndərmişdir.

**Məktubdakı iddia və "arqumentlər" isə adi tənqidə belə dözməyəcək dərəcədə cəfəngiyyatdır.**

*"İttihamlar"dakı bəsitliyə nəzər salaq:*

GUYA:

* Azərbaycan Qarabağda etnik təmizləmə aparıb, erməniləri öz yuvalarından qovub;

* "Dağlıq Qarabağ"da (Azərbaycanda belə bir adda qurum və yer yoxdur - red.) ermənilərin hüquqi, siyasi və mülki institutları məhv edilir;

* "23 tanınmış erməni siyasi xadimi" hələ də həbsdə saxlanılmaqdadır;

* R.Vardanyan həbsdən azad edilmir və s.

*Adımı sənə qoyum, səni yana-yana qoyum!*

Görəsən, ATƏT-in Minsk qrupunun həmsədrlərindən biri olan və buna görə də BMT TŞ-nin 4 məlum qətnaməsinin icrasına yardım göstərərək ədalətli sülh müqaviləsinin bağlanılmasına töhfə vermək öhdəliyi daşıyan ABŞ işğalın davam etdiyi otuz ildə görməli olduqlarını "görməyərək", etməli olduğunu niyə etməyib?!

**Yoxsa gözü indi açıldı, ağlı indi kəsməyə başladı?**

* Ermənistan Azərbaycan ərazisini zəbt edərək otuz il işğalda saxlayanda niyə gözlərini yummuşdular?

* Azərbaycan vətəndaşlarını əsir və girov götürərək başlarına olmazın müsibətlər açanda, sonra işgəncələrlə öldürərək kütləvi məzarlıqlarda gizlincə basdıranda haradaydılar?

* Ermənilər Azərbaycana məxsus yaşayış məntəqələrini yandırıb dağıdanda, çapıb talayanda, Qarabağda Orta əsr barbarlıqlarını nümayiş etdirəndə hara baxırdılar?

* Mədəni abidələrimizi dağıdanda, məscidlərimizdə donuz, inək saxlayanda bütün bunları görmürdülər?

* Təbii sərvətlərimizi xarici şirkətlərlə şərikinə istismar edərək pula çevirəndə, ərazilərimizdə ekosid, urbisid, kultursid keçirəndə niyə ağızlarına su alaraq susurdular?

* Bu gün can-dildən müdafiə edərək adlarını "erməni siyasi xadimləri" qoyduqları separatçıları, soyqırımı təşkilatçılarını, Gəncə, Tərtər, Bərdə şəhərlərində mülki əhaliyə ballistik raket atılması əmrini verənləri, yüzlərlə dinc sakini yaşadıqları evlərində qətlə yetirənləri tanımırdılar?

* Qazandığı çirkli pullardan yetərincə bəhrələnən ABŞ siyasətçiləri, senator və konqresmenləri milyarder Vardanyanın iş-gücünü buraxaraq Xankəndiyə niyə gəldiyini, orada hansı vəzifə tutduğunu, ölkəmizə qarşı terror əməliyyatlarını necə maliyyələşdirdiyini bilmirdilər?

* ABŞ-nin "süddən çıxmış 23 qaşığ"ı müdafiə etməkdə, həbsxanadan buraxılmasını arzulamaqda məqsədi nədir, yenidən separatizmi körükləmək?

**Yoxsa Dövlət Departamenti ilə vidalaşmağa hazırlaşan Bayden və onun komandası elə zənn edirlər ki, Azərbaycan 60 nəfərin imzaladığı məktubdan qorxaraq öz milli maraqlarından, beynəlxalq hüququn prinsip və tələblərindən keçərək deyilənlərə dərhal əməl edəcək?**

*Getdi o günlər!*

❖ ❖ ❖

**Makronun "aşağı səviyyəli" idarəsinə çevrilən Avropa İttifaqı ölkəmizə qarşı düşmənçilik hərəkatının öncüllərindən birinə çevrilib.**

"Söz istehsalı"ndan başqa işi-gücü olmayan, adını "sülh fondu" qoyduğu qurumdan revanşa hazırlaşan ölkəyə genbol maliyyə yardımı göstərən, üzvlərindən səkkizinin isə Azərbaycanın təbii qazına ehtiyacı olan bu qurumdakılar, deyəsən, nəyə görə yaradıldıqlarını və hansı işləri görməli olduqlarını tamam yaddan çıxarıblar!

*Ordan-burdan pensiyaçı jandarm, keçmiş hərbçi taparaq, casusluq məqsədilə Ermənistan-Azərbaycan sərhədinə göndərən Aİ məgər NATO-nun filialıdır?!*

**Artıq iki ildir onun yaratdığı casus şəbəkəsi Ermənistan-Azərbaycan şərti sərhədində duraraq bütün günü binoklla bizi güdməklə nəyimizi isə görmək istəyir?**

*Bunu bizdən soruşsalar, özümüz də deyərik:*

* Bəli, Azərbaycan müharibə vaxtı sərf etdiyi silah-sursatın yerini dolduraraq, öz ordusunu əvvəlkindən də güclü vəziyyətə gətirmişdir!

* Müdafiə sənayesi kompleksini daha da inkişaf etdirərək yeni növ silah və sursat istehsalına başlamışdır və ehtiyac duyduğu hərbi məhsulların böyük qismini özü istehsal edir, hələ başqalarına da sata bilir!

* Müzəffər Ali Baş Komandan İlham Əliyevin bəyan etdiyi kimi, "dəmir yumruq" hazır vəziyyətdədir!

Azərbaycanın vətənpərvər oğulları, hər an Vətən uğrunda şəhid getməyə hazır olan saysız-hesabsız övladları, sınaqdan şərəflə çıxan xüsusi təyinatlıları, komando birləşmələri vardır!

*Ermənistanın isə...*

*Nə qədər silah-sursat versəniz də, nə qədər maliyyə buraxıb dikəltməyə çalışsanız da, bu gedişlə heç bir gələcəyi yoxdur!*

Ermənistanın baş naziri, sizin qulbeçəniz Paşinyanın son rəsmi etirafını yadınıza salırıq, bir də eşidin:

*Ermənistanda oğlanların özləri və onların valideynləri övladlarının orduda xidmət etməsini istəmirlər və müxtəlif yollarla əsgər getməkdən yayınırlar!*

*Hətta 4 oğlu olanlar da!*

**Yenidən müharibənin başlayacağı təqdirdə görəsən amerikalı və fransalı gənc Qarabağ uğrunda döyüşərək canından keçəcəkmi?**

**Adamın heç inanmağı gəlmir...**

*Azərbaycan daxil bütün dünya ABŞ, Fransa və Avropa İttifaqının necə "dostcanlı" olduqlarını çox gözəl bilir!*

Hər üçü öz dostlarını axıradək "dəstəkləyir" və axırlarını puça çıxarırlar.

Bunu "Qərbyönümlü kurs" seçən Ermənistan da görməli və bilməli, yaxşı-yaxşı yadda saxlamalıdır!

**Gürcüstana yağlı vədlər verdilər, xeyli maliyyə ayırdılar və gələcəkdə də böyük məbləğlər verəcəklərinə boyun oldular.**

**Gürcüstan isə bütün bu sözlərə inandı və aldandı...**

*2008-ci ilin avqust müharibəsində arxasında duran və müdafiə edən olmadı...*

*Nə ordu gəldi, nə də real kömək.*

*Nəticədə ərazi itkisinə məruz qaldı.*

İndi isə müstəqilliyi və milli-mənəvi dəyərləri ciddi təhlükə qarşısındadır.

**Lakin gürcülər bu iki əvəzolunmaz dəyəri - ailə institutunu və müstəqilliyi Avropa İttifaqına üzvlüklə dəyişmək istəmirlər!**

*Ermənistan kimi forpost olmaq niyyətində deyillər!*

**İkinci dostları Ukrayna da şirin vədlərə aldanaraq "Maydan"a çıxmışdı!**

İndi çöl-biyabanda qalıblar!

*Yaşayış məntəqələri dağılır, genofondu, infrastrukturu məhv olur, vətəndaşları dərbədər düşür...*

ABŞ rəhbərliyinin göstərişi ilə silah-sursat NATO-dan ayrılır, tələf olan canlı qüvvə və dağılıb viran qalanlar isə Ukraynadandır.

**Yaxşı, Avropa İttifaqına və NATO-ya "üzv oldular", namxuda, göz dəyməsin!**

İndi Ermənistan iki ağa arasında girinc vəziyyətdə qalıb: biri köhnə, biri təzə!

*Məğlubiyyətdən az-çox "nəticə çıxaran", deyəsən, təkcə Paşinyandır.*

*O da yalnız hələlik "mifik Ermənistanla real Ermənistanın" fərqini başa düşüb.*

**Amma yenə də küyə gedir.**

**Elə bilir ki, verilən vədlər, ayrılan vəsaitlər, göndərilən silah-sursatlar və casuslar nəyisə təzədən dəyişə biləcəkdir!**

Nə Zəngəzur dəhlizini açır, nə də sülh müqaviləsini imzalamaq üçün zəruri addımlar atır!

*Paşinyan bir də ayılacaq ki, Ermənistanda əhali qalmayıb, qalanlar isə qocalar və bir də haxcıxlardır!*

**Paşinyanın bicliyi qədər ağlı olsaydı, gözü çıxan qardaşdan - Ukrayna və Gürcüstanın düşdüyü vəziyyətdən özü üçün düzgün nəticə çıxarardı...**

Azərbaycan isə nə etdiyini yaxşı bilir və məqamında zəruri addımlarını atır!

*Məqsədi Cənubi Qafqazı sülh və əməkdaşlıq bölgəsinə çevirməkdir!*

*Bölgənin ən güclü dövləti və söz sahibi olduğundan buraya gəlmək istəyənlər onunla hesablaşmalıdırlar!*

Bu birmənalıdır!

Yalançıların və məkrlilərin nə dostluğuna, nə maliyyəsinə, nə də şirin vədlərinə ehtiyacı var!

Əksinə, başqaları ona möhtacdır!

**Ona qarşı riyakarlıq və düşmənçilik niyyətləri isə heç zaman uğur gətirə bilməz!**

**Azərbaycana Müzəffər Ali Baş Komandan İlham Əliyev rəhbərlik edir!**

*COP29-u isə yüksək səviyyədə keçirərək iqlim dəyişmələri ilə mübarizəyə dəyərli töhfələrimizi verəcəyik!*

**Bəxtiyar SADIQOV**

# Ali Məclisin iclası keçirilib





**Oktyabrın 21-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasında növbəti plenar iclası keçirilib.**

Ali Məclis sədrinin birinci müavini Bəxtiyar Məmmədov iclasın gündəliyinə iki məsələnin - "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) və "Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinin müzakirəsinin daxil edildiyini bildirib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Mətbuat xidmətindən verilən məlumata görə, gündəlikdə duran birinci məsələ ilə bağlı Bəxtiyar Məmmədov qeyd edib ki, "Naxçıvan Muxtar Respublikası Ali Məclisi deputatının statusu haqqında" Naxçıvan Muxtar Respublikası Qanununun "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılması məqsədilə müvafiq qanunda dəyişikliklər edilməsi barədə qanun layihəsi hazırlanıb.

Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, komitənin rəyini diqqətə çatdırıb. İqtisadi siyasət komitəsinin sədri Emin Şıxəliyev, Humanitar siyasət komitəsinin sədri Ülkər Bayramova, Sosial siyasət komitəsinin sədri Nuray Əliyeva və İqtisadi siyasət komitəsinin üzvü Pərvin Nəcəfsoy müvafiq qanuna təklif edilmiş dəyişikliklərin əhəmiyyətini vurğulayıblar. Sonra qanun birinci oxunuşda qəbul edilib.

"Normativ hüquqi aktlar haqqında" Naxçıvan Muxtar Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Naxçıvan Muxtar Respublikasının qanun layihəsinin müzakirəsi zamanı bildirilib ki, qanun layihəsi "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya Qanununun və "Media haqqında" Azərbaycan Respublikası Qanununun müddəalarına uyğunlaşdırılma məqsədilə hazırlanıb. Qanun layihəsi barədə Hüquq siyasəti komitəsinin sədri Əjdər Əliyev məlumat verib, sədrlik etdiyi komitənin rəyini diqqətə çatdırdıqdan sonra qanun səsə qoyularaq qəbul olunub.

Bununla da yeddinci çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin payız sessiyasının iclası başa çatıb.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Beyin Mərkəzləri Platforması yaradılıb

**Beyin Mərkəzləri Platforması və onun internet portalının təqdimatı keçirilib. Beyin Mərkəzləri Platforması Azərbaycanda siyasi, iqtisadi, daxili, ekoloji və digər əhəmiyyətli istiqamətlər üzrə ixtisaslaşan beyin mərkəzlərinin şəbəkəsidir.**






Platformanın yaradılmasında əsas məqsəd beyin mərkəzlərinin fəaliyyətinin stimullaşdırılması, dövrün tələblərinə uyğun təşkil edilməsi, dövlət qurumları və beyin mərkəzləri arasında mütəmadi kommunikasiya və əməkdaşlığın qurulması, həmçinin beyin mərkəzlərinin fəaliyyətləri barədə ictimaiyyətdə məlumatlılığın artırılmasıdır.

Tədbirdə çıxış edən Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının strateji araşdırma sektorunun müdiri Fuad Axundov Prezident İlham Əliyevin ölkəmizdə elmi-analitik institutların fəaliyyətinə xüsusi diqqət və qayğı göstərdiyinə diqqət çəkib. O xatırladıb ki, İlham Əliyev tədqiqatların yalnız dövlət institutları tərəfindən deyil, həm də vətəndaş cəmiyyəti daxilində inkişaf etdirilməsi üçün milli donor institutlarının yaradılması haqqında qərar qəbul edib. Hazırda Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin xətti ilə 400-dən çox layihə maliyyələşdirilir.

Müasir qlobal çağırışlar, eləcə də süni intellekt və rəqəmsallaşma fonunda beyin mərkəzlərinin üzərinə böyük iş düşdüyünü deyən sektor müdiri bildirib ki, Beyin Mərkəzləri Platforması Azərbaycanın dünyaya çıxışında və ölkəmiz barədə məlumatlılığın artırılmasında mühüm rol oynayacaq, birgə layihələrin inkişafına, yeni tərəfdaşlıqların qurulmasına və müxtəlif mövzular ətrafında fikir mübadiləsinin aparılmasına töhfə verəcək.

Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin İdarə Heyətinin sədri Fərid Şəfiyev platformanın 7 təsisçidən ibarət olduğundan, hazırda 27 beyin mərkəzinin burada təmsil olunduğundan və fəaliyyətin konsensus əsasında qurulduğundan bəhs edib. Beyin mərkəzlərinin yaranma tarixinə toxunan BMTM sədri mərkəzin fəaliyyətinin əsasən aktual, praktiki məsələlərə yönəldiyini diqqətə çatdırıb. Onun sözlərinə görə, İkinci Qarabağ müharibəsi bitsə də, təhdidlər hələ bitməyib, əksinə, genişlənərək daha mürəkkəb xarakter alıb.

Dəyişən dünyada beyin mərkəzlərinin artan əhəmiyyətinə toxunan Azərbaycan Strateji və Beynəlxalq Araşdırmalar Mərkəzinin direktoru Eldar Namazov bu məsələdə dövlət strukturlarının da üzərinə mühüm iş düşdüyünü, lakin işin analitik bazasının hazırlanmasının da eyni dərəcədə vacib olduğunu qeyd edib. E.Namazov platforma çərçivəsində illik toplantıların keçirilməsinin, birgə elmi nəşrlərin hazırlanmasının effektivliyin artırılmasına töhfə verəcəyini bildirib.

Sosial Tədqiqatlar Mərkəzinin sədri Zahid Oruc beyin mərkəzlərinin vahid platformasının yaradılmasının ölkəmizin qlobal risklərdən qaynaqlanan çağırışlara hazırlığındakı əhəmiyyətinə toxunub. Ermənistan və onun havadarlarının dezinformasiya siyasətindən danışan Z.Oruc erməni diasporunun beyin mərkəzlərinə sızaraq anti-Azərbaycan təbliğatı apardığını və bu səbəbdən rəqabətədavamlılığın artırılmasının zəruriliyinə diqqət çəkib. Deputat həmçinin Türk Dövlətləri Təşkilatı daxilində beyin mərkəzləri alyansının yaradılmasının vacibliyinə toxunub.

Milli Məclisin deputatı, ADA Universitetinin prorektoru və İnkişaf və Diplomatiya İnstitutunun (İDD) direktoru Fariz İsmayılzadə ADA və BMTM-in birgə təşkilatçılığı ilə artıq 6 dəfə beynəlxalq beyin mərkəzləri forumunun təşkil edildiyindən, 3 saatdan çox davam edən məhsuldar görüşlərin əhəmiyyətindən danışıb. Qərar qəbuletmə prosesində və xarici siyasət mesajlarımızın təşviqində beyin mərkəzlərinin rolunun artırılmasından söz açan F.İsmayılzadə bu istiqamətdə beynəlxalq beyin mərkəzləri ilə əməkdaşlığın vacib rol oynadığını deyib.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlı qlobal trendlər fonunda bu platformanı vaxtında atılmış addım kimi qiymətləndirib. Dövlətlər və cəmiyyətlərin inkişafında kollaborativ institutların əhəmiyyətinə toxunan V.Qasımlı bəzi böhran vəziyyətlərində beyin mərkəzlərinin həlledici roluna diqqət çəkib. O, ABŞ, Avropa İttifaqı və Çinin inkişaf strategiyalarının hazırlanmasında beyin mərkəzlərinin rolundan bəhs edib. İcraçı direktor "Böyük İyirmilik" və "Böyük Yeddilik" beyin mərkəzlərinə Azərbaycan beyin mərkəzlərindən təmsilçilərin cəlb olunmasının vacibliyini diqqətə çatdırıb.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin icraçı direktoru Rəvan Həsənov beyin mərkəzlərinin sayının artırılmasının zəruriliyindən danışaraq, bu mərkəzlərlə ictimaiyyət arasında əlaqələrin intensivləşdirilməsinin, xüsusən də bölgələrdə bu işin təşviqi istiqamətində konkret addımlar atılmasının vacibliyinə toxunub. R. Həsənov, həmçinin media ilə beyin mərkəzlərinin münasibətlərinin koordinasiyalı formada aparılmasının zəruri olduğunu bildirib.

Son 3-4 ildə qlobal səviyyədə Cənubi Qafqaz regionunun tədqiqatına xüsusi diqqət ayrıldığını deyən Cənubi Qafqaz Tədqiqatlar Mərkəzinin direktoru Fərhad Məmmədov ölkəmizin bu tədqiqatlara təşkilatçılıq etməsinin əhəmiyyətinə toxunub. O, həmçinin Beyin Mərkəzləri Platformasının ümumi koordinasiyada effektivliyinin artırılmasındakı rolundan bəhs edib.

Çıxışlardan sonra beyin mərkəzlərinin cəmiyyətdə rolu, xarici beyin mərkəzləri ilə əməkdaşlığı, həmçinin siyasi və iqtisadi mövzularla bağlı müzakirələr aparılıb.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

**Bu gün Azərbaycanın xarici siyasətində MDB dövlətləri ilə əməkdaşlığın genişlənməsi açıq şəkildə müşahidə olunur. MDB çərçivəsində bütün istiqamətlərdə yüksələn xətt üzrə inkişaf edən əlaqələrimiz humanitar sahədə də əhəmiyyətli irəliləyişlərə səbəb olmuşdur.**




# Azərbaycan ilə MDB dövlətləri arasında uğurlu əməkdaşlığın təsdiqi

## Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi mühüm nailiyyətdir

Xüsusilə mədəniyyət, idman, təhsil, elm və sosial sahələrdə əməkdaşlığımızın genişlənməsi bu əlaqələrin daha dərin və qarşılıqlı faydalı şəkildə inkişaf etdiyini göstərir. Bu dinamika Azərbaycanla MDB-nin iştirakçısı olan dövlətlər arasında əməkdaşlığın çoxşaxəli xarakterini daha da möhkəmləndirir.



Hər il MDB-yə üzv dövlətlərin şəhərlərindən biri MDB-nin mədəniyyət paytaxtı fəxri statusuna layiq görülür. Bu fəxri ad "Birliyin Mədəniyyət Paytaxtları" dövlətlərarası proqramı çərçivəsində şəhərlərin zəngin tarixi və mədəni irsinə diqqət çəkmək, onların potensialını nümayiş etdirmək məqsədi daşıyır. Azərbaycanın Qəbələ şəhəri 2013-cü ildə, Gəncə şəhəri isə 2017-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan olunmuşdu.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin iştirak etdiyi MDB Dövlət Başçıları Şurasının 8 oktyabr 2024-cü ildə keçirilən iclasında Laçın şəhərinin 2025-ci ildə MDB-nin mədəniyyət paytaxtı elan edilməsi Azərbaycan üçün tarixi qərar oldu və Azərbaycanın artan beynəlxalq nüfuzunun birbaşa göstəricisi olmaqla yanaşı, onun mədəniyyətinə və irsinə göstərilən hörmətin parlaq bir ifadəsi və ölkəmizə olan etimadın təzahürüdür. Bu seçim, şəhəri beynəlxalq aləmdə daha yaxından tanıtmaq, onun bərpası və dirçəlişinə töhfə vermək üçün əvəzolunmaz bir fürsətdir.

Şərqi Zəngəzur bölgəsinin qədim Azərbaycan şəhərlərindən biri olan Laçın tarixən milli mədəniyyətimizin qiymətli daşıyıcısı olmuşdur. Şəhər təkcə milli irsimizin qoruyucusu kimi çıxış etmir, eyni zamanda zəngin folkloru, musiqisi və sənətkarlıq ənənələri ilə də geniş tanınır. Laçının bu unikal xüsusiyyətləri Azərbaycan mədəniyyətinin əsrlər boyu yaşamasına və inkişaf etməsinə böyük töhfə vermişdir.

Laçın 30 ilə yaxın Ermənistanın işğalı altında qalmış və bu müddət ərzində demək olar ki, tamamilə dağıdılmışdır. Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük Vətən müharibəsində Azərbaycan Ordusu şanlı qələbə qazanaraq, Laçın şəhərini azad etmişdir. Bu gün Laçın bərpa olunaraq yeni həyatla canlanmağa başlayıb. Laçının MDB-nin mədəniyyət paytaxtı elan edilməsi şəhərin mədəni dirçəlişini sürətləndirmək üçün mühüm bir addım olacaq. Bu status Laçının qədim və zəngin irsini bərpa etməklə yanaşı, onun əsrarəngiz təbiətini və unikal mədəni sərvətlərini beynəlxalq arenada daha geniş tanıtmaq üçün yeni imkanlar açacaq. Beləliklə də, şəhər regional və beynəlxalq miqyasda mədəni əlaqələrin mərkəzinə çevrilərək, öz potensialını daha da inkişaf etdirəcək.

Onu da qeyd etmək yerinə düşər ki, 2025-ci ildə III MDB Oyunlarına evsahibliyi hüququnun Azərbaycana verilməsi və Gəncə şəhərinin idman paytaxtı olaraq seçilməsi ölkəmizə olan etimadın daha bir göstəricisidir. Həmçinin MDB dövlət başçılarının Zirvə görüşündə COP29-un Azərbaycanda keçirilməsinə dəstək verilməsi ölkəmizin belə nüfuzlu beynəlxalq tədbirlərə evsahibliyi etmək gücünü bir daha təsdiqləyir.

Azərbaycanda keçiriləcək mədəni və idman tədbirləri MDB ölkələri arasında mədəni və humanitar əməkdaşlığı gücləndirərək, regional və beynəlxalq əməkdaşlığa əhəmiyyətli töhfə verəcək, həmçinin Azərbaycan mədəniyyətinin MDB məkanında yaxından tanıdılması və mədəni inteqrasiyanın gücləndirilməsi proseslərinin bir simvoluna çevriləcəkdir.

*Ramin RZAYEV,*
*MDB PA DİMBİ*
*Baki filialının müdiri*

# Azərbaycanın BRICS-ə qoşulması...

## Bu, təşkilatın beynəlxalq mövqeyini möhkəmləndirə bilər

**Oktyabrın 22-24-də Kazanda BRICS-in sammiti keçiriləcək. BRICS-ə marağın artdığı bir dövrdə təşkilatın keçirəcəyi bu zirvə toplantısı xüsusilə diqqət mərkəzindədir. Hazırda bir çox ölkə bu təşkilata üzv olmaq niyyətindədir. 10 üzvü olan təşkilata ölkəmiz də qoşulmaq üçün rəsmi məktub ünvanlayıb. Kazanda baş tutacaq sammitdə tərəfdaşlıqla bağlı məsələlərin müzakirə olunacağı və müraciətlərə cavab veriləcəyi gözləniləndir.**



Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin aparıcı məsləhətçisi Roza Bayramlı "Azərbaycan" qəzetinə açıqlamasında xatırladıb ki, Azərbaycan BRICS-ə üzvlük üçün avqust ayında rəsmi müraciət ünvanlayıb. Sözügedən təşkilata qoşulmaq arzusu Azərbaycan tərəfindən ilk dəfə olaraq iyulun 3-də Astanada keçirilən Şanxay Əməkdaşlıq Təşkilatının Zirvə toplantısı zamanı qəbul olunan "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyannamə"də ifadə edilib. Həmin bəyannamədə Çin tərəfinin bu məsələyə dəstək verdiyi də bildirilib. 11 iyul tarixdə Sankt-Peterburq şəhərində BRICS ölkələrinin X Parlament Forumunun plenar iclası zamanı Milli Məclisin Sədri Sahibə Qafarova Bakının birliyə qoşulmaqda maraqlı olduğunu bildirərək, təşkilat ilə əməkdaşlığın genişlənməsinin ümumi məqsədlərə nail olmağa kömək edəcəyini bildirib.

Ekspert deyib ki, BRICS-in dövlətlər birliyi olaraq faktiki əsası 2006-cı ilin iyun ayında Braziliya, Rusiya, Hindistan və Çinin iqtisadiyyat nazirlərinin iştirakı ilə qoyulub: "Təşkilatın ilk sammiti 16 iyun 2009-cu ildə keçirilib və bundan sonra təşkilata üzv dövlətlərin nümayəndələri ənənəvi olaraq ildə bir dəfə rəsmi sammitlərdə görüşür, iqtisadiyyat və geosiyasət çərçivəsində aktual məsələləri müzakirə edir, infrastruktur, mədəniyyət, idman və digər sahələr üzrə layihələrə dair əməkdaşlığı genişləndirirlər. Sammitlərin yekununda ənənəvi olaraq deklarasiya qəbul edilir".

R.Bayramlı qeyd edib ki, BRICS böyük əmək bazarına və iqtisadi resurslara malik ölkələrdən ibarətdir. Belə ki, təşkilata üzv olan ölkələr birlikdə alıcılıq qabiliyyəti pariteti baxımından qlobal ümumi daxili məhsulun 35,6 faizini təşkil edirlər. Bundan başqa, dünya əhalisinin təqribən 45 faizi təşkilata üzv olan ölkələrdə məskunlaşıb. BRICS-ə üzv olan ölkələr əsasən 3 istiqamət üzrə əməkdaşlıq edirlər: siyasi və təhlükəsizlik, maliyyə və iqtisadiyyat, mədəni-xalqarası münasibətlər. Təşkilata üzv ölkələr eləcə də kütləvi qırğın silahlarının yayılmasına, eyni zamanda kibercinayətkarlığa qarşı mübarizə aparırlar. Bunları nəzərə alaraq, təşkilatın geniş potensiala malik olmasını demək olar. Hazırda platforma məşvərət xarakteri daşısa da, gələcəkdə onun institusionallaşması mümkündür.

"2023-cü il avqustun 22-də BRICS-in Yohannesburq şəhərində keçirilən 15-ci sammiti çərçivəsində üzv dövlətlər tərəfindən vahid ehtiyat valyutasının yaradılması məsələsi qaldırılıb. Vahid valyutanın yaradılması ideyasının əsas səbəbi ABŞ dolları və avrodan asılılığın azaldılması, BRICS ölkələrinin iqtisadiyyatlarının özünü təmin etməsini gücləndirmək arzusu olub. Eyni zamanda milli iqtisadiyyatlara ziyan vuracaq insidentlərin qarşısını almaq üçün milli valyutaların ləğvi də nəzərdə tutulmayıb. Vahid valyutanın yaradılması təşkilata üzv olan ölkələr arasında ticarəti asanlaşdırmağa, sənaye və infrastruktur üzrə bir sıra layihələrin maliyyələşdirilməsini təmin etməyə kömək edə bilər", - deyə o əlavə edib.

Siyasi təhlilçi bildirib ki, BRICS beynəlxalq arenada yalnız vacib oyunçu kimi deyil, həm də "Böyük yeddilik" qrupundan fərqli olaraq, inkişaf etməkdə olan ölkələrin formalaşma mərhələsində fəaliyyət göstərən bir institut kimi çıxış edir. BRICS-i bəzən Qərb ölkələrinə qarşı yaradılmış platforma kimi təqdim etsələr də, təşkilata üzv olan əksər ölkələr çoxtərəfliliyin təşviq edilməsinin, ortaq problemlərin birgə həllinin, üzv ölkələr arasında münasibətlərin tənzimlənməsinin tərəfdarıdırlar. BRICS kimi beynəlxalq platformalara qoşulmağın Azərbaycan üçün əhəmiyyəti ondan ibarətdir ki, bununla yeni tərəfdaşlar toplamaq və səsini dünya ictimaiyyətinə çatdırmaq imkanı yaradır, bunlar da təhlükəsizliyin təmin olunmasında vacib faktorlardır.

Ekspert vurğulayıb ki, bundan başqa, platformaya üzv olmaq həm də turizm idxalı və birbaşa investisiyaların cəlbi kontekstində Azərbaycana maraqlı ola bilər. Eləcə də qeyd etmək lazımdır ki, ölkəmiz təşkilata üzv olan Rusiya, Çin və Hindistan ilə nəqliyyat layihələri üzrə geniş əməkdaşlıq edir. Azərbaycanın BRICS üçün strateji əhəmiyyəti əsasən onun coğrafi mövqeyi, iqtisadi resursları və xarici siyasət prioritetləri ilə bağlıdır. BRICS ölkələri üçün Azərbaycanla əməkdaşlıq enerji resurslarının şaxələndirilməsi və enerji təhlükəsizliyinin möhkəmləndirilməsinə töhfə verən enerji strategiyasının mühüm elementi ola bilər. Azərbaycanın təşkilata qoşulması birliyin beynəlxalq arenadakı mövqeyini möhkəmləndirə, üzv ölkələr arasında iqtisadi və enerji əməkdaşlığına töhfə verə, çoxqütblülük və qlobal nizamın islahatı ideyalarına dəstək ola bilər. Həmçinin Azərbaycan iqtisadiyyatının müasirləşməsinin sürətlənməsini və dünya arenasında mövqeyinin möhkəmlənməsini təmin edəcək mexanizmlərin cəlb olunmasına gətirib çıxara bilər.

Hazırda təşkilata üzv olmaq istəyən ölkələrin sayının artdığını deyən R.Bayramlı bildirib ki, 40-dan çox ölkə təşkilata qoşulmaqda maraqlı olduğunu bildirir: "Bununla da təşkilatın gələcəkdə genişlənmə ehtimalı yüksəkdir. Buna baxmayaraq, bu ilin iyun ayında Rusiya xarici işlər naziri Sergey Lavrov bildirib ki, BRICS-ə üzv olan ölkələr təşkilatın genişlənməsini müvəqqəti dayandırırlar. Lakin bununla paralel olaraq, təşkilata tərəfdaş dövlətlər kateqoriyası üzərində işlər aparılır.

R.Bayramlı xatırladıb ki, bu ilin avqust ayında Rusiya xarici işlər nazirinin müavini Sergey Ryabkov isə Rusiya tərəfinin Azərbaycanın BRICS-ə üzvlüklə bağlı müraciətini dəstəklədiyini, lakin təşkilatla bağlı bütün qərarların konsensusla qəbul olunduğunu bildirib: "Bununla belə, S.Ryabkov qeyd edib ki, Kazan sammitinə qədər tərəfdaş dövlətlərin siyahısı üzərində iş aparılacaq. Bunları nəzərə alaraq, sammitdə Azərbaycanın tərəfdaş dövlət statusu qazana biləcəyini ehtimal etmək olar".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# "Ali təhsil müəssisələrinə tələbə qəbulu: təhlil və proqnozlaşdırma" mövzusunda tədbir keçirilib







**Elm və Təhsil Nazirliyinin Elm və ali təhsil siyasəti şöbəsinin təşkilatçılığı ilə "Ali təhsil müəssisələrinə tələbə qəbulu: təhlil və proqnozlaşdırma" mövzusunda tədbir baş tutub.**

Tədbirdə elm və təhsil nazirinin müşaviri, nazirliyin müvafiq şöbələrinin əməkdaşları, ali təhsil müəssisələrinin nümayəndələri iştirak ediblər. Tədbir çərçivəsində son dörd ilin tələbə qəbulu nəticələri təhlil edilib və növbəti tədris ili üçün tələbə qəbuluna dair təkliflərin hazırlanmasına dair tövsiyələr verilib. Həmçinin "Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları" ilə bağlı təlim keçirilib.

Açılış nitqi ilə çıxış edən elm və təhsil nazirinin müşaviri Nicat Məmmədli ali təhsil sahəsində aktual mövzuların müzakirəsi üçün ali təhsil müəssisələrini təşəbbüskar olmağa dəvət edib:

"Sözsüz ki, istənilən siyasətin hazırlanması və onun effektiv olaraq həyata keçirilməsi üçün ən vacib olan məsələlərdən biri yerlərdən bununla bağlı geridönüşlərin əldə edilməsidir. Ali təhsilin inkişafına töhfə vermək üçün bu formatda görüşlərin daha sıx keçirilməsi planlaşdırılır".

Nicat Məmmədli bildirib ki, daha yaxşı ali təhsil siyasətinin formalaşdırılması üçün ali təhsilin ilk səviyyəsindən son səviyyəsinə qədər ciddi müzakirələrə ehtiyac var. O əlavə edib ki, tələbə qəbulunun da proqnozlaşdırılması mühüm məqamdır və bu proqnozlar gələcəkdə əmək bazarının formalaşmasında mühüm rol oynayacaq: "Yenilənən dünyada daim yeni ixtisaslar meydana çıxır. Bu yenilənmə sayəsində multidisiplinar sahələr yaranır. Biz də yeni ixtisasların formalaşdırılması üçün addımlar atmalıyıq. Lakin bu prosesdə bir çox məqamlar nəzərə alınmalıdır. Çünki yeni ixtisasların açılması özlüyündə çox ciddi bir prosesdir. Bunun üçün maddi-texniki baza və kadr potensialı tələb olunur".

Nazirin müşaviri diqqətə çatdırıb ki, ali təhsilin keyfiyyətinin artırılması da vacib məsələlərdən biridir: "Çünki kadr hazırlığı ilə yanaşı, həmin kadrların zamanın və əmək bazarının tələblərinə uyğun və yumşaq bacarıqlara sahib bir vətəndaş olaraq yetişməsi də önəmlidir. Bizim tədris proqramlarımız həm əmək bazarına, həm də məsuliyyətli vətəndaşın yetişdirilməsinə münasibətdə hesablanmalıdır. Bu zaman optimal və effektiv təhsil proqramları yaradılmalıdır".

Daha sonra çıxış edən Elm və ali təhsil siyasəti şöbəsinin müdiri Turxan Süleyman bildirib ki, hazırda elm və ali təhsil siyasətinə dair əsas strateji istiqamətlər müəyyən edilib və hər biri üzrə praktik addımlar atılmaqdadır. 2024-cü ildən başlayaraq şöbə yeni formatda elm və ali təhsil müəssisələri ilə müxtəlif mövzulara dair bir neçə dəfə görüş keçirmişdir. Şöbə müdiri qeyd edib ki, davamlı olaraq görüşlərin və müzakirələrin təşkili elm və ali təhsil siyasətinin daha effektiv formlaşdırılmasında xüsusi rol oynayır.

Turxan Süleyman bildirib ki, hazırda ali təhsilin bakalavriat və magistratura səviyyələri üzrə ixtisasların yeni təsnifat layihəsi hazırlanmış və Nazirlər Kabinetinə təqdim edilmişdir. Növbəti mərhələdə doktorantura təhsili ilə bağlı da müvafiq işlər, o cümlədən doktorantura təhsilinin yenidən təşkili məsələləri öz həllini tapacaqdır.

Tədbirdə tələbə qəbuluna dair göstəricilər barədə təqdimat göstərilib. Ölkə üzrə 48 ali təhsil müəssisəsi, 2 xarici ali təhsil müəssisəsinin filialı olmaqla 50 ali təhsil müəssisəsi fəaliyyət göstərir.

Statistik məlumatları təqdim edən Turxan Süleyman bildirib ki, 50 ali təhsil müəssisəsi (2-si xarici ali təhsil müəssisəsinin filialı olmaqla) üzrə bakalavriat səviyyəsinə qəbul planı cari tədris ili üçün 62.017 yer olaraq müəyyənləşdirilmiş, planın 95 faizi (59.026 nəfər) üzrə isə faktiki qəbul baş tutmuşdur. Magistratura səviyyəsində isə 16.568 plan yerinə14.104 nəfər (85 faiz) qəbul olmuşdur.

Dövlətsifarişli yerlərin sayının artırılması ilə bağlı islahatlardan bəhs edən Turxan Süleyman ümumi qəbul planının təxminən 50 faizinin dövlətsifarişli yerlər olduğunu vurğulayıb. Bu da o deməkdir ki, hazırda qəbul olunan hər iki tələbədən biri ödənişsiz əsaslarla təhsil almaqdadır.

Turxan Süleyman cari ildə doktorantura (fəlsəfə doktoru) səviyyəsi üzrə 659 qəbul planının təqdim edildiyini və faktiki qəbul olunanların sayının 480 nəfər olduğunu bildirib. Əlavə olaraq qeyd edib ki, prosesin əvvəlindən aparılan düzgün tənzimləmələr nəticəsində bu il ilk dəfə olaraq ali təhsil müəssisələrinin doktorantura proqramına qəbul olunan bütün namizədlər dövlət hesabına təhsil alacaqlar.

O, təqdimatın yekununda ali təhsil pilləsi üzrə qəbul planı və faktiki qəbul olunanların nisbətinə də toxunub: "Cari ildə bakalavriat (əsas (baza ali) tibb təhsili), magistratura (rezidentura) və doktorantura səviyyələri üzrə ümumilikdə 80.000 qəbul planı verilib. Tələbə adını qazananlar isə təxminən 74.000 nəfərdir. Növbəti illərdə qəbul planının daha da optimallaşdırılması istiqamətində işlər görməliyik. Bu da ciddi araşdırma və təhlil tələb edən məsələdir".

Turxan Süleyman əlavə edib ki, "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda 2026-cı ilə qədər bakalavriat səviyyəsində qəbul planının 75 min olması hədəf kimi müəyyənləşdirilib, lakin artıq bu il biz bu hədəfə yaxınıq. Bu, o deməkdir ki, artıq növbəti illərdə qəbul planında artırmla bərabər, optimallaşdırmalara da gedəcəyik.

Tədbirin ikinci hissəsində "Yeni təhsil proqramlarının (ixtisasların) açılması Qaydaları" ilə bağlı iştirakçılara məlumat verən Elm və ali təhsil siyasəti şöbəsinin müdir müavini Nərgiz Qaraxanova qeyd edib ki, bu qaydalar ali, orta ixtisas və peşə təhsili pillələrində yeni ixtisasların açılması məsələlərini tənzimləyir:

"Yeni təhsil proqramının açılması dörd hala şamil edilir: təhsilin müvafiq pillələri (səviyyələri) üzrə ixtisasların əlavə olunmasına, təsnifatda mövcud olan ixtisas üzrə ali və ya orta ixtisas və ya peşə təhsili müəssisəsində ilk dəfə tədrisə başlanılmasına, müvafiq ixtisas üzrə təhsil proqramının adı dəyişdirilmədən məzmununun dəyişdirilməsinə və təhsil proqramının məzmunu dəyişdirilmədən ixtisasın adının dəyişdirilməsinə".

O əlavə edib ki, yeni ixtisas təhsil alanlarda (tələbələrdə) müasir tələblərə və şəraitə uyğunlaşmaq, rəqabətqabiliyyətli olmaq, informasiya cəmiyyətində yaşayıb fəaliyyət göstərmək, ünsiyyət qurmaq bacarığını formalaşdırmalıdır: "Təhsil proqramı (ixtisas) ölkənin inkişaf istiqamətlərinə uyğun olmalı və cəmiyyətin yüksəksəviyyəli, rəqabətqabiliyyətli kadr potensialına tələbatının ödənilməsinə xidmət etməlidir. Təhsil proqramında tədrisi nəzərdə tutulan fənlərin və onlara ayrılan kreditlərin ən azı 50 faizi fərqli olmalı, təkrarlanmamalıdır. Yeni ixtisasın təlim nəticələrinə uyğun peşə və kvalifikasiya standartları olmalıdır".

Nərgiz Qaraxanova bildirib ki, yeni ixtisas üzrə kadr hazırlığının aparılması maraqlı tərəflərin əsaslandırıcı təşəbbüsü ilə mümkündür. Bu təşəbbüslə ali təhsil müəssisəsinə müraciət olunmalı, ali təhsil müəssisəsində bununla bağlı işçi qrupu yaradılmalı, müvafiq sənədlər hazırlanmalı, daha sonra nazirlik qarşısında vəsatət qaldırmalıdır.

Sonda tədbirin yekunu olaraq ali təhsil müəssisələrinin nümayəndələrinin sualları cavablandırılıb, onların təklifləri dinlənilib və müzakirələr aparılıb.

*Yetər KƏRİMLİ*

# Bu il ADA Universitetinə 18 ölkədən xarici tələbələr qəbul edilib

**ADA Universiteti 2024-2025-ci illər üzrə qəbul nəticəsini açıqlayıb. Universitetdən AZƏRTAC-a bildirilib ki, bu il əvvəlki illərlə müqayisədə rekord sayda, ümumilikdə 1349 tələbə qəbul edilib. Onlardan 1019-u bakalavr, 330-u isə magistr proqramları üzrə təhsil alır.**

Bakalavr proqramlarına Dövlət İmtahan Mərkəzinin (DİM) keçirdiyi imtahanların nəticəsi ilə 345, SAT nəticəsi ilə 503, IB nəticəsi ilə 20, ADA Məktəbindən isə 108 tələbə qəbul edilib.

Həmçinin ADA Universiteti bu il 18 ölkədən 92 xarici tələbəni qəbul edib.

DİM nəticəsi üzrə qəbul edilənlərin ən yüksək göstəricisi 700 bal, SAT nəticəsi ilə qəbul olanların rekord nəticəsi isə 1570 təşkil edib.

ADA Universitetinin builki qəbul göstəriciləri bir sıra məqamlarla yadda qalıb. Belə ki, DİM üzrə bakalavr proqramlarına qəbul edilən 345 tələbədən 212-si yüksək nəticələrə görə müxtəlif təhsil haqqı güzəştləri əldə ediblər. Daha bir diqqətəlayiq məqam ondan ibarətdir ki, ADA Universiteti bu il özünün əvvəlki illərlə müqayisədə rekord sayda - 18 nəfər Prezident təqaüdçüsü qəbul edib. Bu təqaüdçülərdən 12-si hüquqşünaslıq ixtisasının tələbələridir.




Ümumilikdə, bu il qəbul edilən tələbələrin 32 faizə qədəri ADA-nın müxtəlif təhsil haqqı güzəştlərindən yararlanmaqla təhsil alırlar. Həmin tələbələrdən 3-ü Heydər Əliyev adına təqaüd proqramının, 19-u isə respublika fənn olimpiadalarının qalibidir.

Otuzadək xarici tələbə isə Əlimərdan bəy Topçubaşov adına təqaüd proqramından yararlanır.

Əlavə edək ki, Meksika, İndoneziya, Niderland, Böyük Britaniya və digər ölkələrdən tələbə qəbul edən universitet bu il Braziliyanı təmsil edən ilk tələbəsini salamlayıb.

Regionlarımızda təhsil alan 189 abituriyent, eləcə də I,II və III qrup üzrə ölkə birinciləri ADA Universitetini seçiblər.

**103 illik zəngin ənənəyə malik Polis Akademiyası bu gün Prezident İlham Əliyevin diqqət və qayğısı sayəsində tarixi inkişaf mərhələsinə qədəm qoyub. Akademiyanın yeni inşa olunmuş 1500 nəfərlik tədris korpusu və yataqxana kompleksinin artıq kursantların istifadəsinə verilməsi məhz Ali Baş Komandanın hərtərəfli diqqətinin əyani təzahürüdür.**



# Keyfiyyətli təhsil, modern infrastruktur, uğurlu nəticə

## Polis Akademiyasında yeni tədris korpusu və yataqxana kompleksi istifadəyə verilib





Görülən son işlər sayəsində asayiş keşikçilərinin hazırlanması üçün Polis Akademiyasında müasir meyarlara cavab verən təhsil prosesinin həyata keçirilməsi məqsədilə infrastruktur təminatı ən yüksək səviyyəyə çatdırılıb, maddi-texniki baza daha da möhkəmləndirilib.

Polis Akademiyasında təhsil alan kursantlar hüquqi biliklərlə yanaşı, kriminalistik tədqiqatlar, informasiya təhlükəsizliyi və informasiya texnologiyaları, habelə insan hüquqlarının təminatı, məntiq və yeni dövrün çağırışları ilə səsləşən ixtisaslar üzrə elmi-nəzəri, praktiki biliklər qazanırlar.

Müasir texniki və sinxron tərcümə avadanlıqları ilə təchiz edilmiş konfrans zalları beynəlxalq və respublika səviyyəli elmi-praktiki müzakirələrin aparılması, multimedia sistemi və dərslərin operativ təhlilinə imkan verən audio-video nəzarət vasitələri ilə təmin olunmuş mühazirə zalları isə interaktiv üsullarla dərslərin keyfiyyətinin yüksəldilməsi və təhsil alanların fənnə olan marağının artırılması üçün nəzərdə tutulub.

Akademiyada informasiya təhlükəsizliyi sahəsində xüsusi biliklərə yiyələnmək üçün geniş imkanlar yaradılıb. Burada təhsil alanlar xüsusi laboratoriyalarda kiberhücumlara qarşı dayanıqlılığın artırılmasının effektiv yollarını araşdırır, şəbəkə təhlükəsizliyi və məlumatların qorunması üsullarını peşəkar müəllimlərin köməyi ilə dərindən mənimsəyirlər.

Qapalı və interaktiv atıcılıq tirində tapançadan atəş üçün 25 metrlik hədəf sistemləri, 12 nəfərin eyni vaxtda atəş açması üçün kabinələr, elektron hədəf və monitorlar, eləcə də zəruri kommunikasiya qurğuları ilə təchiz edilib.











Kursantlarda güc, çeviklik və dözümlülüyün inkişaf etdirilməsi məqsədilə hər bir yataqxananın və tədris korpusunun kürsülərində müasir avadanlıqlarla təchiz edilmiş idman zalları mövcuddur.

Hər biri 500 nəfər üçün nəzərdə tutulmuş 1000 yerlik yeməkxana binasında yaradılan hərtərəfli şəraitlə kursantların keyfiyyətli qidalanması təmin olunacaq.

Zəruri mebel avadanlıqları ilə təchiz edilmiş 880 yerlik yeni yataqxana binası kursantların yaşamasına və növbəti günə hazırlaşmasına xidmət edir.

Tədris olunan fənlərə uyğun didaktik fondla təmin edilmiş oxu və qiraət zallarında kursantların dərslərə axşam saatlarında da hazırlaşmaq, asudə vaxtlarını səmərəli təşkil etmək, ölkədə və beynəlxalq aləmdə baş verən mühüm ictimai-siyasi və digər hadisələr barədə xəbərləri izləmək imkanı yaradılıb.

İstirahət zonaları isə dərsdənkənar vaxtlarda kursantların açıq havada dincəlməsi, eyni zamanda aktual mövzular ətrafında diskussiyalar aparması üçün nəzərdə tutulub.

Polis Akademiyasının yeni tədris korpusunda ən müasir standartlar əsasında görülən işlər kursantların təhsil səviyyəsi, fiziki gücü, dünyagörüşü və xidmət üçün vacib olan digər keyfiyyətləri ilə peşəkar polis zabiti kimi formalaşmasına vəsilə olacaq. Akademiyanı bitirən yüzlərlə gənc daxili işlər və digər hüquq-mühafizə orqanlarında öz nümunəvi xidmətləri ilə fərqlənməklə, ölkəmizin bu gün olduğu kimi, gələcəkdə də sabitlik mühitinin qorunmasına və təhlükəsizliyinin təmin olunmasına dəyərli töhfələr bəxş edəcəklər.

*Yasəmən MUSAYEVA, "Azərbaycan"*





# Hayastanın müstəqil siyasi kursu yoxdur

## Bu səbəbdən də İrəvan sülh razılaşmasını uzatmağa çalışır

**"Ermənistanın və Avropadakı havadarlarının süni ara qarışdırmasına baxmayaraq, Azərbaycan rəsmən bütün görüş və toplantılarda sülh çağırışlarına sadiqliyini nümayiş etdirir. Buna baxmayaraq, Ermənistanın hərbi büdcəsini durmadan artırması, həm əvvəlki mənbələrdən, həm də yeni təchizatçılardan külli miqdarda hücum silahları alması, eləcə də konstitusiya dəyişiklikləri həyata keçirməməsi normallaşma prosesinə xələl gətirir".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin deputatı Kamran Bayramov deyib. O bildirib ki, Ermənistan iki ildir bu və ya digər bəhanələrlə, ləngitmələrlə sülhün gerçəkləşməsini əngəlləyir. Aparılan müzakirələrdə müddəaların bir çoxunun razılaşdırıldığı deyilsə də, Ermənistanın Azərbaycanın hüquqi çağırışlarına cavab verməməsi qəbuledilməzdir. Bakı regionda əbədi və dayanıqlı normallaşma prosesi istədiyini rəsmən bəyan etsə də, Ermənistan buna qarşılıq verməkdən yayınmağa çalışır və sülhün imzalanması vaxtını süni şəkildə uzadır. "Ermənistan rəsmilərinin sülh sazişi layihəsini, razılaşdırılmamış müddəalar çıxarılmaqla imzalanması çağırışını və ikitərəfli münasibətlərdə mövcud problemlərin həllini növbəti mərhələyə saxlamaq cəhdlərini isə Azərbaycan haqlı olaraq qəbul etmir. Bu gün Azərbaycanın təqdim etdiyi şərtlər beynəlxalq hüquqa söykənməklə, dövlətlərin bir-birilərinin suverenliyi, ərazi bütövlüyü, beynəlxalq sərhədlərinin toxunulmazlığı və siyasi müstəqilliyini qarşılıqlı şəkildə tanıması, dövlət sərhədinin delimitasiyası və demarkasiyası, diplomatik münasibətlərin qurulması, o cümlədən nəqliyyat və kommunikasiyaların açılışı və bu kimi perspektivlər vəd edən müddəalardır", - deyə K.Bayramov əlavə edib.

Deputat qeyd edib ki, Ermənistan həqiqətən sülh istəyirsə, konstitusiyasını dəyişdirməlidir. Sülh sazişinin təməl prinsipi iki ölkənin bir-birinin ərazi bütövlüyünü tanıması deməkdir. Göründüyü kimi, bu gün Ermənistan sülh razılaşmasını uzatmağa çalışır, yəni onun müstəqil dövlət siyasi kursu yoxdur. Ermənistanda baş nazir, Təhlükəsizlik Şurasının katibi, parlament sədri və digər səlahiyyətli şəxslərin hər biri müxtəlif çıxışlar edirlər. Buna görə də Ermənistanda hansı dövlət xadiminin mövqeyinin əsas götürülməsi qeyri-müəyyəndir. Ermənistanın tarixi məsuliyyəti Nikol Paşinyanın üzərində olmasına baxmayaraq, o, qeyri-ciddi siyasi xadimdir, müstəqil addım atmır və xaricdən gələn təlimatları icra edir. Paşinyan bu gün özünü beynəlxalq aləmə sülhpərəst kimi təqdim edir, amma əməldə Azərbaycanla konfrantasiyaya getməyə üstünlük verərək çirkin manipulyasiyalarından əl çəkmək istəmir.

Siyasətçi bildirib ki, erməni rəsmiləri publika qarşısında sülh sazişinin imzalanmasına hazır olduqlarını bildirsələr də, əməldə bunun əksini həyata keçirirlər: "Bununla da Paşinyan və havadarları Ermənistanın sülh müqaviləsini imzalamağa hazır olduğunu, Azərbaycanın isə hələ də bunu imzalamağa hazır olmadığını göstərməyə çalışırlar. Ona görə də belə yarımçıq sənədi imzalamağı qarşılarına hədəf qoyublar. Halbuki, Paşinyan rəsmi Bakının bu məsələləri müzakirə belə etməyəcəyini çox yaxşı başa düşür. Belə yarımçıq sənədlər heç kimə lazım deyil. Çünki Azərbaycan bütün müddəaları təsdiq edilmiş, beynəlxalq zəmanətli, iki ölkə arasında həqiqi sülhü özündə ehtiva edən sənəd imzalamağı nəzərdə tutur".

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Azərbaycan həqiqətləri AİPA tribunasından bəyan olunub

**Milli Məclisin deputatı, Cənub-Şərqi Asiya Dövlətləri Assosiasiyasının (ASEAN) Parlamentlərarası Assambleyasında (AİPA) Azərbaycan nümayəndə heyətinin rəhbəri Zaur Şükürov qurumun Baş Assambleyasının 45-ci sessiyasında iştirak etmək məqsədilə 18-20 oktyabr tarixlərində Laos Xalq Demokratik Respublikasının paytaxtı Vyentyan şəhərində səfərdə olub.**



Səfər çərçivəsində nümayəndə heyətinin rəhbəri Baş Assambleyanın 45-ci sessiyasında çıxış edib, həmçinin 3-cü AİPA-Azərbaycan dialoquna qatılıb. Deputat AİPA-nın baş katibi, Laos Xalq Demokratik Respublikasının Milli Assambleyasının Hüquq komitəsinin sədri və Kamboca parlamentinin Beynəlxalq əlaqələr komitəsinin sədri ilə ikitərəfli görüşlər keçirib. Bununla yanaşı, qardaş Türkiyənin, Vyetnamın, Filippinin, Malayziyanın, Tailandın və Sinqapurun nümayəndə heyətlərinin rəhbərləri ilə səmərəli fikir mübadiləsi aparılıb.

Baş Assambleyanın sessiyasında çıxışında, habelə AİPA-Azərbaycan dialoqu zamanı deputat Azərbaycanla ASEAN və AİPA arasında, həmçinin təşkilata üzv dövlətlərlə ikitərəfli formatda əməkdaşlığın inkişaf perspektivləri və bu prosesdə parlamentarilərin rolundan danışıb. Ölkəmizin etibarlı tərəfdaş kimi beynəlxalq miqyasda nüfuzunun get-gedə daha da artdığını deyən millət vəkili, Azərbaycanın Qoşulmama Hərəkatına uğurlu sədrliyi dövründə həyata keçirilən qlobal əhəmiyyətli təşəbbüslərin, dünya dövlətlərinin yekdil qərarı ilə cari ilin noyabr ayında BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) Bakı şəhərinin evsahibliyi etməsinin bunun sübutu olduğunu qeyd edib.

Sessiyada çıxış edən Ermənistan parlamentinin nümayəndə heyətinin rəhbəri öz ölkəsini sülhün tərəfdarı və təşəbbüskarı kimi təqdim etməyə çalışıb. Lakin Azərbaycan nümayəndə heyətinin rəhbəri çıxışı zamanı, həmçinin AİPA-Azərbaycan dialoqu əsnasında erməni tərəfinin həqiqətdən uzaq fikirlərini ifşa edib. Belə ki, torpaqlarımız erməni işğalından azad olunduqdan sonra məhz Azərbaycan Prezidenti İlham Əliyevin qarşılıqlı şəkildə bir-birinin ərazi bütövlüyü və suverenliyinin tanınmasını ehtiva edən 5 prinsip əsasında Ermənistan ilə sülh müqaviləsinin hazırlanması təşəbbüsü ilə çıxış etdiyi, buna baxmayaraq, Ermənistanın sülh prosesinə süni şəkildə əngəl törətdiyi, onun konstitusiyasında hələ də ölkəmizə qarşı ərazi iddiasının saxlanıldığı, bu ölkənin regionda həqiqətən də davamlı və etibarlı sülhdə maraqlıdırsa, məhz konstitusiyasında zəruri dəyişiklik etməli olduğu vurğulanıb.

AİPA-Azərbaycan dialoqu, habelə ikitərəfli təmaslar zamanı görüş iştirakçıları Ermənistanın mina terrorunun nəticələrinin aradan qaldırılması məqsədilə mina problemindən zərər çəkmiş ASEAN dövlətləri ilə təcrübə mübadiləsi, işğaldan azad olunmuş ərazilərdə irimiqyaslı yenidənqurma və bərpa işləri və Böyük qayıdış proqramı, həmçinin Ermənistandan didərgin salınmış həmvətənlərimizin öz tarixi dədə-baba yurdlarına geri qayıdış hüququnun gerçəkləşdirilməsi ilə əlaqədar atılan addımlarla bağlı məlumatlandırılıblar.

Bununla yanaşı, ölkəmizdə keçiriləcək qlobal əhəmiyyətli COP-29 tədbirinə hazırlıq prosesi barədə də görüş iştirakçılarına məlumat verilib, onları maraqlandıran suallar cavablandırılıb.

*"Azərbaycan"*

# Qərb Gürcüstanı qarşıdurmaya sürükləyir

**Gürcüstan parlament seçkiləri ərəfəsindədir. Oktyabrın 26-da keçiriləcək növbəti seçkilərə yalnız ölkənin özündə deyil, regional və qlobal müstəvidə böyük maraq var. Təsadüfi deyil ki, Gürcüstandakı parlament seçkiləri "geosiyasi seçkilər" kimi də xarakterizə olunur.**

### Azərbaycanın tərəfdaşı

Ondan başlayaq ki, qonşu ölkədəki seçkilər Azərbaycanda da böyük maraqla izlənilir. Çünki Gürcüstan Azərbaycan üçün dost və tərəfdaş dövlətdir. Məhz bunun nəticəsində hələ ötən əsrin 90-cı illərinin ortalarından etibarən iki dövlətin birgə siyasi iradəsi ilə mühüm iqtisadi layihələr reallaşdırılıb. Daha sonra Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin, Bakı-Tbilisi-Qars dəmir yolu xəttinin, "Cənub qaz dəhlizi"nin inşası əlaqələrin strateji səviyyədə yüksəlməsini təmin edib. Azərbaycanın qlobal təşəbbüsləri həm də Gürcüstanı regionun tranzit dövlətinə çevirib, onun maliyyə imkanlarının yüksəlməsinə, əhalisinin sosial rifahının yaxşılaşmasına xidmət edib.

Azərbaycan, eyni zamanda Gürcütana sərmayə yatıran əsas ölkədir. SOCAR-ın xətti ilə Gürcüstanda görülən işlər bu ölkənin iqtisadiyyatının inkişafına, dövlət büdcəsinin formalaşmasına böyük töhfələr verir.

Prezident İlham Əliyevlə Gürcüstanın baş naziri İrakli Kobaxidze arasındakı şəxsi təmaslar, qarşılıqlı səfərlər, görüşlər, iki ölkə arasında münasibətlərin inkişafına böyük töhfələr verir. Azərbaycan-Gürcüstan münasibətləri, eyni zamanda regionda sülh və təhlükəsizliyin qorunmasında və möhkəmləndirilməsində böyük rol oynayır. Bu baxımdan Cənubi Qafqazın gələcəyi ilk növbədə Azərbaycan və Gürcüstandan, bu iki dövlət arasındakı münasibətlərdən asılıdır. Ona görə də qonşu ölkədəki parlament seçkilərində hazırkı hakim partiyanın qələbəsi Azərbaycanın maraqlarına uyğundur.

### Parlament seçkilərinin nəticələri Qərbin avantüralarını iflasa uğradacaq

O da aydındır ki, Cənubi Qafqazda maraqları olan Qərb müxtəlif siyasi alətlərlə regiona təsir imkanlarının olmasına çalışır. ABŞ və Fransa Ermənistanda buna nail olublar. Ermənistan cəmiyyətində Soros Fondu və USAİD başda olmaqla Qərbin maraqlarına xidmət edən təşkilatların maliyyələşdirdiyi QHT və media qurumları demokratiya pərdəsi altında meydan sulayır, ictimai rəyin formalaşmasına böyük təsirlər göstərirlər.

Gürcüstanda da QHT-lərin böyük qismi Qərbin maliyyə yardımı ilə fəaliyyətdədir. Lakin son dövrlərdə Gücrüstanın xüsusi xidmət orqanları Qərbdən maliyyələşən bir sıra QHT-lərin fəaliyyətinin ölkədə qarşıdurma və ideoloji dəyişikliklər yaratmaq məqsədlərinə xidmət etdiyini müəyyənləşdiriblər. Bir neçə ay əvvəl Gürcüstanda qəbul edilən "Xarici təsirin şəffaflığı haqqında" qanun məhz həmin təşkilatların qanunsuz fəaliyyətinin qarşısına sipər çəkib. Belə ki, sözügedən qanun QHT-lərin öz maliyyələri haqqında deklarasiyalarını nəzərdə tutur. Yəni QHT-lər maliyyənin haradan və hansı məqsədlər üçün daxil olduğu barədə məlumat verməlidirlər. Bu isə Qərbin məkrli maraqlarına cavab vermədəyindən son aylarda həm ABŞ, həm Avropa İttifaqı Gürcüstana qarayaxma kampaniyasına başlayıblar. Aİ Gürcüstanın üzvlük prosesini faktiki olaraq dayandırıb. Habelə Aİ Gürcüstana yüksəksəviyyəli səfərlər etməmək və Gürcüstan hökumətinin nümayəndələri ilə Brüsseldə görüşlər keçirməmək barədə qərar qəbul edib.

"Xarici təsirin şəffaflığı haqqında" qanun isə Qərb ölkələrində də qəbul olunub. Göründüyü kimi Qərb yenə ikili standartlardan çıxış edir, bu dəfə müstəqil siyasət yürüdən Gürcüstanla bağlı məkrli mövqe ortaya qoyur. Azərbaycana olduğu kimi, Qərb siyasi dairələrinin Gürcüstana da təzyiq etməsi onun daxili işlərinə müdaxilə etməyə, onu daxili qarşıdurmaya sürükləməyə çalışır. Qarşıdan gələn seçki günü də onların ölkədə təxribatlara cəhd göstərəcəkləri istisna olunmur. Artıq Gürcüstan Dövlət Təhlükəsizlik Xidməti parlament seçkiləri ərəfəsində planlaşdırılan təxribat barədə xəbərdarlıq edib.

Əlbəttə, gürcü xalqı kimin kim olduğunu yaxşı bilir. Ona görə yaxın qonşumuz bu sınaqdan uğurla çıxacaq. Gürcüstandakı seçkilərin nəticələri Qərbin bu ölkə və Cənubi Qafqazla bağlı məkrini iflasa uğradacaq.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*



# Nikol Paşinyandan acı etiraf

## Hərbi yaşda olan gənclərin yarısından az hissəsinin orduya cəlb olunması səbəbsiz deyil

**Ermənistanda həmişəki kimi yenə də silahlı qüvvələrdə böyük problemlər yaşanır. Ümumiyyətlə, buradakı durum erməni ordusunda qanunsuzluqların hökm sürdüyünü, korrupsiya və rüşvətxorluğun getdikcə daha geniş miqyas aldığını göstərir.**



Bunu ölkənin baş naziri Nikol Paşinyan da etiraf edib. O bildirib ki, hərbi yaşda olan vətəndaşların yarısından az hissəsi orduya cəlb olunur: "Bu o deməkdir ki, ya bizim nəslin səhhətində ciddi problemlər var, ya da bu sahə korrupsiya üçün ən çiçəklənən mühit olaraq qalır. Tibb rəsmiləri, hərbçilər və ictimaiyyət bu sahədə bir-biri ilə müttəfiqdirlər".

Göründüyü kimi, postmüharibə dövründə yaranmış kriminogen vəziyyət gənclərin hərbi xidmətdən yayınmalarına da səbəb olur. Gənclər ordudan yayınmağın yeni metodlarını tapırlar. Belə ki, indi Ermənistan gəncləri cinsi azlıqlara mənsub olmaları barədə hərbi komissarlıqlara arayış təqdim edərək hərbi xidmətdən yayınır, sonra isə ölkəni tərk edirlər.

Ermənistan ordusu təkcə çağırışçıların sayının sürətlə azalmasına görə problem yaşamır, bu ölkənin silahlı qüvvələrinin maddi-texniki təchizatında da əvvəlki kimi böyük çətinliklər mövcuddur. Eyni zamanda orduda nizam-intizam pozuntularının, fərariliyin, ölüm hallarının, digər bu kimi mənfi tendensiyaların miqyası durmadan genişlənməkdə davam edir.

Erməni hüquq müdafiəçisi Zaruhi Hovhannisyan deyib ki, mülki həyatda baş verən hadisələrlə orduda baş verənləri müqayisə etmək yolverilməzdir, çünki dövlətin himayəsində fəaliyyət göstərən struktur daxilində törədilən hər hansı cinayət, hüquq pozuntusu mülki həyatda baş verən münasibətlərlə tamamilə müqayisə olunmazdır. Onun sözlərinə görə, Ermənistanda dövlətin birbaşa himayəsində fəaliyyət göstərən strukturlar arasında ordu, penitensiar sistem, qapalı və yarımqapalı müəssisələr, xüsusi qayğı müəssisələri yer alır. "Mülki həyatda insan səhhətində problem olanda istədiyi vaxt tibb müəssisəsinə müraciət edə bilər, orduda isə kimsə istənilən vaxt hərbi hissəni tərk edə, "özümü pis hiss edirəm" deyə və mülki xəstəxanaya gedə bilərmi? Dövlətin vəzifəsi tez reaksiya vermək və həmin şəxsin sağlamlıq problemini həll etməkdir" - deyə Hovhannisyan qeyd edib.

Hovhannisyan bildirib ki, 15 gündə Ermənistan ordusunda 3 itki olub, Paşinyan isə insanları oğullarını ordudan qaçırmaqda ittiham edir.

Ermənistanın "Qolos Armenii" nəşri "Əsgərlərimiz niyə özlərini öldürürlər?" adlı məqalə yayımlayıb və bu vəziyyəti kəskin tənqid edib. Nəşr, eyni zamanda hökumətin fəaliyyətsizliyini ön plana çəkib. Məqalədə orduda mənəvi-psixoloji vəziyyətin son dərəcə ağır olması da diqqətdən yayınmayıb. Bunun bir çox səbəbi göstərilsə də, ən başlıcası Azərbaycanın İkinci Qarabağ müharibəsində əldə etdiyi tarixi qələbədir. Bu qələbə Ermənistanda təkcə siyasi səhnədə deyil, ordu daxilində də ciddi böhran yaradıb. Rəsmi İrəvanın məğlubiyyəti ilə nəticələnən bu müharibə ölkədə yalnız siyasi çaxnaşma yaratmadı, eyni zamanda hərbi sistemin tamamilə çökməsinə və əsgərlər arasında mənəvi çöküntünün dərinləşməsinə səbəb oldu. İşin maraqlı tərəfi odur ki, məğlubiyyətin yaratdığı sarsıntılar yalnız fərdi əsgərlərlə məhdudlaşmır, bütün hərbi strukturlara sirayət edir. Bu gün Ermənistan ordusunda artan əsgər ölümləri və intizamsızlıq halları bir daha göstərir ki, bu ölkədə hərbi sistem dərin böhranla üz-üzədir. Son dörd ilin statistikası bu reallığı açıq-aşkar əks etdirir.

Ermənistanda hərbi itkilərin sayında nəzərəçarpacaq dərəcədə artım var ki, bu da cəmiyyətin narazılığını daha da körükləyir. Problem təkcə hərbi məğlubiyyətin nəticəsi deyil, həm də hökumətin siyasi iradəsizliyinin və Ermənistanın son dərəcə uğursuz daxili siyasətinin göstəricisidir.

Məqalədə 13 oktyabrda Mehri hərbi hissəsində Aqasi Dallakyanın odlu silah yarası ilə ölü tapılması da qeyd olunub. Bu artıq orduda baş verən növbəti döyüşsüz itkidir. Oktyabrın 6-da Vaqe Arutyunyanın cəsədi aşkar edilmiş və intihar etdiyi bildirilmişdi. Bu hadisələr Ermənistan ordusunda baş verən faciələrin sistemli bir problemin nəticəsi olduğunu göstərir. Məqalədə vurğulanan statistikaya görə, bu il Ermənistan ordusunda döyüş meydanından uzaq şəraitdə baş verən ölüm halları artıq 30-dan çoxdur.

Bu vəziyyətdə valideynlər üçün ən yaxşı çıxış yolu övladlarını orduda xidmətə göndərməkdən yayındırmaq, mümkün olduğu halda onları ölkə xaricinə qaçırmaqdır.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*




# Azərbaycanı daha da gücləndirəcək qlobal tədbir

**Azərbaycan yeni tarixinin daha bir möhtəşəm hadisəsi ərəfəsindədir. Ölkəmiz BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası - COP29 kimi mötəbər bir tədbirə evsahibliyi edəcək. İndiyə qədər ölkəmizdə keçirilən qlobal tədbirlərin təşkilatçılıq tarixi təcrübəsindən çıxış edərək əminliklə vurğulaya bilərik ki, Azərbaycan bu əlamətdar hadisənin təşkili səviyyəsi ilə də gələcək ev sahibləri üçün yeni standartlar, meyarlar formalaşdıracaq.**



Belə bir möhtəşəm tədbirin Azərbaycanda keçirilməsi, beynəlxalq ictimaiyyətin bununla bağlı yekdil qərarı ölkəmizə olan böyük hörmət və etimadın, Prezident İlham Əliyevin məqsədyönlü siyasəti sayəsində bu gün tarixinin ən qüdrətli mərhələsinə çatmış respublikamızın uğurlarına münasibətin, eləcə də milli, regional və qlobal səviyyədə ətraf mühitin qorunması, iqlim dəyişmələrinin qarşısının alınması işinə töhfələrimizə verilən yüksək qiymətin ifadəsidir. Dünya bir daha bizim imkan və bacarıqlarımızın, dövlət və qeyri-hökumət sektorunun harmonik əməkdaşlığının, vətəndaşımızın intellektual səviyyəsinin, ümumilikdə isə insan potensialımızın gücünün və perspektivlərinin şahidi olacaq.

## Azərbaycan iqlim dəyişikliyinə qarşı mübarizədə də fərqlənir

Dövlətimizin bu sahədə töhfələrini bir sıra istiqamət üzrə təsnifatlandırmaq olar. Azərbaycan hökuməti iqlim dəyişikliyi ilə mübarizə və ətraf mühitin qorunması üzrə bir sıra mühüm sənədlər qəbul edib. Azərbaycanın 2030-cu ilə qədər sosial-iqtisadi inkişafa dair beş milli prioritetindən biri məhz "Təmiz ətraf mühit və yaşıl artım ölkəsi" olmaq hədəfidir. Həmin prioritetə uyğun olaraq, ətraf mühitin sağlamlaşdırılması, yaşıllıqların bərpası və artırılması, su ehtiyatlarından və dayanıqlı enerji mənbələrindən səmərəli istifadənin təmin edilməsi istiqamətində işlər aparılır. Azərbaycan baza ili (1990) ilə müqayisədə 2030-cu ilə qədər istilik effekti yaradan qazların emissiyalarının 35 faiz, 2050-ci ilə qədər isə 40 faiz azaldılmasını hədəf kimi götürmüşdür.

Vətən müharibəsindəki şanlı qələbəmiz sayəsində işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur, eləcə də Naxçıvan Muxtar Respublikası "yaşıl enerji" zonası elan olunmuşdur. Azad edilmiş torpaqlarda həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma prosesində ətraf mühitin qorunması prioritet elan olunmaqla həmin ərazilərdə "ağıllı şəhər", "ağıllı kənd" kimi innovativ yanaşmalar tətbiq edilir, ekosistem bərpa olunur.

"Yaşıl enerji"nin istehsalı və onun dünya bazarlarına nəqli Azərbaycanın enerji siyasətinin əsas istiqamətidir və bu səbəbdən Azərbaycan elektrik enerjisi istehsalının qoyuluş gücündə bərpaolunan enerji mənbələrinin payının 2030-cu ilə qədər 30 faizə çatdırılmasını hədəfləyir.

Tarixən neft və qaz istehsal edən ölkə olmuş Azərbaycan hazırda bərpaolunan enerji mənbələrinə davamlı investisiya yatırır. 2020-ci ildə qəbul edilən Bərpa Olunan Enerji Mənbələri üzrə Dövlət Proqramı külək, günəş və hidroenerji mənbələrinin genişlənməsini təşviq edir.

Azərbaycan hökuməti meşələrin bərpası və yeni meşə sahələrinin yaradılması ilə ətraf mühitin qorunmasına dair tədbirlər həyata keçirir. Meşə sahələrinin genişləndirilməsi iqlim dəyişikliyi ilə mübarizədə karbonudma qabiliyyətini artırır. Su resurslarının idarə edilməsi və suyun səmərəli istifadəsi də ölkə daxilində ətraf mühitin qorunması üçün vacib sahələrdən biridir. Azərbaycan su resurslarının davamlı istifadəsi və çirklənməsinin qarşısının alınması üzrə tədbirlər görür.

Ölkəmizin iqlim dəyişikliyinə qarşı mübarizə işinə regional səviyyədə töhfələri də  böyükdür. Azərbaycan Xəzər dənizi hövzəsində yerləşən digər ölkələrlə birgə dənizin ekoloji vəziyyətinin yaxşılaşdırılması və ətraf mühitin qorunması istiqamətində Xəzər dənizinin hüquqi statusu haqqında Konvensiyaya uyğun birgə layihələr həyata keçirir. Azərbaycan ekosistemlərin mühafizəsi və iqlim dəyişikliyi ilə mübarizə sahəsində bir sıra qonşu Qafqaz ölkələri ilə də əməkdaşlıq edir. Bu əməkdaşlıq regional ekoloji problemlərin həllinə kömək göstərir və birgə dayanıqlı inkişaf layihələrinin həyata keçirilməsini təşviq edir.

Məlum olduğu kimi, Azərbaycan 2016-cı ildə Paris İqlim Sazişini ratifikasiya edərək bu çərçivədə iqlim dəyişikliyi ilə mübarizə və qlobal istiləşməni 2°C-dən aşağı saxlamaq üçün üzərinə öhdəliklər götürmüşdür. Karbon emissiyalarını azaltmaq üçün milli fəaliyyət sənədlərinə uyğun olaraq bu sahədə beynəlxalq əməkdaşlığa önəm verən ölkəmiz BMT-nin Dayanıqlı İnkişaf Məqsədlərinə (DİA) uyğun olaraq ətraf mühitin qorunması və iqlim dəyişikliyi ilə mübarizə sahəsində qlobal səyləri də dəstəkləyir. Xüsusən 13-cü məqsəd olan "İqlim dəyişikliklərinə qarşı təcili tədbirlər" sahəsində öz milli strategiyalarını və beynəlxalq əməkdaşlığını genişləndirən Azərbaycan bu problemə həsr olunmuş beynəlxalq tədbirlərdə, qlobal səviyyədə ekoloji problemlərin müzakirəsində fəal rol oynayır. Bu tədbirlər çərçivəsində qlobal iqlim siyasətinin formalaşmasına və yeni öhdəliklərin qəbul edilməsinə öz töhfələrini verir.

Ölkəmiz BMT-nin Ətraf Mühit Proqramı (UNEP) və digər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq əlaqələrinə malikdir, qlobal ekoloji layihələrə qatılır və ətraf mühitin qorunmasına dair təşəbbüslərin icrası üçün səylərini əsirgəmir. Azərbaycanın milli, regional və qlobal səviyyələrdə ətraf mühitin qorunmasına yönələn bu addımları ölkənin iqlim dəyişikliyi ilə mübarizədə mühüm iştirakçı olmasına və beynəlxalq əməkdaşlıqda vacib rol oynamasına şərait yaradır.

## Bəşəriyyətin bu günü və gələcəyi üçün mühüm platforma

Bütün bunların davamı kimi Azərbaycanın bu il COP29-a evsahibliyi etməsi iqlim dəyişikliyinə mübarizə işində ölkəmizin milli, regional və qlobal səviyyədə tarixi rolunu daha da gücləndirəcək. Məlum olduğu kimi, iqlim dəyişikliyi mövzusuna həsr edilən COP tədbirləri dünya üçün olduqca böyük əhəmiyyət daşıyır. Bu tədbirlər, BMT-nin 1994-cü ildə qüvvəyə minmiş İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının (UNFCCC) iştirakçı ölkələri arasında keçirilir və bu sahədə qlobal səyləri bir araya gətirir.

İlk növbədə qlobal iqlim siyasətinin formalaşmasına töhfə verən COP tədbirləri ölkələrin iqlim dəyişikliyi ilə mübarizə məqsədilə öhdəliklər götürməsi və strategiyalar müəyyən etməsi üçün bir platforma yaradır. Burada ölkələr karbon emissiyalarını azaltmaq və qlobal istiləşmə ilə mübarizə üçün konkret addımlar atırlar. Məsələn, Paris Sazişi 2015-ci ildə keçirilən COP21 zamanı qəbul edilmişdir.

COP tədbirləri elmi tədqiqatları və məlumatları siyasətçilərin qərarlarına təsir edəcək şəkildə təqdimetmə imkanı da yaradır. Bu, iqlim dəyişikliyi mövzusunda qlobal səviyyədə daha dəqiq və təsirli qərarlar qəbul olunmasına kömək edir.

İnkişaf etməkdə olan ölkələrin dəstəklənməsində də COP tədbirlərinin rolu çox böyükdür. Tədbirlər çərçivəsində zəngin və sənayeləşmiş ölkələr inkişaf etməkdə olan ölkələrə texnologiya və maliyyə yardımı ilə bağlı üzərlərinə müəyyən öhdəliklər götürürlər ki, bu da onların iqlim dəyişikliyinə qarşı adaptasiya olmalarına və dayanıqlı inkişaf strategiyalarını tətbiq etmələrinə yardım göstərir.

COP dünya ölkələrinin qlobal iqlim böhranı qarşısında bir-biri ilə əməkdaşlıq etməsinə, kollektiv səylərin gücləndirilməsinə meydan açır. Bəşəriyyətin gələcəyinə görə məsuliyyət hissi keçirən hər kəsə məlumdur ki, ətraf mühit və dayanıqlı inkişaf problemləri yalnız milli səviyyədə həll edilə bilməz, buna görə də qlobal səviyyədə əməkdaşlıq həyati əhəmiyyət daşıyır.

## COP29-un Azərbaycana faydaları

COP ona evsahibliyi edən ölkələrə çəkilən zəhmət qarşılığında  böyük üstünlüklər qazandırır. Bu baxımdan belə bir qlobal miqyaslı tədbirə evsahibliyi etmək iqlim dəyişiklikləri ilə mübarizədə Azərbaycanın mövqeyinin güclənməsinə xidmət edəcək. COP29-un ən mühüm faydalarından biri də Azərbaycanın beynəlxalq səviyyədə daha yaxşı tanınaraq mövqeyinin güclənməsi olacaq. COP dünya ölkələrinin, beynəlxalq təşkilatların, eləcə də qeyri-hökumət təşkilatlarının geniş iştirakı ilə keçirilir. Azərbaycan bu tədbirə evsahibliyi etməklə qlobal iqlim müzakirələrində önəmli bir oyunçu kimi özünü uğurla təqdim edərək mövqeyini beynəlxalq səviyyədə daha da gücləndirəcək. Bunlardan savayı, məlumdur ki, belə bir böyük tədbir zamanı çox sayda dövlət və hökumət başçıları, eləcə də beynəlxalq təşkilatların nümayəndələri Azərbaycana səfər edəcəklər. Bu da ölkənin diplomatik əlaqələrinin möhkəmləndirilməsi və iqtisadi əməkdaşlıq sahələrinin genişləndirilməsi üçün yeni fürsətlər yaradacaq.

COP29 tədbirinə evsahibliyi etməsi Azərbaycanın iqlim dəyişiklikləri ilə mübarizə sahəsində öz milli strategiyalarını və siyasətlərini yenidən nəzərdən keçirməsi və təkmilləşdirməsi üçün də yeni bir imkandır. Bu tədbir həmçinin bərpaolunan enerji mənbələrinin genişləndirilməsi, karbon emissiyalarının azaldılması və ekoloji təşəbbüslərin artırılması sahəsində ölkənin fəaliyyətini stimullaşdıracaq. Eyni zamanda COP29 Azərbaycana iqlim dəyişikliyi ilə mübarizə sahəsində üzərinə götürdüyü öhdəlikləri daha effektiv şəkildə yerinə yetirmək üçün beynəlxalq dəstək və təcrübə qazandıracaq. Ev sahibi statusu bu öhdəliklərin icrasını sürətləndirəcək və ölkənin qlobal iqlim hədəflərinə çatmasına kömək göstərəcək.

İnvestisiya və infrastruktur inkişafı baxımından da COP-un faydaları çoxdur. COP bərpaolunan enerji, ekoloji infrastruktur və dayanıqlı inkişaf layihələrinə beynəlxalq investorların diqqətini cəlb edir. Bu, Azərbaycanda "yaşıl texnologiya"ların tətbiqini və dayanıqlı iqtisadiyyatın inkişafını sürətləndirəcək. Belə böyük tədbirə evsahibliyi Azərbaycanda infrastrukturun daha da modernləşdirilməsinə, logistika və turizm sektoruna da mühüm töhfələr verəcək. Bu isə uzunmüddətli perspektivdə ölkənin infrastrukturunun daha da təkmilləşdirilməsinə şərait yaradacaq, qlobal miqyasda turistlərin diqqətini çəkməyə kömək edəcək.

COP tədbirləri zamanı inkişaf etmiş ölkələr iqlim dəyişikliyi ilə mübarizə sahəsində texnologiya və innovasiyaları paylaşırlar. Azərbaycan bu tədbirdə ev sahibi kimi həmin yeni texnologiyalardan faydalanacaq və iqlim dəyişikliklərinə adaptasiya üçün yeni həll yolları tətbiq edəcək. Bu tədbir Azərbaycanın ali təhsil müəssisələri və tədqiqat mərkəzlərinin beynəlxalq iqlim tədqiqatlarına daha geniş çıxışını təmin edəcək ki, nəticədə yeni əlaqələr qurulacaq və tədqiqatlar aparılacaq.

COP29 zamanı minlərlə xarici qonaq və iştirakçı Azərbaycana səfər edəcək. Bu isə ölkəmizin turizm potensialını daha da genişləndirəcək, Azərbaycanın mədəni irsinin qlobal auditoriyaya tanıdılmasına töhfə verəcək, ölkə iqtisadiyyatına turizm gəlirlərini artırmaqda dəstək olacaq. Tədbirdə iştirak üçün Azərbaycana gələn qonaqlar ölkəmizin zəngin mədəniyyəti, tarixi və qonaqpərvərliyi ilə tanış ola biləcək və bu, milli mədəniyyətimizi qlobal səviyyədə nümayiş etdirmək üçün daha bir əhəmiyyətli fürsətə çevriləcək.

İctimaiyyətin iqlim məsələlərinə daha çox cəlb olunması, ölkə daxilində iqlim dəyişiklikləri, ətraf mühitin qorunması və dayanıqlı inkişaf məsələlərinə dair ictimai şüurun və maarifləndirmənin artması baxımından da COP çox mühüm tədbirdir. Nəticə etibarilə COP29 tədbirinə evsahibliyi Azərbaycana həm ekoloji, həm iqtisadi, həm də diplomatik sahələrdə geniş imkanlar yaradacaq. Bu, Azərbaycan  Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən dayanıqlı inkişaf siyasətinə əlavə  təkan verəcək.

***İradə ƏLİYEVA,***
***"Azərbaycan"***

# COP29 çərçivəsində "Bakı Harmoniya İqlim Təşəbbüsü" təqdim ediləcək



**Kənd Təsərrüfatı Nazirliyi və Aqrar Sahə İşçilərinin Həmkarlar İttifaqı Birliyinin birgə təşkilatçılığı, nazirliyin rəhbər şəxslərinin iştirakı ilə "Town Hall" formatında tədbir keçirilib. Tədbirdə aqrar sahədə görülən işlər və nəzərdə tutulan layihələr müzakirə edilib, aqrar sahənin aktual mövzularına dair təqdimatlar olub.**

Nazirliyin İctimaiyyətlə əlaqələr və informasiya təminatı şöbəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə "Fermer Təsərrüfatlarının Dayanıqlı Məlumat Şəbəkəsi", "Aqrar sahədə süni intellekt", "Taxıl yığımının izlənilməsi sistemi" kimi innovativ layihələr, o cümlədən işğaldan azad edilmiş ərazilərdə torpaqdan istifadə qaydaları, Ağalı kəndində pilot layihə kimi icra olunan yeni parselləmə modeli ilə bağlı təqdimatlar keçirilib, bu istiqamətdə fikir mübadiləsi aparılıb.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) barədə təqdimatda qeyd olunub ki, COP29 çərçivəsində noyabrın 19-da keçiriləcək Qida, Kənd Təsərrüfatı və Su Günündə də iqlim dəyişikliyi və iqlimə uyğun kənd təsərrüfatı mövzusuna xüsusi toxunulacaq, 14 qlobal təşəbbüsdən biri olan, kənd təsərrüfatı, ətraf mühit və iqlim məsələlərini özündə ehtiva edən "Bakı Harmoniya İqlim Təşəbbüsü" təqdim ediləcək.

Daha sonra "İşğaldan azad edilmiş ərazilərdə aqrar siyasətin tətbiqi və strukturlaşma" mövzusunda qrup çalışması həyata keçirilib. Qrup çalışmasında Kənd Təsərrüfatı Nazirliyinin və tabeli qurumların rəhbər şəxsləri, Aqrar Sahə İşçilərinin Həmkarlar İttifaqı Birliyinin təmsilçilərinin iştirakı ilə komanda şəklində işğaldan azad edilmiş ərazilərdə aqrar potensialın, zəruri infrastrukturun qurulması, istehsal və emalın təşkili, bu sektorda elmtutumlu, innovativ, yeni nəsil texnologiyaların tətbiqi istiqamətləri müzakirə olunub. Fəal interaktiv formatda keçən tədbirdə komanda üzvləri təklifləri ümumiləşdirərək müzakirəyə təqdim ediblər.

Kənd təsərrüfatı naziri Məcnun Məmmədov belə formatda görüşlərin mütəmadi keçirilməsini dəstəklədiyini, nazirliyin müxtəlif qurumlarının daha da koordinasiyalı çalışmasını, fermeryönümlü fəaliyyətin, vətəndaş müraciətlərinin diqqətdə saxlanmasını bir daha tədbir iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, hazırda Prezident İlham Əliyevin rəhbərliyi altında işğaldan azad edilən ərazilərin bərpası, zəruri infrastrukturun yaradılması və əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində genişmiqyaslı tədbirlər uğurla həyata keçilir. Nazir əlavə edib ki, Azərbaycanın aqrar sektorunda mühüm paya malik olacaq Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında əkin üçün istifadəyə yararlı torpaqlarda zəruri infrastrukturun yaradılması, aqrar fəaliyyətin bərpası və inkişafı üçün Kənd Təsərrüfatı Nazirliyinin bütün kollektivi üzərinə düşən məsuliyyəti anlamalı, ölkəmizin hərtərəfli tərəqqisi üçün əzmlə çalışmalıdır.

Tədbirin sonunda mövzular ətrafında fikir mübadiləsi aparılıb, məruzəçilər tədbir iştirakçılarını maraqlandıran sualları cavablandırıblar.

# *Moldovalı diplomat:* "COP29 qlobal iqlim gündəliyi üzrə yeni zirvələrin fəth edilməsində Azərbaycanın nailiyyətlərinin təsdiqidir"

**"BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) qlobal miqyaslı tədbirdir. Konfransın bu il Bakıda təşkil olunması göstərir ki, Azərbaycan iqlim tarazlığının qorunması üzrə qlobal gündəliyin inkişafında böyük zirvələr fəth edib".**



Bu barədə AZƏRTAC-a Moldovanın Ukraynadakı səfiri Valeriu Kiver bildirib.

Moldovalı diplomat deyib: "Bu il bir çox dövlət rəhbərinin və əksər ölkələrin ətraf mühit nazirlərinin Bakıda toplaşaraq bu məsələni müzakirə etməsi Azərbaycanın qlobal səviyyədə qazandığı nüfuzu bir daha sübut edir. Əminəm ki, ölkə rəhbərliyinin və hökumətinin gördüyü tədbirlər sayəsində bu tədbir uğurla keçəcək".

V.Kiver qeyd edib ki, Azərbaycan bu mötəbər tədbirdə bütün dünyaya ölkənin doğru yolda inkişaf etdiyini göstərəcək. "Azərbaycanda ətraf mühitin mühafizəsi və bu sahədə tədbirlərin həyata keçirilməsi siyasəti fəal surətdə aparılır. Bu, dünyada iqlim tarazlığının qorunması sahəsində başqa dövlətlərə yaxşı örnək olacaq", - deyə Moldovanın Ukraynadakı səfiri sözlərinə yekun vurub.




# COP29 dayanıqlı şəhərsalma və ekoloji çağırışları aktuallaşdırır

## AzMİU tələbələrinin təşəbbüsü ilə 5 günlük forum öz işinə başladı

**Oktyabrın 21-də Azərbaycan Memarlıq və İnşaat Universitetində (AzMİU) "COP29: Dayanıqlı şəhərsalma və ekoloji çağırışlar" forumu öz işinə başlayıb.**





5 gün davam edəcək forum çərçivəsində "İkinci həyat - dizaynerlərin gözü ilə" adlı tullantılardan hazırlanmış maketlərin sərgisi, rəsm müsabiqəsi, panel müzakirələr, vörkşoplar, təmizlik və ağacəkmə aksiyaları təşkil olunacaq.

Forumun açılış mərasimində AzMİU-nun rektoru professor Gülçöhrə Məmmədova, ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev, COP29 Təşkilat Komitəsinin üzvü, deputat Sevinc Fətəliyeva və Xarici İşlər Nazirliyinin idarə rəisinin müavini, COP29 sədrliyinin Fəaliyyət Gündəliyi komandasının həmrəhbəri Jalə İbrahimova iştirak ediblər.

İlk olaraq forum iştirakçıları universitetdə açılan "İkinci həyat - dizaynerlərin gözü ilə" adlı sərgiyə baxış keçiriblər. Tələbələrin tullantı materiallarından hazırladıqları maketlər, innovativ yanaşmaları və ekoloji problemlərə diqqəti artırmaq məqsədilə yaradılan dizaynları iştirakçılar tərəfindən yüksək qiymətləndirilib. Dizayn fakültəsi tələbələrinin bu yaradıcı işləri ətraf mühitin qorunması və tullantıların yenidən istifadəsi mövzusunda cəmiyyətin maarifləndirilməsi baxımından əhəmiyyətli bir addım olub.

Sonra forumun rəsmi açılış mərasimi baş tutub. Açılış mərasimində çıxış edən rektor professor Gülçöhrə Məmmədova bildirib ki, bu gün universitetdə keçirilən forum Azərbaycanın evsahibliyi edəcəyi COP29 tədbirinə hazırlıq dönəmində öz töhfələrini verə biləcək. O qeyd edib ki, tədbir universitetin tələbələrinin təşəbbüsü ilə keçirilir: "COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin beynəlxalq arenada artan nüfuzunun göstəricisidir. Biz inanırıq ki, bu tədbir ən yüksək səviyyədə keçiriləcək. Forumda tələbələr öz layihələri, əl işləri ilə COP ideyalarını yaymağa, eyni zamanda iqlim dəyişikliyi ilə mübarizədə öz töhfələrini verməyə çalışırlar. Ümid edirəm ki, tələbələrimiz bu ideyaları daim rəhbər tutacaqlar".

Rektor həmçinin vurğulayıb ki, universitetin məzunları olan inşaatçılar, memarlar, şəhərsalma mütəxəssisləri ekologiya, iqlim dəyişmələri mövzusu ilə sıx bağlıdırlar və onların tələbəlik illərindən bu mövzunu başa düşməsi, dərk etməsi, öz rollarını bu qlobal problemin həllində görməsi böyük əhəmiyyət kəsb edir. Bugünkü tədbir məhz bu aktual məsələyə həsr edilib.

Ekologiya və təbii sərvətlər nazirinin müavini Rauf Hacıyev forumda çıxışı zamanı Azərbaycanda quraqlıqların artması səbəbi ilə su ehtiyatlarının 15 faiz azaldığına diqqət çəkib. Bunun nəticəsində Xəzər dənizinin texnogen və antropogen təsirlərə məruz qalaraq sahilyanı ekosistemə ciddi ziyan dəydiyini bildirib.

Nazir müavini qeyd edib ki, dövlət səviyyəsində bu problemlərin həlli istiqamətində ciddi işlər aparılır: "COP29 bu baxımdan ölkəmiz üçün böyük irəliləyişlər gətirəcək. Mən inanıram ki, bu gün AzMİU-da keçirilən forum iqlim dəyişikliyi ilə bağlı məsələlərə öz töhfəsini verəcəkdir".

Milli Məclisin deputatı Sevinc Fətəliyeva və Xarici İşlər Nazirliyinin idarə rəisinin müavini, COP29 sədrliyinin Fəaliyyət Gündəliyi komandasının həmrəhbəri Jalə İbrahimova mötəbər tədbirə hazırlıq prosesi barədə geniş məlumat veriblər. Onlar COP29-un iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq əməkdaşlığın vacibliyini vurğulayıb, Azərbaycanın bu prosesdəki rolunu və töhfələrini qeyd ediblər. Tədbirə hazırlıq mərhələsində görülən işləri və qarşıda duran vəzifələri şərh ediblər. Onların sözlərinə görə, COP29 Azərbaycan üçün beynəlxalq aləmdə iqlim dəyişikliyi sahəsində yeni əməkdaşlıq imkanları yaradacaq və ölkənin bu qlobal problemə qarşı səylərini daha da gücləndirəcək.

BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində təşkil olunan forumun ilk günü "Müasir şəhərsalmada dayanıqlılıq amilləri", "Enerjidən qeyri-səmərəli istifadə iqlim dəyişikliklərinin səbəbi kimi" və "Su ehtiyatlarından istifadə və ekoloji dayanıqlılıq problemləri" mövzuları ətrafında panel müzakirələr təşkil olunub.

İkinci gün tullantılardan istifadə etməklə maket hazırlığı, dibçəklər üzərində dayanıqlı inkişaf məqsədlərinə həsr olunmuş rəsmlər, davamlı şəhər inkişafı barədə tələbələrin təklifləri, yeni layihə ideyalarının müzakirəsi və fikir mübadiləsi həyata keçiriləcək.

Forumun üçüncü və dördüncü günlərində təmizlik və ağacəkmə aksiyaları təşkil olunacaq. Sonuncu gün isə forumun bağlanış mərasimi keçiriləcək və fərqlənən iştirakçılar Təşkilat Komitəsi tərəfindən mükafatlandırılacaq.

Qeyd edək ki, Birləşmiş Millətlər Təşkilatının (BMT) İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransı (COP) hər il keçirilir və sədrlik BMT-nin beş regionu arasında rotasiya olunur.

Azərbaycan Tərəflər Konfransının bu ilin noyabrında Bakıda keçiriləcək 29-cu sessiyasına (COP29) sədrlik edəcək. Tədbirin keçiriləcəyi məkan olaraq Bakı Olimpiya Stadionu seçilib.

Prosesi şəffaf, qərəzsiz və inklüziv şəkildə aparmaq məqsədilə COP29 sədrliyi ambisiyaların artırılması və fəaliyyətə təkan vermək üçün ölkəmizdə, o cümlədən AzMİU-da silsilə seminarlar, forumlar və bu kimi müxtəlif tədbirlər həyata keçirir.

*Ülkər XASPOLADOVA,*
*İlham BABAYEV (foto),*
*"Azərbaycan"*










# COP29 konfransı əməkdaşlarının geyim forması müəyyən edilib

**Bu il noyabrın 11-22-də Bakıda keçiriləcək Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) müddətində işə cəlb ediləcək 10 min nəfərdən artıq əməkdaşın istifadə edəcəyi uniforma geyimləri ictimaiyyətə açıqlanıb.**




AZƏRTAC xəbər verir ki, bu barədə COP29 Azərbaycan Əməliyyat Şirkətinin (ƏŞ) mətbuat ofisindən məlumat verilib.

Bildirilib ki, COP29-un korporativ rəng və üslubuna uyğun hazırlanmış bu geyim formaları konfrans çərçivəsində müvafiq əməliyyatların təşkilində və icrasında iştirak edəcək heyət üzvləri arasında bərabərliyi, komanda ruhunu və ekoloji məsuliyyəti vurğulamaq məqsədilə vahid stildə işlənib. İşçilərin rahatlığını və funksionallığını təmin etmək üçün xüsusi olaraq dizayn edilən uniforma dəstlərinə uzunqol və qısaqol polo köynəklər, şalvarlar, kepkalar, hudi jiletlər, bel və çiyin çantaları daxildir.

COP29 iqlim konfransının formatına uyğun olaraq, uniforma komplektlərinə daxil olan elementlərdə dayanıqlılıq prinsipi əsas götürülüb. Bu elementlər ekoloji cəhətdən təmiz və təkrar emal edilə bilən materiallardan hazırlanıb ki, bu da COP29-un iqlim dəyişmələri ilə mübarizə üzrə öhdəliyini əks etdirir. Bundan əlavə, COP29 tədbir əməliyyatlarının xalis sıfır emissiya prinsipinə müvafiq olaraq uniformalar yerli tərəfdaş tərəfindən təmin olunub.

# COP29 beynəlxalq münasibətlərin inkişafı prosesində

**Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında (DİA) "COP29 beynəlxalq münasibətlərin inkişafı prosesində" mövzusunda beynəlxalq elmi konfrans keçirilib.**






DİA-dan AZƏRTAC-a bildirilib ki, konfransda çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru akademik Urxan Ələkbərov bu gün yeni çağırışların, xüsusilə iqlim dəyişikliklərinin qlobal xarakter aldığını bildirib.

"Azərbaycan Respublikası beynəlxalq ictimaiyyətin etibarlı və məsuliyyətli üzvü kimi iqlim dəyişmələrinin fəsadlarına qarşı mübarizəyə daim töhfə verir. Ölkəmizdə ətraf mühitin qorunması, yaşıllıqların bərpası, artırılması, təbii ehtiyatlardan, o cümlədən su ehtiyatlarından və bərpaolunan enerji mənbələrindən səmərəli istifadə imkanlarının genişləndirilməsi istiqamətində mühüm işlər görülür" deyən rektor belə bir konfransın keçirilməsinin çox vacib olduğunu vurğulayıb. O, Azərbaycanda 2024-cü ilin "Yaşıl dünya naminə həmrəylik ili" elan edilməsini ölkəmizdə ətraf mühitin mühafizəsi sahəsində aparılan dövlət siyasətinin tərkib hissəsi olduğunu diqqətə çatdırıb. Urxan Ələkbərov dünyanın ən mötəbər tədbirlərindən biri olan COP29-un ölkəmizdə keçirilməsinin siyasi və digər istiqamətlərlə yanaşı, Azərbaycanın iqtisadi və turizm cəhətdən də inkişafına töhfə verəcəyinə əminliyini vurğulayıb.

Sonra DİA-nın Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının müdiri professor Namiq Əliyev COP29 tədbirindən söz açıb. O, həmçinin işğal dövründə ermənilər tərəfindən Azərbaycan ərazilərində beynəlxalq ekologiya hüququnun pozulduğu barədə məlumat verib.

Elmi konfransın birinci hissəsində Bolqarıstanın VUSİ (Plovdiv) Universitetinin Qara dəniz və Xəzər regionu problemlərinin araşdırılması laboratoriyasının müdiri Teodor Deçev, İsrailin "Aziznews.com" informasiya-analitik portalının redaktoru politoloq Yuri Boçarov, Qırğızıstanın Azərbaycandakı sabiq səfiri professor Kayrat Osmonaliyev, Suxumi Dövlət Universitetinin (Gürcüstan) dosenti Quram Marxulia, READ DİBMİ informasiya təhlükəsizliyi problemləri qrupunun aparıcı elmi işçisi Viktor Mizin, "Şərq-Qərb" Beynəlxalq geosiyasi proqnozlaşdırma mərkəzinin (Qırğızıstan) prezidenti professor Karlıqaş Jandildina Nuqmanova, həmçinin DİA-nın professor və müəllimləri çıxış ediblər.

Konfransın ikinci hissəsində DİA-nın Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının doktorantları və magistrantları çıxış ediblər. Daha sonra konfrans iştirakçılarına sertifikatlar təqdim olunub. Tədbir DİA-nın Beynəlxalq münasibətlər və xarici siyasət kafedrasının təşkilatçılığı ilə keçirilib.

# Bölgə sakinləri ağacəkmə aksiyasına qoşulublar







**Samux**

Rayonda "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində ağacəkmə aksiyaları davam etdirilir.

Növbəti ağacəkmə aksiyası Ziyadlı kəndinin inzibati ərazisində, Samux-Kür yolunun kənarında təşkil olunub. Yolun kənarına yerli iqlim şəraitinə uyğun şam, çinar və sərv ağacları əkilib.

Aksiya çərçivəsində əvvəl əkilmiş ağaclara aqrotexniki qulluq göstərilib və suvarılması təmin edilib.

Qeyd edək ki, son iki gündə Samux rayonunda 4 mindən çox ting əkilib.

Aksiyanın oktyabr ayının sonunadək davam etdirilməsi nəzərdə tutulur. Rayon ərazisində mövsüm ərzində 20 hektar ərazidə 12 minədək şam, çinar və sərv ağaclarının əkilməsi planlaşdırılır.

**Naftalan**

Ölkənin bütün şəhər və rayonlarında olduğu kimi, Naftalanda da "Yaşıl dünya naminə həmrəylik ili"nə həsr olunmuş silsilə tədbirlər davam edir.

Şəhərdə bu gün növbəti ağacəkmə aksiyası keçirilib. Şəhərin Şirvan prospektində 420 ədəd müxtəlif növ ağac əkilib. Bununla da oktyabr ayında şəhərin müxtəlif ərazilərində keçirilən ağacəkmə aksiyalarında əkilən ağac sayı 670-ə çatıb.

Qeyd edək ki, "Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində payız mövsümündə şəhər ərazisində yaşıllıqların artırılması məqsədilə 2520 ağacın əkilməsi, həmçinin yaşıllıqlara qulluq və abadlıqla bağlı tədbirlərin davam etdirilməsi nəzərdə tutulur.

**Tərtər**

"Yaşıl dünya naminə həmrəylik ili" çərçivəsində Tərtər rayonunda növbəti ağacəkmə aksiyası keçirilib.

Aksiya zamanı Bərdə-Ağdam magistral avtomobil yolunun Poladlı kəndi ərazisindən keçən hissəsində təmizlik işləri aparılıb, 200 ədəd Eldar şamı əkilib. Yeni əkilən ağaclar suvarılıb, onlara aqrotexniki qaydada qulluq göstərilib.

On gün ərzində Bərdə-Ağdam magistral avtomobil yolunun kənarlarına ümumilikdə 11 min ədəd müxtəlif növ ağacın əkilməsi nəzərdə tutulur.

*AZƏRTAC*

# *Montu SAKSENA:* "Bakı COP29-a evsahibliyi etmək üçün bütün imkanlara malikdir"

**Kembric Universitetinin Mərkəzi Asiya Forumunun direktoru, COP29 Elm Şurasının üzvü professor Montu Saksena Bakı şəhərinin COP29-a evsahibliyi etmək üçün doğru seçim olduğunu bildirib.**



Universitetdə COP29-un elmi-praktik aspektlərinə həsr olunmuş panel müzakirəsindən sonra AZƏRTAC-a açıqlama verən Saksena Azərbaycanla 30 ildən artıq müddət ərzində müxtəlif sahələrdə əməkdaşlıq etdiklərini vurğulayıb: "Biz sizin qonaqpərvərliyinizə çox yaxından bələdik. Azərbaycan yüksək infrastruktura malik olduğu üçün böyük tədbirlərə evsahibliyi etməkdə təcrübəyə malikdir. Sizin "Formula-1" yarışı və "Avroviziya" kimi beynəlxalq tədbirə evsahibliyi etməyiniz bunun bariz nümunəsidir".

Montu Saksena Bakının COP kimi böyük bir tədbirə evsahibliyi etməsi üçün bütün imkanlara malik olduğunu söyləyib: "Əminik ki, Bakı kimi bir şəhər bu istiqamətdə dəyişikliklərə rəhbərlik edəcək. Bu seçimin çox doğru olduğuna inanırıq. Kembricdə keçirilən panel müzakirəsində diqqətçəkən məqamlardan biri də Azərbaycanın yerləşdiyi çətin qonşuluq mühitidir. Qlobal böhranların baş verdiyi bir dövrdə Azərbaycan cəsarətli bir addım ataraq dünya problemlərini həll etmək üçün liderləri bir araya gətirməyi seçib. Bu problemlər tək bir ölkənin və ya qrupun həll edə biləcəyi məsələlərdən daha çox genişdir. Kembricdə biz bu cəsarətli addımı qeyd edir və ən yaxşı mütəxəssislərin bu işə maraq göstərməsini təşviq etməyə çalışırıq", - deyə Montu Saksena əlavə edib.

# BMT-nin İnsan Hüquqları Komitəsinin iclasında BTQ-nin icraçı direktoru Abbas Abbasov bəyanatla çıxış edib

**BMT-nin Cenevrə ofisində təşkilatın İnsan Hüquqları Komitəsinin (İHK) 142-ci sessiyası davam edir.**

AZƏRTAC xəbər verir ki, sessiya çərçivəsində bir sıra ölkələrin, habelə Fransanın Mülki və siyasi hüquqlar haqqında Beynəlxalq Paktın icrası ilə əlaqədar ölkə hesabatı dinləniləcək.

Qeyd edək ki, pakta əsasən sənədə qoşulmuş ölkələr BMT Nizamnaməsinə uyğun olaraq faktiki müstəmləkə altında saxladıqları ərazilərdə yaşayan xalqların öz müqəddəratını təyinetmə hüququnun həyata keçirilməsini təşviq etməli və bu hüquqa hörmətlə yanaşmalıdırlar.

Məlum olduğu kimi, hazırda iyrənc kolonializm və neokolonializm siyasəti yürüdən dövlətlərin başında Fransa gedir.

Xatırladaq ki, Bakı Təşəbbüs Qrupu (BTQ) BMT-nin İnsan Hüquqları Komitəsinə Fransanın kolonial siyasətini ifşa edən alternativ hesabat təqdim edib. Həmin hesabat BMT-nin İnsan Hüquqları Komitəsinin rəsmi saytında dərc edilib. https://tbinternet.ohchr.org/_layouts/15/treatybodyexternal/SessionDetails1.aspx?SessionID=2737&Lang=en.

Fransanın milli hesabatından bir gün öncə, oktyabrın 21-də İnsan Hüquqları



Komitəsində maraqlı tərəflər üçün iclas keçirilib. İclasda Bakı Təşəbbüs Qrupu və təşkilatın xətti ilə Yeni Kaledoniya və Fransız Polineziyasının nümayəndə heyəti iştirak edib. BTQ-nin icraçı direktoru Abbas Abbasov komitədə bəyanat səsləndirib.

Bəyanatda A.Abbasov Yeni Kaledoniyada Fransa tərəfindən keçirilmiş qeyri-qanuni referendumu qınayıb, Fransanın burada zorla seçki məcəlləsinə konstitusional dəyişiklik etmək istəyini pisləyib. Kanak xalqının etirazına səbəb olmuş Fransanın bu addımı nəticəsində Yeni Kaledoniyada 10-dan çox adamın həlak olduğunu, 400-ə yaxın insanın yaralandığını vurğulayıb.

Bundan əlavə, A.Abbasov Fransanın Polineziyada keçirdiyi nüvə sınaqlarına görə yerli xalqın sağlamlığına ciddi ziyan dəydiyini diqqətə çatdırıb. Fransız Polineziyası xalqının müstəqillik arzusunda olduğu, Fransanın buna müqavimətinin BMT-nin 67/265 nömrəli qətnaməsinin icrasına maneçilik törətdiyi bildirilib.

A.Abbasov Fransanın əsarəti altında olan digər ərazilərdəki tarixi ədalətsizlik, iqtisadi çətinliklər və suverenliyin çatışmazlığı barədə də söhbət açıb.

O, həmçinin Azərbaycanın Qoşulmama Hərəkatının sədri və hazırda "Troyka" üzvü kimi kolonializmə qarşı mübarizə sahəsində beynəlxalq platformalarda apardığı iş haqqında ətraflı məlumat verib.

A.Abbasov Yeni Kaledoniyada BMT-nin nəzarəti altında yeni referendumun keçirilməsinə, Fransanın bu ölkədən hərbi qüvvələrini çıxartmağa və BMT-nin Xüsusi Dekolonizasiya Komitəsi tərəfindən buradakı vəziyyəti qiymətləndirməyə çağırış edib.

O, eyni zamanda nüvə sınaqlarına görə Fransız Polineziyasına Fransa tərəfindən kompensasiyanın ödənilməsini tələb edib, Yeni Kaledoniya və Fransız Polineziyası xalqlarının öz müqəddəratını təyinetmə hüququnu tanımağa çağırış edib. BMT-nin bu prosesə nəzarət etməsinin labüdlüyünü vurğulayıb.

# Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri BMT Baş katibinin müavini ilə görüşüb

**Cenevrədə səfərdə olan Azərbaycan nümayəndə heyətinin rəhbəri, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova oktyabrın 21-də BMT Baş katibinin müavini və BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molcean ilə görüşüb.**




AZƏRTAC xəbər verir ki, görüşdə T.Molcean UNECE-nin və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Gücləndirilməsi üzrə Agentliyinin (UN Women) birgə təşkilatçılığı ilə keçirilən "Pekin+30" Regional Baxış Görüşündə Azərbaycan nümayəndə heyətinin iştirakından məmnunluğunu bildirərək, bunun fəal əməkdaşlığın göstəricisi olduğunu qeyd edib.

Ötən il SPECA-nın Zirvə görüşü ilə əlaqədar ölkəmizə səfər etdiyini və bu ilin noyabrında Bakıda keçiriləcək COP29-da iştirak edəcəyini vurğulayan T.Molcean Azərbaycanın gender bərabərliyinə nail olunması, o cümlədən "Pekin+30" öhdəliyi üzrə mühüm uğurlar qazandığını, vacib islahatlar həyata keçirdiyini bildirib. O, qarşıdakı dövrdə əməkdaşlıq üçün yeni sahələrin müəyyənləşdirilməsi və əlaqələrin daha da dərinləşdirilməsi üçün təcrübə mübadiləsinin vacib rol oynadığını vurğulayıb, bu baxımdan belə görüşlərin önəmini qeyd edib.

Dünyada gender bərabərliyinin, insan hüquqlarının yalnız təhlükəsizlik və sülh şəraitində mümkün olduğunu vurğulayan B.Muradova Azərbaycanın Ermənistanın işğalına məruz qaldığı otuz il ərzində yüz minlərlə vətəndaşımızın, o cümlədən qadınların hüquqlarının pozulduğunu qeyd edib. Təəssüf hissi ilə bildirilib ki, hazırda dünyada artan gərginliklər, müharibə və münaqişələr fonunda insan hüquqları, o cümlədən gender bərabərliyi ciddi təhdidlə üzləşib, milyonlarla insan ağır çətinliklər qarşısında qalıb. Hədəflərə çatmaq üçün bu təhdidlərə qarşı konkret mövqenin ortaya qoyulmasının önəmini vurğulayan B.Muradova bildirib ki, hazırda dünyada davam edən münaqişələrin qarşısının alınması üçün BMT fəal tənzimləyici rol oynamalıdır.

Komitə sədri qeyd edib ki, Ermənistan-Azərbaycan münaqişəsinin başa çatmasına baxmayaraq, mina hadisələri nəticəsində hələ də mülki insanlar həlak olur və ya yaralanırlar. Bir neçə onilliklər ərzində davam edəcəyi ehtimal olunan minatəmizləmə əməliyyatlarını Azərbaycan heç bir yardım almadan təkbaşına həyata keçirir.

Azərbaycanın CEDAW tövsiyələri, eləcə də Pekin Bəyannaməsinin 12 kritik sahəsi üzrə mühüm uğurlar qazandığını və yaxşı təcrübələrinin olduğunu deyən nümayəndə heyətinin rəhbəri işğaldan azad olunan ərazilərdə "ağıllı şəhər" və "ağıllı kənd"lərin yaradıldığını xatırladıb. Qeyd edib ki, insanların qabaqcıl biliklərə yiyələnməsini tələb edən Azərbaycan bu sahədə BMT-nin aidiyyəti qurumları ilə fəal əməkdaşlıq edə bilər.

BMT Baş katibinin müavini münaqişələrin insanlara, xüsusən qadınların həyatına daha çox təsir göstərdiyini deyərək, hazırda yeni əməkdaşlıq sahələrinin müəyyənləşdirilməsi istiqamətində fəal iş aparıldığını, Azərbaycan ilə təcrübə mübadiləsinin bu baxımdan maraqlı olduğunu ifadə edib.

Münaqişələrin qarşısının alınmasında qadınların təşəbbüslərinin rolunu xüsusi qeyd edən T.Molcean Pekin Platformasının da imkanlarından istifadə edilərək ticarət və standartlar sahəsinə gender bərabərliyi elementinin daxil olunması, rəqəmsallaşma, "ağıllı" istifadəçilər üçün təlimlərin təşkili, tədqiqatlar, innovasiyalar sahələrində müvafiq qanunvericilik təşəbbüslərində, qərar və qanunların hazırlanması prosesində qadınların fəal iştirakı, dayanıqlı inkişafın mühüm elementlərindən olan təhsil sahəsində yeni təşəbbüslər və əməkdaşlıq sahələrinin hazırlanması istiqamətində görülən işlərdən danışıb.

Dayanıqlı inkişafın əsas elementləri olan ətraf mühit, iqtisadiyyat və sosial sahələrdə görülən işlərdə Azərbaycanın da iştirakının önəmini qeyd edən BMT Baş katibinin müavini ölkəmizin qazandığı uğurlardan məmnunluğunu ifadə edib, bir sıra öhdəliklərin icrasında qlobal və regional səviyyədə dəstək verməyə hazır olduqlarını vurğulayıb. O, həmçinin UNECE-nin Azərbaycanda keçmiş məcburi köçkünlərə müvafiq sahələrdə dəstək göstərməyə hazır olduğunu da diqqətə çatdırıb.

Əməkdaşlığın genişləndirilməsinə dair təkliflərə görə minnətdarlığını bildirən B.Muradova Azərbaycanın BMT-nin bütün qurumları ilə əməkdaşlıqda maraqlı olduğunu ifadə edib.

Görüşün sonunda T.Molceana azərbaycanlı qadınların əl işlərindən ibarət xatirə hədiyyələri təqdim olunub.

# Cenevrədə "Hökumətin rəqəmsal transformasiyası vasitəsilə kənd qadınlarının iqtisadi səlahiyyətlərinin artırılması" mövzusunda tədbir keçirilib

**Oktyabrın 21-də İsveçrənin Cenevrə şəhərində BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Gücləndirilməsi üzrə Agentliyinin (UN Women) birgə təşkilatçılığı ilə "Avropa İqtisadi Komissiyası regionunda gender bərabərliyinin sürətləndirilməsi üçün Pekin öhdəliklərinin 30 ilinə nəzər salınması" mövzusunda beynəlxalq konfrans işə başlayıb.**




AZƏRTAC xəbər verir ki, ikigünlük konfransda Azərbaycanı Ailə, Qadın, və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın rəhbərliyi ilə nümayəndə heyəti təmsil edir.

Konfrans çərçivəsində əvvəlcə "15 oktyabr - Beynəlxalq Kənd Qadınları Günü və "Pekin+30" regional baxış görüşü çərçivəsində Azərbaycanın daimi nümayəndəliyinin təşkilatçılığı ilə "Hökumətin rəqəmsal transformasiyası vasitəsilə kənd qadınlarının iqtisadi səlahiyyətlərinin artırılması" mövzusunda yan tədbir keçirilib.

Tədbirin moderatoru - BMT Qadınlar Təşkilatının Cenevrədəki Nümayəndəlik ofisinin rəhbəri Adriana Quinyones mühüm mövzuya həsr olunan tədbirin təşkilinə görə Azərbaycana təşəkkür edib.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova çıxış edərək Pekin Bəyannaməsinin və Fəaliyyət Platformasının ciddi dəyişikliklərə səbəb olduğunu, gender bərabərliyinin qlobal əhəmiyyətini artırdığını, qadınların hüquqlarının qorunması və onların iqtisadi səlahiyyətlərinin artırılması üçün geniş imkanlar açdığını vurğulayıb.

B.Muradova qeyd edib ki, son 30 ildə biz sosial-siyasi dəyişikliklərin, müharibə və münaqişələrin, texnogen və iqlim fəlakətlərinin şahidi olduq. Buna baxmayaraq, bu çağırışlarla yanaşı, tərəqqi və texnoloji yeniliklər tərəfdaşlıq üçün yeni platformalar açıb və inkişafa nail olunub.

Azərbaycanın Pekin Bəyannaməsinin 12 kritik sahəsinə sadiq qaldığını vurğulayan komitə sədri ölkəmizdə 15-29 yaşlılar arasında kənd təsərrüfatında çalışan işçi qüvvəsinin 44,8 faizini qadınların təşkil etdiyini deyib. Bildirib ki, əhalimizin 46 faizinin kənd yerlərində yaşadığını nəzərə alan hökumət bu sahədə bir sıra yeni təşəbbüslər həyata keçirib. Ölkəmizdə qadınların kənd təsərrüfatı sahəsində təhsil almağa və müxtəlif layihələr vasitəsilə onların bir sıra sahələrdə ixtisaslaşmalarının təşviqinə diqqət yetirilir.

Bu tədris ilində həm dövlət, həm də qeyri-dövlət ali təhsil müəssisələrinin tələbələrinin 30,9 faizini gələcək karyeraları kimi kənd təsərrüfatı ixtisası üzrə təhsili seçən gənc qadınlar təşkil edib. Artmaqda olan bu tendensiya kənd yerlərində qadınların məşğulluq imkanlarına müsbət təsir göstərir. Belə ki, hazırda Azərbaycanda qadınların iqtisadi fəallığı 61,8 faizə çatıb.

Milli Məclisin Ailə, qadın və uşaq məsələləri komitəsinin sədri Hicran Hüseynova çıxışında gender bərabərliyinin inkişafı və qadınların iqtisadi səlahiyyətlərinin artırılmasının son vaxtlar beynəlxalq maliyyə mühitində əsas müzakirə mövzularından olduğunu qeyd edib. Deyib ki, əmək bazarlarında gender fərqinin daralması inkişaf etməkdə olan bazarlarda və iqtisadiyyatlarda ümumi daxili məhsulun artırılmasına töhfə verə bilər.

Milli Məclisin komitə sədri xüsusi vurğulayıb ki, həyat səviyyəsinin yüksəldilməsi, davamlı iqtisadi inkişafa nail olunması və bütün sektorlarda gender bərabərliyinin təmin edilməsi Azərbaycan hökumətinin prioritetləri arasında xüsusi yer tutur.

Açılış çıxışlarından sonra panel müzakirələri olub.

Azərbaycanın kənd təsərrüfatı nazirinin müavini xanım İlhamə Qədimova ölkəmizdə kənd təsərrüfatı sahəsində qadın sahibkarların fəaliyyəti və onlar üçün yaradılan imkanlardan danışıb.

Kənd təsərrüfatının iqtisadiyyatın inkişafında və ərzaq təhlükəsizliyinin təmin olunmasında önəmini qeyd edən İ.Qədimova bildirib ki, Azərbaycan qadınları iqtisadiyyatın digər sahələri ilə yanaşı, kənd təsərrüfatında fəal iştirak edirlər. "Hazırda 683 mindən çox qadın sahibkar elektron kənd təsərrüfatı sistemində qeydiyyatdadır. Hər il daha çox qadın sistemdən və qadınlar üçün yaradılan imkanlardan yararlanır", - deyə o əlavə edib.

"AZORGANİK" kənd təsərrüfatı istehsalı və istehlakı kooperativinin təmsilçisi Aliyə Səfərova kooperativin fəaliyyətində qadın sahibkarların da xüsusi yer tutduğunu qeyd edib. Bildirib ki, qadın sahibkarların fəaliyyətinin dəstəklənməsi və səlahiyyətlərinin genişləndirilməsi Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması baxımından mühüm rol oynayır.

BMT-nin Əhali Fondunun (UNFPA) Şərqi Avropa və Mərkəzi Asiya üzrə regional direktoru Florens Baure qadın sahibkarlardan ötrü bərabər imkanların yaradılmasının iqtisadiyyatın inkişafı üçün də önəmli olduğunu vurğulayıb. O, Azərbaycanın qadınların iqtisadiyyatda iştiraklarının artırılması və onlar üçün bərabər imkanların yaradılması istiqamətində atdığı addımların önəmini xüsusi vurğulayıb.

BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) Cenevrədəki nümayəndəlik ofisinin təmsilçisi xanım Anna Ricoy isə bildirib ki, Azərbaycanın nümunəsində də göründüyü kimi, qadınlar təkcə kənd təsərrüfatının inkişafında mühüm rol oynamır, bütövlükdə ərzaq təhlükəsizliyinin təmin olunmasında və kənd təsərrüfatı sisteminin transformasiyasında fəal çıxış edirlər. O, kənd təsərrüfatı və iqtisadiyyatın digər sahələrində yeniliklərin tətbiqində qadınların rolunu yüksək qiymətləndirib.

Mövzu ətrafında aparılan müzakirələrdə Azərbaycanda təkcə iqtisadiyyat və kənd təsərrüfatında deyil, ölkə həyatının bütün sahələrində qadınların rolunun və fəallığının artırılmasının dövlət siyasətinin əsas hədəfləri arasında yer aldığı bildirilib, Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın bu məsələyə xüsusi həssaslıq göstərdikləri vurğulanıb. Çıxışlarda, həmçinin Ermənistanın ərazilərimizi otuz il ərzində işğal altında saxlamasının və ərazilərimizi minalarla çirkləndirməsinin bu sahədə qarşıda duran hədəflərə nail olunmasına ciddi maneə yaratdığı vurğulanıb.

# Cenevrədə beynəlxalq konfransda Azərbaycanda qadın hüquqları sahəsində görülən işlərdən danışılıb

**Ailə, Qadın, və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradovanın rəhbərliyi ilə Azərbaycan nümayəndə heyəti oktyabrın 21-də İsveçrənin Cenevrə şəhərində işə başlayan BMT-nin Avropa üzrə İqtisadi Komissiyasının (UNECE) və BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Gücləndirilməsi üzrə Agentliyinin (UN Women) birgə təşkilatçılığı ilə keçirilən "Pekin+30" Regional Baxış Görüşünün açılış mərasimində iştirak edib.**



AZƏRTAC xəbər verir ki, əvvəlcə BMT Baş katibinin müavini və Birləşmiş Millətlər Avropa İqtisadi Komissiyasının (UNECE) icraçı katibi Tatyana Molcean gündəlikdə duran məsələlər barədə məlumat verib.

Sonra BMT Qadınlar Təşkilatının Normativ Dəstək, BMT Sistem Koordinasiyası və Proqram nəticələri üzrə icraçı direktorun müavini Nyaradzayi Qumbonzvanda və Parlamentlərarası İttifaqın Baş katibi, Beynəlxalq Gender Çempionları Qlobal Şurasının sədri Martin Çunqonq çıxış ediblər.

"Avropa İqtisadi Komissiyası regionunda gender bərabərliyinin sürətləndirilməsi üçün Pekin öhdəliklərinin 30 ilinə nəzər salınması" mövzusuna həsr olunan tədbirdə açılış çıxışlarından sonra təşkilati məsələlərə baxılıb, tədbirin gündəliyi səsə qoyularaq qəbul edilib və sədr seçilib. Sonra iştirakçılar birgə foto çəkdiriblər.

Azərbaycan nümayəndə heyətinin rəhbəri Bahar Muradova "Pekin+30" Regional Baxış Görüşünün "Avropa İqtisadi Komissiyası (ECE) Regionu üzrə gender bərabərliyi ilə bağlı əsas tendensiyalar" mövzusunda sessiyasında məruzə ilə çıxış edib.

Bu mühüm tədbirə geniştərkibli nümayəndə heyəti ilə qatılan Azərbaycanın son otuz ildə bu sahədə qazandığı təcrübəni bölüşməyə hazır olduğunu vurğulayan B.Muradova bu barədə açılış mərasimindən əvvəl təşkil olunan "Dövlət rəqəmsal transformasiyası vasitəsilə kənd qadınlarının iqtisadi səlahiyyətlərinin artırılması" adlı yan tədbirdə ətraflı məlumat verildiyini diqqətə çatdırıb.

Qeyd olunub ki, Azərbaycanın müstəqilliyinin bərpasından sonra üzləşdiyi çağırışlara, ərazi və insan itkilərinə baxmayaraq, bərabər hüquqlar məsələsi ölkəmiz üçün milli dəyər kimi qiymətləndirilib: "Bu öhdəlik bizi Pekin Fəaliyyət Platforması ilə bağlı əhəmiyyətli irəliləyiş əldə etməyə vadar etdi. Ölkədə, xüsusən də işğaldan azad edilmiş ərazilərdə, o cümlədən "ağıllı" şəhər və kəndlərdə müasir infrastrukturun inkişafı, rəqəmsal xidmətlər qadınların həyatını asanlaşdırır".

Məlumat verilib ki, Azərbaycanda insan hüquqlarının müdafiəsi ilə bağlı 10 qanun, 12 normativ akt, 4 fəaliyyət planı, 1 strategiya qəbul edilərək həyata keçirib. CEDAW tövsiyələrinə uyğun olaraq, gender bərabərliyi ilə bağlı problemləri həll etmək üçün yeni hüquqi tədbirlər reallaşdırılıb. Hazırda ailə qanunvericiliyinin təkmilləşdirilməsi, Məişət Zorakılığına qarşı ikinci Milli Fəaliyyət Planının və Gender Bərabərliyi üzrə Milli Fəaliyyət Planının layihəsinin hazırlanması üzərində iş aparılır.

Qadınlar üçün iş məhdudiyyətlərinin azaldıldığını, ödənişli atalıq məzuniyyəti haqqında yeni qanunun hazırlandığını vurğulayan B.Muradova bildirib ki, gender bərabərliyini təşviq etmək, qadınların səlahiyyətlərini artırmaq, məişət zorakılığına qarşı mübarizə aparmaq, həm mərkəzi, həm də yerli səviyyədə monitorinq qrupları kimi institusional mexanizmləri gücləndirmək üçün qanunvericiliyə dəyişikliklər edilib.

Komitə sədri qeyd edib ki, Birinci Pekin Konfransından ötən müddətdə Azərbaycan öhdəliklərini həyata keçirmək və qadınlarımızın səlahiyyətlərini gücləndirməyə kömək etmək üçün daim çalışıb. Belə ki, beş dəfə Azərbaycan Qadınlarının konqresi və bir dəfə forumu keçirilib. İctimai-siyasi həyatda da mühüm irəliləyişlər əldə olunub. Son parlament seçkilərində qadınlar 20,8 faiz yer tutmuşdu. Hazırda Azərbaycanda qadınlar hakimlərin 21 faizini, bələdiyyə üzvlərinin isə 39 faizini təşkil edir. Dayanıqlı İnkişaf Məqsədləri kontekstində Dayanıqlı İnkişaf üzrə Milli Koordinasiya Şurası "2030 Gündəliyi" öhdəliklərinə nəzarət edir. Azərbaycan BMT-nin Dayanıqlı İnkişaf Gündəliyinin icrasına dair dördüncü Könüllü Milli Hesabatı təqdim edən regionda ilk və dünyanın beş ölkəsindən biridir.

Noyabrda Azərbaycanın COP29-a evsahibliyi edəcəyini xatırladan B.Muradova konfrans çərçivəsində "Gender Günü"nün təşkil olunacağını vurğulayıb. Ölkəmizdə qadınların təhsil imkanlarının genişləndirilməsi məsələsinə də toxunan komitə sədri bildirib: "Həssas qruplar xüsusi təqaüd proqramları vasitəsilə dəstəklənir. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Ailə Biznesinə Asan Dəstək (ABAD), Azərbaycan Kənd Qadınları və Qadın Sahibkarlıq assosiasiyaları, o cümlədən Qadın Resurs mərkəzləri qadınların imkanlarının genişləndirilməsində mühüm rol oynayır. Buna görə də biz Pekin Bəyannaməsinə sadiq qalırıq və qadınların bütün sahələrdə bərabər iştirakına töhfə verməyə davam edəcəyik".

Tədbir çərçivəsində Pekin Bəyannaməsi və Fəaliyyət Platformasının həyata keçirilməsi istiqamətində regional tərəqqi və problemlər haqqında üzv dövlətlərin və vətəndaş cəmiyyətinin bəyanatları qəbul olunub.

"Pekin+30" Regional Baxış Görüşünə oktyabrın 22-də yekun vurulacaq.

◆ Biz qayıtdıq, Vətən!

**İşğaldan azad edilmiş ərazilərə gedəndə, ermənilərin uçurub dağıtdıqları kəndlərdə olanda illər uzunu susuzluqdan qurumayıb yaşıl qalan meyvə ağaclarından daha çox tut, əncir və nar ağaclarını görürük. Bəzi yerlərdə isə üzüm tənəklərinin də qurumadığının şahidi oluruq.**

# Yurda keşik çəkən ərik ağacı...

Nə yaxşı ki heç olmasa yurd yerlərində bu ağaclar qalmışdı. Sanki bu ağaclar ermənilərin uçurub dağıtdıqları evlərə keşik çəkir, yurd yerlərinin ağrı-acılarına məlhəm qoyur. Onlara tez-tez "bir az da dözün, doğma sakinlərimiz yaxın günlərdə qayıdacaqlar" deyir.

Amma sən demə, təkcə tut, əncir, nar ağacları və üzüm tənəkləri deyil, ərik ağacı da illərin susuzluğuna dözə bilirmiş. Bu bəlkə də ilk baxışda inandırıcı səslənməz. Amma ortalıqda fakt olanda buna inanmaya bilmirsən. Unutmayaq ki, sirli-sehirli təbiət möcüzələri çoxdur. Onlar başqa ağaclar kimi əriyi də uzun illər ovcunun içində susuz saxlaya bilər. Necə ki saxlayıb.

Bu günlərdə dediklərimizin canlı şahidi olduq. Sentyabrın əvvəllərində iş yoldaşlarımla kəndimizə - Zəngilan rayonunun Babaylı kəndinə getmişdik. Həyatımızda əlamətdar, yaddaqalan günlərimiz çox olur. Həmin günü heç vaxt unutmur, tez-tez xatırlayırıq. Bizim üçün də əlamətdar günlərdən biri 21 oktyabr 2020-ci ildir. Həmin gün Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa növbəti müraciətində doğma kəndimiz Babaylının da erməni işğalçılarından azad edilməsi müjdəsini vermişdi. Ali Baş Komandanın dilindən bu sözləri eşidəndə sevincdən göz yaşlarımızı saxlaya bilməmişdik. Həmin günü, həmin anı heç vaxt unutmayacağıq. Artıq qoynunda dünyaya göz açdığımız doğma kəndimiz azad idi. Günlərin birində ayağımız ata-baba yurduna dəyəcəkdi.

İndi budur, həmin gün gəlib çatmışdı. Uzun illərin ayrılığından sonra doğma kəndimizə gəlmişdik. Həsrət, intizar dolu günlər ötüb arxada qalmışdı. Erməni işğalçıları, başqa yaşayış məntəqələri kimi, bizim kəndimizi də yerlə yeksan etmişdilər. Çox üzücü, dəhşətli mənzərələr idi. Kənddə bir ev belə salamat qalmamışdı. Göz yaşları içində ötən xoşbəxt günləri xatırlaya-xatırlaya evimizin uçurulub dağıdılmış divarlarına baxandan sonra əzizlərimizin məzarlarını ziyarət etmək üçün qəbiristanlığa getdik.

Bizə uzaq qohumluğu çatan Şahbudaq dayının evinin qarşısından keçib əzizlərimizin uyuduqları müqəddəs məkana çıxmaq istəyəndə onun həyətində illərdən bəri qurumayıb yaşıl qalmış ərik ağacını gördük...

Əvvəlcə gördüyümüzə inanmadıq, çaşıb qaldıq. Fikirləşdik ki, bəlkə yanılmışıq, gördüyümüz ərik ağacı deyil.



Axı arxada qalan bu illər uzunu ərik ağacı susuz qala bilməzdi.

Bəs necə olub ki, ağac indiyə qədər qurumayıb? Hələ də çiçək açmağında, bar gətirməyindədi. Diqqətlə baxanda gördük ki, yox, yanılmamışıq, qarşımızda illərdən bəri qurumayan ərik ağacının özüdür ki, durub...

Doğrudan da, bu, təbiətin bir möcüzəsi idi. Az-çox əkinbiçindən, bağ-bağat işlərindən başı çıxanlar bilirlər ki, ərik çox zərif, incə bir ağacdır. Gərək onun dibindən suyunu əskik eləməyəsən, daim nazını çəkəsən, qayğı göstərəsən. Üç-dörd həftə su verməsən, susuzluğa dözməyib quruyacaq.

Ərik ağacının indiyə qədər qurumadığının bir möcüzəli tərəfi də onda idi ki, o, sulu yerdə deyil, dəmyə olan sahədə, dərənin üstündə tikilmiş evin həyətində əkilmişdi. Ağacın yaxınlığından nə arx axırdı, nə çay keçirdi, nə də bulaq var idi. Ötən illər ərzində də kimsə gətirib onun dibinə su tökməmişdi. Ağac yalnız yağışın, qarın suyu ilə qidalanmışdı.

Həyətdəki ağacların çoxu qurumuşdu. Yaşıl qalan nar ağacı və bir də bizi heyrətləndirən ərik ağacı idi. Onun ətrafındakı otlar da istiyə, susuzluğa dözməyib saralıb-solmuşdu. Bəs görəsən, necə olmuşdu ki, ərik ağacı indiyə qədər qurumamışdı. Bunun sirri, sehri nə idi? Burada yenə də ağlımıza təbiətin möcüzəsindən başqa bir şey gəlmir.

Kim bilir, bəlkə də ərik ağacının qurumamasının səbəbi torpağa, yurda olan sevgisidir. Ağac bu sevgidən "su" içərək yerə-göyə meydan oxuya-oxuya qurumur. Yaxın zamanlarda yurduna qayıdıb gələcək, bir vaxtlar onu sevə-sevə torpağa basdırmış əbədi-əzəli sahiblərini gözləyir.

Gözləyir ki, geri dönəndə ermənilərin həyətdə, kənddə törətdikləri vəhşilikləri onlara çatdırsın... Amma onu da deyək ki, bir vaxtlar həmin ağacı bu gözəl torpaqda əkən insanlar yurd həsrətinin ağrılarına dözməyərək dünyalarını dəyişiblər. Ağac bunu bilməsə yaxşıdır. Birdən bu acı xəbərdən sarsılar, saralıb-solar.

İstərdik ki, ərik ağacı heç vaxt solmasın, köçkünlər geri dönənəcən yurdumuza keşik çəksin. Ondan sonra bir az da qol-budaq atıb pərvazlansın.

İndi payızın ılıq günləridir. Ərik ağacının yarpaqları hələ də yaşıldır. Bir azdan payızın soyuğunu hiss edən kimi onun da yarpaqları saralıb töküləcək, xəzana dönəcək.

Yavaş-yavaş ağac qış yuxusuna gedəcək. Yaxşıca "yatıb" dincələcək, yaz gələndə isə oyanıb ağappaq çiçəklərə bürünəcək. Yenə də dadlı-dadlı meyvələr gətirəcək.

Yurda qayıdacaq doğma insanları gülərüzlə qarşılayacaq. Sevincdən, fərəhdən yeni qol-budaqlar atacaq, daha çox bar gətirəcək.

***Vahid MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

*Bakı-Zəngilan-Bakı*

# Azərbaycanın strateji obyektləri də erməni faşistlərinin hədəfində idi

◆ 4 il əvvəl

**44 günlük Vətən müharibəsinin davam etdiyi vaxt ərzində erməni faşistləri bütün beynəlxalq qayda-qanunları və humanizm prinsiplərini pozaraq, döyüş meydanından kənarda insan tələfatına səbəb olan qanlı cinayətlər törətdilər. Gəncədə, Tərtərdə, Bərdədə və digər yaşayış məntəqələrində dinc sakinlərə ölümsaçan silahlar yönəldərək, əslində, xalqımıza qarşı növbəti soyqırımı həyata keçirdilər. Bu, azmış kimi üstəlik, vacib infrastruktur obyektlərini də hədəfə aldılar.**



Bir sözlə, düşmən həmin günlərdə də öz vəhşi, barbar xislətindən əl çəkmirdi. Döyüş meydanındakı ardıcıl məğlubiyyətinin qisasını almaq istəyirdi, əslində, odla oynayırdı və bu odda da elə özü yanırdı. Beləliklə, neçə dəfə Mingəçevir İstilik-Elektrik Stansiyasını, neft və qaz kəmərlərini atəşə tutdu. Erməni faşistləri atdıqları raketlərdən birini döyüş getdiyi ərazilərdən xeyli uzaqda yerləşən Xızı rayonuna tuşlamışdılar. Müəyyənləşdirilmişdir ki, raket 300 kilometr radiusda hədəfləri vurmaq imkanına, 250-280 kilometr məsafədə uçuş qabiliyyətinə malikdir. O, Xızı rayonunun Sitalçay qəsəbəsi ərazisində havada zərərsizləşdirilmiş və şumlanmış əkin sahəsinə düşərək üç hissəyə bölünmüşdü. Xoşbəxtlikdən heç kim xəsarət almamışdı. Qeyd edək ki, buradan cəmi 250 metr aralıda Bakı-Novorossiysk neft kəməri keçir.

Ermənilər öz məkri və azğınlığı ilə bütün qayda-qanunları, beynəlxalq normaları, insanlıq məsuliyyətini ayaqlayıb keçirdi. Bu vandallar dərk etmir, yaxud dərk etmək istəmirdilər ki, neft və qaz kəmərlərinə atəş açmaqla təkcə Azərbaycanı təhlükə qarşısında qoymur, eyni zamanda həmin layihələrdəki tərəfdaşların hamısına zərbə endirməyə cəhd göstərirlər. Ermənilər bu və digər layihələrə vəsait yönəltmiş səhmdarlar, istehsalçı, istehlakçı və tranzit ölkələr qarşısında öz mənfur niyyətlərinə, cinayətkar əməllərinə görə cavabdehlik daşıyırdılar.

Təsadüfi deyil ki, Prezident İlham Əliyevin Rusiyanın "İnterfaks" agentliyinə müsahibəsində müxbirin verdiyi suallardan biri ermənilərin bu ağılsız hərəkətinin Azərbaycan neftinin və qazının dünya bazarına çatdırılması üçün hansı riskləri yarada biləcəyi ilə bağlı idi. Prezident demişdir: "Əgər onlar vəd etdiklərini reallaşdıra bilsələr, konkret olaraq, Səngəçal terminalını və ya bizim neft və qaz kəmərlərimizi bombalaya bilsələr, bu, əlbəttə, risklərlə bağlı olacaq. İndiki halda düşünürəm ki, onları qınayacaqlar, çünki bu neft və qaz əsasən avropalı istehlakçılara lazımdır. Sirr deyil ki, Azərbaycandan çəkilən qaz kəməri müəyyən dərəcədə, çox yox, müəyyən dərəcədə bəzi Avropa ölkələrinin enerji təhlükəsizliyinə şərait yaradır və yaradacaq".

Mingəçeviri, elektrik stansiyasını bombalamaqda isə məqsəd Azərbaycanın enerji sistemini dağıtmaq idi. Əlbəttə, vandallar bu mənfur niyyətlərinə də çatmadılar. Həm də onlar unudurdular ki, bizim artıq şaxələnmiş enerji təchizatı şəbəkəmiz, çoxsaylı yeni elektrik stansiyalarımız var.

Yevlax rayonunun Aran qəsəbəsində Bakı-Tbilisi-Ceyhan (BTC) və Xızı rayonunda - Sitalçay yaxınlığındakı ərazidə Bakı-Novorossiysk neft kəmərlərinə raket tuşlayan düşmən Azərbaycanı həmçinin Səngəçal terminalına hücum edəcəyi ilə hədələyirdi.

Xatırladaq ki, Səngəçal terminalı dünyanın ən böyük neft-qaz terminallarından biri, karbohidrogenlərin ixracının regional mərkəzidir. Azərbaycan neftini və qazını dünya bazarlarına nəql edən kəmərlər başlanğıcını buradan götürür. Belə ki, Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" (AÇG) və "Şahdəniz" yataqlarından çıxarılan neft, qaz və kondensat sualtı xətlərlə terminala çatdırılır və buradan karbohidrogenlərin dünya bazarlarına yolu başlanır.

Azərbaycanın belə mühüm əhəmiyyətə malik bir sənaye infrastrukturunu düşmənin gözü, əlbəttə, götürə bilməz. Bunun bir səbəbi də odur ki, vaxtilə bu qlobal layihələr həyata keçirilərkən Ermənistan öz işğalçılıq əməllərinə görə onlardan kənarda qalmışdı. İndi isə bütün bunlara dalandan baxır.

Məlumdur ki, Ermənistan sosial-iqtisadi sahədə böyük gerilik yaşayan, inkişafdan kənarda qalan, sakinləri dəstələrlə köçüb başqa məmləkətlərə gedən bir ölkədir. Bu ölkə regionda həyata keçirilən qlobal layihələrin heç birinin iştirakçısı deyil. Öz xislətinə görə bu layihələrin hamısından qıraqda qalıb. Neft, qaz ixracı marşrutları, dəmir yolu xətləri, nəqliyyat dəhlizləri Ermənistandan yan keçir.

Ermənistan məhz öz günahları və cinayətləri ucbatından çıxdaş edildiyi bu layihələrə zərbə endirmək cəhdi ilə bizə hədə-qorxu gəlmək istəyirdi. Onların güddüyü bu üzdəniraq məqsədlərdən Prezident İlham Əliyev bir sıra xarici KİV-ə müsahibələrində də bəhs etmişdir.

Fransanın "Fiqaro" qəzetinə müsahibəsində dövlətimizin başçısı bildirmişdir ki, üç ay müddətində Ermənistan tərəfindən Azərbaycana qarşı üçüncü dəfə hərbi təxribat olmuşdur: "Onlar birinci dəfə bizə Qarabağ bölgəsindən uzaqda olan Ermənistan-Azərbaycan dövlət sərhədində hücum etdilər. Beynəlxalq müşahidəçilərin yekdil rəyi ondan ibarət idi ki, Ermənistan bizə qarşı hücum etmişdir. Onlar yeni əraziləri işğal etmək istəyirdilər. Onlar bizim Ermənistanla dövlət sərhədindən bir neçə kilometr məsafədə yerləşən strateji enerji infrastrukturu üzərində nəzarəti ələ keçirmək istəyirdilər. Yəqin sizin də bildiyiniz kimi, Trans-Adriatik boru kəməri demək olar ki, tamamlanıb. "Cənub qaz dəhlizi" təkcə Azərbaycanın deyil, həm də Avropanın enerji təhlükəsizliyi layihəsidir. Hesab edirik ki, Ermənistanın məqsədlərindən biri bu boru kəməri üzərində nəzarəti ələ keçirmək və bizi, ola bilsin Avropa istehlakçılarını şantaj etmək idi".

Erməni vandalları bu cinayətkar əməlləri ilə həm də tərəfdaşlarımızla bizim aramızda nifaq salmaq məqsədi güdürdü.

Yaponiyanın "Nikkei" qəzetinə müsahibəsində Prezident İlham Əliyev bu məsələyə də toxunmuşdur: "Ermənistanın rəsmi nümayəndələrindən hədələr eşitmişik ki, onlar bizim kəmərlərimizə hücum edəcəklər, neft-qaz nəqli üçün mühüm olan Səngəçal terminalına hücum edəcəklər. Lakin bu da onların terrorçu xislətinin bir hissəsidir. Çünki onlar açıq şəkildə bəyan edirlər ki, mülki infrastruktura hücum edəcəklər. Əlbəttə ki, əgər onlar bunu etsə, peşman olacaqlar. Çünki bizim tərəfimizdən və həmçinin enerji təhlükəsizliyinin bir hissəsini Azərbaycandan təmin edən ölkələr tərəfindən sərt şəkildə cəzalandırılacaqlar. Həmin ölkələrin reaksiyası necə olacaq? Bu kəmərlərə milyardlarla dollar investisiya yatırılıb. Beynəlxalq banklar, Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, Asiya İnkişaf Bankı, Avropa İnvestisiya Bankı və başqaları kimi bütün aparıcı beynəlxalq banklar investisiya yatırıblar. Ona görə də Ermənistan rəhbərliyi bu cür variant barədə yaxşı düşünməlidir. Əlbəttə, qeyd etdiyim kimi, Azərbaycan özü onları sərt şəkildə cəzalandıracaq və mən düşünmürəm ki, onlar bunu, daha bir müharibə cinayətini etməyə cürət göstərəcəklər".

Başqa sözlə, "dəmir yumruğ"un ağır zərbələrinin ağrısını dadmış erməni faşistləri çalışmalıdırlar ki, bir daha yollarını azmasınlar. Çalışmalıdırlar ki, regionda gedən inkişafa qoşulmaq üçün yaranmış fürsətdən istifadə etsinlər. Yoxsa bundan sonrakı layihələrə də dalandan baxmalı olarlar...

***Flora SADIQLI,***
***"Azərbaycan"***

## 22 oktyabr 2020-ci il — ZƏFƏR gündəliyi

# İlham ƏLİYEV: "Azərbaycan-İran dövlət sərhədi tam nəzarətə götürülüb"

**Gecə cəbhənin Ağdərə-Ağdam, Füzuli-Cəbrayıl və Zəngilan-Qubadlı istiqamətlərində döyüş əməliyyatları müxtəlif intensivliklə davam edib. Düşmən müdafiə mövqelərimizi atıcı silahlar, minaatanlar və toplardan atəşə tutub.**

Azərbaycan Ordusunun keçirdiyi əməliyyat nəticəsində cəbhənin Qubadlı istiqamətində Ermənistan silahlı qüvvələrinin müdafiə olunan bölmələri şəxsi heyət və hərbi texnikada itki verərək strateji yüksəklik və bir sıra mövqelərdən geri çəkilməyə məcbur edilib.

Ermənistan silahlı qüvvələrinin cəbhənin Xocavənd istiqamətində mövqe tutan 155-ci artilleriya alayının D-20 batareyasının şəxsi heyəti arasında çoxlu sayda yaralanan var. Onların təxliyəsi üçün nəqliyyat vasitəsinin çatışmazlığı və yolların bağlanması ilə bağlı məlumat yayılıb.

### Ermənistan ərazisindən Siyəzən, Qəbələ və Kürdəmirə ballistik raketlər atılıb



Səhər saatlarında Ermənistan ərazisindən Azərbaycan ərazisi əməliyyat-taktiki raket kompleksindən ballistik raketlərlə atəşə tutulub.

Düşmən tərəfindən saat 07:00 radələrində Siyəzən rayonu istiqamətində 3 raket, saat 09:00 radələrində isə Qəbələ rayonu istiqamətində 2 raket və Kürdəmir rayonu istiqamətində 1 raket buraxılıb.

Ermənistan silahlı qüvvələrinin hədəfi dinc əhali və mülki infrastruktur olub.

Düşmənin raket hücumu nəticəsində tələfat olmayıb.

### Düşmənin könüllü döyüşçüləri atəş mövqelərini tərk edərək qaçıblar

Hadrut qəsəbəsindən şimalda yerləşən düşmənin artilleriya bölmələrinə yeni gətirilmiş könüllülər atəş mövqelərini tərk edərək qaçıblar.

Saat 09:15-dən başlayaraq Ermənistan silahlı qüvvələri işğal olunmuş ərazilərimizdən Füzuli rayonu ərazisindəki mövqelərimizi reaktiv artilleriya sistemlərindən atəşə tutublar.

### Prezident xalqa müjdəli xəbərlər verib



İlham Əliyev @azpresident · 3 мин.
Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!

İlham Əliyev @azpresident · 3 мин.
Müzəffər Azərbaycan Ordusu Zəngilanın Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

İlham Əliyev @azpresident · 10 мин.
Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfidinli, Aşağı Rəfidinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad etmişdir. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Prezident İlham Əliyev rəsmi "X" səhifəsində gün ərzində 3 paylaşım edib. İlk paylaşımında dövlət başçısı yazıb: "Müzəffər Azərbaycan Ordusu Füzuli rayonunun Mollavəli, Yuxarı Rəfədinli, Aşağı Rəfədinli, Cəbrayıl rayonunun Sirik, Şıxlar, Məstalıbəyli, Dərzili kəndlərini işğaldan azad edib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!"

Prezidentin növbəti müjdəli məlumatında qeyd edilib: "Müzəffər Azərbaycan Ordusu Zəngilan rayonunun Kolluqışlaq, Malatkeşin, Kənd Zəngilan, Genlik, Vəliqulubəyli, Qaradərə, Çöpədərə, Tatar, Tiri, Əmirxanlı, Qarqulu, Bartaz, Dəlləkli kəndlərini və Ağbənd qəsəbəsini işğaldan azad edib. Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!".

Dövlət başçısının üçüncü paylaşımında isə deyilib: "Ağbənd qəsəbəsinin azad edilməsi ilə Azərbaycan və İran İslam Respublikası dövlət sərhədinin tam nəzarətə götürülməsi təmin olundu. Bu münasibətlə Azərbaycan və İran xalqını təbrik edirəm. Eşq olsun müzəffər Azərbaycan Ordusuna!"

### Mehriban Əliyeva: "İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır"



Birinci vitse-prezident Mehriban Əliyeva "Trend" İnformasiya Agentliyinə müsahibə verərək deyib ki, hər gün cəbhədən yaxşı xəbərlər gəlir. Əsgərlərimiz və zabitlərimiz döyüş tapşırıqlarını şərəflə yerinə yetirirlər. Onlar uğurlu əməliyyatlar keçirərək, bir-birinin ardınca şəhərləri və digər yaşayış məntəqələrini işğaldan azad edir, strateji yüksəklikləri tuturlar:

"Uzun fasilədən, təqribən 30 ildən sonra biz hamımız Azərbaycan əsgərinin doğma torpaqlarımızda bayrağımızı sancmasını qürurla müşahidə edirik. Bu, sadəcə, hərbi uğur deyil. Bu, tarixi ədalətin bərpasıdır, çünki bunlar bizim əzəli, tarixi torpaqlarımızdır.

Mübaliğəsiz demək olar ki, bu gün Prezident İlham Əliyev başda olmaqla Azərbaycan xalqı yeni tarix yazır. Bizim birgə qələbələrimizin tarixini!"

### Ölkəmizdə akkreditə olunmuş xarici hərbi attaşelərə son məlumatlar verilib



Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsinin rəisi general-mayor Hüseyn Mahmudov tərəfindən ölkəmizdə akkreditə olunmuş xarici hərbi attaşelər və beynəlxalq təşkilatların ölkəmizdəki nümayəndələri üçün növbəti brifinq keçirilib.

Brifinqdə qonaqlara Ermənistanın münaqişədə birbaşa iştirakı, Ermənistan ərazilərindən döyüş əməliyyatları zonasından aralıda yerləşən Qəbələ, Kürdəmir və Siyəzən rayonlarında yaşayan dinc əhalinin və mülki infrastrukturun raket zərbələrinə məruz qalması, eləcə də humanitar atəşkəs razılığına əməl etməyərək açıq şəkildə onu pozması haqqında ətraflı məlumat verilib.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Trampın reytinqi yüksəlir

## ABŞ-nin keçmiş prezidenti həm əsas ştatlarda, həm də milli sıralamalarda mövqelərini gücləndirir

**Kamala Harris və Donald Trampın prezident seçkilərində qalib gəlmək şansları ilə bağlı Amerikanın NBC telekanalının sorğusunun nəticələri şərhçilər və analitiklər arasında böyük müzakirələrə səbəb olub.**



Bu da hər iki namizədin prezident seçkilərində qalib gəlmək şanslarının bərabər olması ilə əlaqədardır. Onların hər birini respondentlərin 48 faizi dəstəkləyib. Cəmi bir ay əvvəl Harris Trampı beş bənd qabaqlayırdı. Bu müddət ərzində Trampın reytinqi 4 pillə yüksəlib, Harrisin reytinqi isə bir pillə azalıb.

Sorğunun ortaya çıxmasından bir gün sonra Harrisin seçki kampaniyası demokrat seçicilərin e-poçt ünvanlarına mesaj göndərib: "The New York Times" qəzeti Corciya, Arizona və Şimali Karolina ştatlarında səsvermənin nəticələrini açıqlayıb. Tramp hər üç ştatda liderdir. Biz onu məğlub etməyimizə kömək üçün dərhal 25 dollar ianə verəcəyinizə ümid edirik. Xahiş edirik, 25 dollar və ya daha çox göndərin!"

Kamala Harris seçkilərdə rəsmi namizəd olduqdan sonra, avqust ayından bəri tədricən səsvermədə liderliyi ələ alırdı. Lakin bu ay vəziyyət dəyişməyə başlayıb. Oktyabrın 20-nə olan məlumata görə, sorğuda iştirak edənlərin 49,2 faizi Harrisə, 48,3 faizi isə Trampa səs verib. Amma rəqəmlər hər gün dəyişir. Eyni zamanda ABŞ bukmeyker kontorları Trampın Harris üzərində qalibiyyəti üçün daha çox şans verir - müvafiq olaraq 53 faiz və 46 faiz.

Son məlumatlara görə, namizədlərdən heç biri hələ ki, ciddi liderliyə nail ola bilməsə də, Kamala Harrisin rəqibi, ABŞ-nin keçmiş prezidenti Donald Trampın reytinqi durmadan artır. Respublikaçı namizəd həm əsas ştatlarda, həm də milli sıralamalarda öz mövqelərini gücləndirir. Sosioloqların fikrincə, yarışda trend dəyişib və bu tendensiya davam edərsə, eks-prezident Ağ Evə qayıda bilər.

ABŞ-də prezidentlik yarışının bitməsinə cəmi iki həftə qalıb. Artıq yarım aydan çoxdur ki, ictimai rəy sorğuları Donald Trampa dəstəyin güclendirilməsi tendensiyasını nümayiş etdirir.

"RealClearPolitics"in konsolidasiya edilmiş məlumatlarına görə, hələlik Kamala Harris irəlidədir. Reytinqlər aqreqatoru ona bir həftə əvvəlki 2,2 faiz bəndi ilə müqayisədə hələ də 1,3 faiz bənd üstünlüyü təmin edir. Lakin bu, son dərəcə kövrək liderlikdir. Məsələn, əvvəlki prezidentlik yarışında Co Bayden Trampı 8,9 faiz bəndi, 2016-cı ildə keçmiş dövlət katibi Hillari Klinton isə onu 6,5 faiz bəndi qabaqlamışdı. Ancaq Klinton 3 milyon səs üstünlüyü ilə irəli keçsə də, nümayəndələrin verdiyi səslərin hesabına Trampa məğlub olub.

Son vaxtlar vitse-prezidentin populyarlığı da əhəmiyyətli dəyişikliklərə məruz qalır. NBC-nin son sorğusu seçicilər arasında ona olan rəğbətin azaldığını göstərib. Bir neçə həftə ərzində Harrisin populyarlığı 48 faizdən 43 faizə düşüb. Donald Trampa dəstək təxminən 46 faiz təşkil edir.

Əsas ştatlar uğrunda mübarizəyə gəlincə, orada Donald Trampın orta hesabla 1 faizlik üstünlüyü var.

İndi prezidentlik yarışında, əslində, üç ştat uğrunda qızğın mübarizə gedir, bunlardan ikisi ənənəvi olaraq demokratlara səs verən Viskonsin və Miçiqandır. Harrisin onları qazanma ehtimalı hələ də yüksəkdir, lakin gözlənilən qədər deyil - müvafiq olaraq 51 faiz və 53 faiz.

"FiveThirtyEight" hesablamalarına görə, hər iki namizədin qalib gəlmək şanslarının təxminən bərabər olduğu Pensilvaniyada ən şiddətli mübarizə gözlənilir. "RealClearPolitics"in məlumatına əsasən, Donald Trampın orada 0,7 faiz bəndi üstünlüyü var. Belə bir cüzi üstünlük də Donald Trampın qələbəsinə qoyulan mərclərin artmasına səbəb olub. Bukmeyker kontorları onları orta hesabla 57,8 faiz, Harris üçün isə 40,9 faiz qiymətləndirir.

Yəqin ki, hazırkı göstəricilərə bu ştatlarda vəziyyətin dəyişməsi də təsir edir. Məsələn, Pensilvaniyada qeydiyyatdan keçmiş demokratların sayı son iki il ərzində 10,3 faiz azalıb ki, bu da partiyada məyusluq yaradır və onun tərəfdarları arasında laqeydliyə dəlalət edir.

ABŞ-nin həftəlik "Newsweek" jurnalı xəbər verir ki, təkcə 2023-cü ildə qeydiyyatdan keçmiş 36 mindən çox demokrat Respublikaçılar Partiyasına keçib. Bu il isə daha 61 mindən çox demokrat eyni addımı atıb.

Ölkədəki mövcud qəliz seçki sisteminə əsasən həlledici olan ümummilli səslərin çoxluğu deyil, maksimum seçici sayına malik ştatlarda qələbədir. Bu, həmişə xüsusi intriqa yaradır. Təxminən on ştata "tərəddüd edən" ştatlar deyilir. Orada demokrat və ya respublikaçı partiyalar üçün açıq-aşkar üstünlük yoxdur. Digər ştatlarda partiya elektoratı onilliklər əvvəl formalaşıb, ona görə də orada həmişə partiyalardan birinin elan edilmiş namizədi qalib gəlir.

Milli sorğular namizədin ölkə üzrə populyarlığının göstəricisi olsa da, onlar heç də həmişə seçkinin nəticəsini dəqiq proqnozlaşdırmırlar. Bunun səbəbi Birləşmiş Ştatlarda Seçici Kollegiya sistemindən istifadə edilməsidir və burada hər bir ştatdan öz əhalisinə təxminən uyğun gələn səslərin sayının alınmasıdır. Ümumilikdə Seçici Kollegiyasının 538 üzvü, yəni nümayəndə var və namizədin qalib gəlməsi üçün 270 nümayəndənin səsi lazımdır.

Nümayəndələr 2024-cü il dekabrın 17-də səs verəcəklər. Daha sonra onların səsləri ABŞ Konqresində yoxlanılacaq və sayılacaq. Bu prosedur yanvarın 6-da baş tutacaq. Səslərin hesablanması başa çatdıqdan sonra seçkilərin nəticələrinin yekun təsdiqi olacaq.

Yeni prezidentin rəsmi inauqurasiyası 2025-ci il yanvarın 20-də Vaşinqtonda keçiriləcək.

***Rizvan CƏFƏROV, "Azərbaycan"***


# OXUCULARIN VƏ MƏTBUATYAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə*

***2024-cü il üçün abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Azərmətbuatyayımı" ASC* | *(012) 441-19-91, (050) 322-33-17* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

**1 illik -187,20** (yüz səksən yeddi manat iyirmi qəpik) **manat**
**6 aylıq - 93,60** (doxsan üç manat altmış qəpik) **manat**
**3 aylıq - 46,80** (qırx altı manat səksən qəpik) **manat**
**1 aylıq - 15,60** (on beş manat altmış qəpik) **manat**




## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Gürcüstan azərbaycanlılarının üçüncü qrupu Xankəndiyə səfər edib

**Gürcüstan azərbaycanlılarının üçüncü qrupunun işğaldan azad olunan ərazilərə səfəri başlayıb.**

AZƏRTAC xəbər verir ki, qonaqlar üçün Xankəndi şəhərində gəzinti təşkil edilib. Onlara şəhər haqqında ətraflı məlumat verilib.

Qonaqlar, həmçinin Qarabağ Universitetinə gəlib, burada yaradılan şəraitlə tanış olub, tələbələrlə görüşüblər. Bildirilib ki, Dövlət Suverenliyi Günündə fəaliyyətə başlayan Qarabağ Universiteti Azərbaycanın davamlı və gələcək inkişafının təminatçısına çevriləcək kadrların hazırlanmasını, gənclərimizin ixtisaslaşmasını uğurla həyata keçirəcək.



2024/2025-ci tədris ili üzrə Qarabağ Universitetinə 1104 nəfər qəbul olunub və qəbul planı 98,5 faiz dolub. Universitetə qəbul olunan tələbələrdən 101 nəfəri 600-dən, 385 nəfəri isə 500-dən çox bal toplayıb. Ən yüksək nəticə 683,8 balla hüquqşünaslıq ixtisası üzrə qeydə alınıb. Olimpiada qalibi olan bir abituriyent universitetin elektrik və elektronika mühəndisliyi ixtisasına müsabiqədənkənar qəbul edilib. Ümumilikdə Qarabağ Universitetinə I-IV ixtisas qrupları üzrə orta qəbul balı 467,6 olub.

Daha sonra səfər iştirakçıları Xankəndi şəhərində stadiona baş çəkərək, orada yaradılan şəraitlə maraqlanıblar.

Səfər zamanı şəhərdə həyata keçirilən tikinti-quruculuq işləri barədə də məlumat verilib.

Qeyd edək ki, Gürcüstan azərbaycanlılarının səfəri üç qrup halında olmaqla, altı gün ərzində həyata keçirilir. Artıq iki qrupun səfəri başa çatıb. Üçüncü qrupa daxil olan Gürcüstan azərbaycanlıları növbəti gün Şuşa və Ağdama səfər edəcəklər.

# Şimşək çaxacaq, leysan olacaq

Azərbaycanda oktyabrın 22-nə gözlənilən hava proqnozu açıqlanıb.



Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir yağış yağacağı gözlənilir. Yarımadanın bəzi yerlərində leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Gündüz tədricən kəsiləcək. Mülayim şimal-qərb küləyi gecə və səhər arabir güclənəcək.

Havanın temperaturu gecə 9-11° isti, gündüz 13-15° isti olacaq. Atmosfer təzyiqi 766 millimetr civə sütunundan 770 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə və gündüz 75-85 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 6-10° isti, gündüz 13-17° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 3-8° isti olacağı proqnozlaşdırılır.

Naxçıvan şəhəri, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağıntı olacağı, şimşək çaxacağı, dağlıq ərazilərdə qar yağacağı gözlənilir. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 4-8° isti, gündüz 10-15° isti olacağı bildirilir.

Xankəndi, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən-Gədəbəy, Göygöl rayonlarında bəzi yerlərdə havanın arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 1-5° isti, gündüz 7-12° isti olacağı ehtimal edilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilan rayonlarında bəzi yerlərdə fasilələrlə yağıntı olacağı, şimşək çaxacağı, qar yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi arabir güclənəcək. Havanın temperaturu gecə 1-5° isti, dağlıq ərazilərdə 5°-dək şaxta, gündüz 7-12° isti olacaq.

Qazax, Gəncə, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz, Naftalan rayonlarında dağlıq ərazilərdən başlayaraq arabir yağıntı olacağı, şimşək çaxacağı, qar yağacağı gözlənilir. Dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 4-7° isti, gündüz 12-16° isti olacağı bildirilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarında bəzi yerlərdə arabir yağıntı olacağı, şimşək çaxacağı gözlənilir. Dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 3-7° isti, gündüz 10-15° isti, dağlarda gecə 3-8° şaxta, gündüz 2° şaxtadan 3°-dək isti olacağı proqnozlaşdırılır.

Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Mingəçevir, Biləsuvar, Saatlı, Göyçay, Ucar, Şirvan, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan olacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 6-10° isti, gündüz 13-17° isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabad rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Şimal-şərq küləyi arabir güclənəcək. Havanın temperaturunun gecə 6-10° isti, gündüz 13-16° isti, dağlarda gecə və gündüz 2-6° isti olacağı ehtimal edilir.

# Milli Elmlər Akademiyasında baş vermiş qanun pozuntusu faktları ilə bağlı cinayət işi başlanıb

Azərbaycan Respublikasının Hesablama Palatasından daxil olmuş material əsasında Milli Elmlər Akademiyasının fəaliyyətində aşkar edilmiş qanun pozuntuları ilə bağlı aparılmış araşdırma üzrə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində cinayət işi başlanıb.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, həmin qurumun 2020-2023-cü illərə dair fəaliyyəti üzrə təyin edilmiş audit yoxlamaları nəticəsində vəzifəli şəxslər tərəfindən külli miqdarda dövlət vəsaitinin təyinatı üzrə istifadə edilməməsi, habelə digər qanun pozuntularının törədilməsinə əsaslı şübhələr müəyyən edilib.

Qeyd edilən faktlarla bağlı aparılmış araşdırma üzrə Cinayət Məcəlləsinin 179.4 (xüsusilə külli miqdarda mənimsəmə və ya israf etmə) və 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə etmə) maddələri ilə cinayət işi başlanaraq ibtidai istintaq aparılır.

# ALLAH RƏHMƏT ELƏSİN!

Bəxtiyar Sadıqov Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Milli Məclisin deputatı Ağalar Vəliyev Xaçmaz Rayon İcra Hakimiyyətinin başçısı Elnur Rzayevə əzizi

**TOFİQ HÜMBƏTOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyəti üzvləri və İdarə Heyətinin sədri Elbay Qasımzadə Memarlar İttifaqının işlər müdiri Namiq Mahmudbəyova əzizi

**NAMİQ MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Memarlar İttifaqının İdarə Heyətinin sədri Elbay Qasımzadə görkəmli ictimai xadim

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin rəhbərliyi və kollektivi nazirliyin Aparatının Büdcə şöbəsinin müdiri Fazil Fərəcova həyat yoldaşı

**FLORA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin rəhbərliyi və kollektivi xidmətin əməkdaşı Ramiz Allahverdiyevə qardaşı

**BƏXTİYARIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

"Bakı Metropoliteni" QSC-nin kollektivi və cəmiyyətin sədri Zaur Hüseynov Bakı Metropoliteninin keçmiş rəisi

**TAĞI MƏHƏMMƏD OĞLU ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Tunelçilər Birliyinin İdarə Heyətinin sədri Şaiq Əfəndiyev, üzvləri Zaur Babayev, Arif Əliyev və Mirnasir Səmədov "Bakı Metropoliteni" QSC-nin sabiq rəisi, Yeni Azərbaycan Partiyasının Veteranlar Şurasının üzvü

**TAĞI ƏHMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru



www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 4201**
**Sifariş 2421**

**Qiyməti 60 qəpik**